# “Formula – 1”: “Kral yarışları” Azərbaycan orbitində

**İndi “Formula – 1” haqqında eşitməyən adam tapa bilməzsiniz. Bu gün “kral yarışları” planetin ən nüfuzlu və populyar idman növlərindən biridir. İnanılmaz dərəcədə həyəcanverici bir tamaşaya çevrilən mübarizədə ən yaxşı pilotlar yarışırlar.**

Bu idman növünün ən sadiq pərəstişkarları yarışları öz gözləri ilə görmək və sevimli komandalarını dəstəkləmək üçün minlərlə kilometr məsafə qət edirlər. Mühərrikin gurultusuna, trekin mürəkkəb döngələri ilə uçan maşınların çılğın sürətinə və hətta pilot kabinəsində belə eşidilən minlərlə pərəstişkarın coşqun qışqırıqlarına şahid olmaq bütün bunlara dəyər.

Azərbaycan regionun iqtisadi inkişaf lokomotivi olması ilə yanaşı, həm də güclü idman ölkəsidir. Bu reallığı təsdiqləyən çoxsaylı faktlar var. Birinci Avropa oyunlarını, İslam Həmrəyliyi Oyunlarını və hər ölkəyə keçirmək nəsib olmayan “Formula – 1” yarışını göstərmək kifayətdir.

*(ardı 11-ci səhifədə)*




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 200 (30604) 14 sentyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Ölkəmizin hərtərəfli tərəqqisi dünyanı heyran qoyur

### Prezident İlham Əliyev “Gulfstream Aerospace” şirkətinin prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də “Gulfstream Aerospace” şirkətinin prezidenti Mark Börnsü qəbul edib.**

Mark Börns sonuncu dəfə ölkəmizdə 20 il əvvəl olduğunu deyərək, bu səfəri zamanı Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını vurğuladı.

O, ölkəmizin iqtisadi inkişafını yaxından izlədiyini dedi və Azərbaycanda istismar olunan “Gulfstream” təyyarələrinin, həmçinin Bakıya gəldikdə hava limanında gördüyü təyyarələrin sayını iqtisadi inkişafımızın yaxşı nümunəsi kimi qiymətləndirdi. Mark Börns Azərbaycan ilə gələcək əməkdaşlıqda maraqlı olduqlarını bildirdi.

“Formula – 1” Azərbaycan Qran-Prisinin keçirilməsini qeyd edən qonaq bu yarışların Bakı Şəhər Halqasının dünyanın ən maraqlı traslarından biri olduğunu dedi.

Söhbət zamanı Azərbaycanın iqtisadi potensialının və coğrafi mövqeyinin mülki aviasiyamızın gələcəkdə daha da inkişafı üçün əhəmiyyətli rol oynadığı vurğulandı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## AŞPA suverenliyimizin tam bərpa edilməsi ilə barışa bilmir




Səhifə ⇨ 4

## “102” üçün həyəcan təbili

*Rəsmi İrəvanın Ermənistandakı “rus qalaları”na hücumu*



**Əslində, ötən ay Rusiya sərhədçiləri “Zvarnots”-dakı postlarının tərk edəndə bir çox məsələlərə aydınlıq gəlmişdi. Yəni, aşkar görünürdü ki, “Zvarnots”da başlanmış prosesin ardı gələcək.**

Daha doğrusu, Ermənistanda hansısa yüksək rütbəli rəsminin rusların ölkənin quru sərhədlərindən də uzaqlaşdırılmasının vacibliyindən söz açması proqnozlaşdırılırdı. İndi bu missiyanı öz üzərinə qatı anti-Rusiya mövqeyi ilə seçilən ölkə parlamentinin sədri Alen Simonyan götürüb. A.Simonyan rus hərbçilərinin Ermənistanın Türkiyə və İran ilə sərhədlərindən də uzaqlaşdırılmasının vacibliyindən söz açıb, məsələnin müzakirə olunduğunu bildirib.

*(ardı 3-cü səhifədə)*

## Azərbaycan turizmi COP 29-a necə hazırlaşır?



Səhifə ⇨ 6

## Yeni əsrin neft sazişi ötən “Əsrin müqaviləsi”nə ikinci həyat verdi



Səhifə ⇨ 7

## “Korrupsion Seele” və ya Avropanın Şvabe “çiban”ı

*Alman deputatın anti-Azərbaycan baxışlarına nəzər*

**Almaniyanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, məşhur ermənipərəst fırıldaqçı Frank Şvabe bu ilin əvvəlində BBC-yə müsahibəsində Azərbaycanda keçirilmiş 7 fevral Prezident seçkilərindən söz açmış və bildirmişdi ki, prosesdə müşahidəçilik missiyasını ATƏT deyil, Avropa Şurası həyata keçirməlidir. Əlbəttə, Şvabe öz aləmində müəyyən əsaslar gətirmiş və fikrini ikincinin birinciyə nəzərən seçki müşahidəçiliyi baxımından daha ixtisaslaşmış qurum olmasından dəm vurmuşdu.**



Ancaq bunun ardınca söylədiyi fikirlər alman parlamentarinin, necə deyərlər, qarınağrısı səbəblərini ortaya çıxarmışdı. Şvabe bildirmişdi ki, vaxtilə AŞ Azərbaycanda seçki müşahidəçiliyini həyata keçiribmiş, o zaman qurumun nümayəndələri, yerli hakimiyyət tərəfindən satın alınıbmış, indi isə bu, mümkün deyil. Ona görə də hazırda Azərbaycan iqtidarı müşahidəçilik baxımından AŞ-nin deyil, ATƏT-in üzərində dayanır. Belə çıxmışdı ki, ikincinin müşahidəçiləri, guya maddi təmənna müqabilində seçkilərdəki pozuntu faktlarına göz yumurlar. Avropada “Korrupsion Seele” (korrupsiya ruhu) ləqəbi ilə tanınan F.Şvabe başqa nə düşünə bilər? Adamın aldığı nəfəs rüşvətdir. Deməli, onun ATƏT-ə yönəlmiş vicdansızlıq və korrupsiya ittihamı təsadüfi deyilmiş.

Alman deputatı Avropanın müxtəlif ölkələrindəki erməni lobbi və diaspor təşkilatları bəsləyir. Bəsləyir ki, Azərbaycana qarşı ən məkrli ssenarilər qursun. Cənab “Korrupsion Seele” də üzərinə düşən “vəzifənin” öhdəsindən layiqincə gəlir. İndi onun qarşısına qoyulmuş “tapşırıq” bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP29) müstəvisində Azərbaycanı ləkələməkdir. Şvabe son günlər məhz buna görə “fəallaşıb”. Əlbəttə, “fəallığın” başqa bir mühüm səbəbi də var – Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya ötən həftə reallaşmış səfəri və səfərə Avropa mediasının son dərəcə böyük önəm verməsinə, ölkəmizin nüfuzunu təsdiqləyən materialların yayımlanmasına səbəb olub. Görünür, durum ermənipərəstləri hiddətləndirib. Onlar hərəkətə keçmək qərarına gələrək, Şvabeni “xoda” salıblar.

Əlbəttə, F.Şvabenin “fəallığının” parametrləri dəyişməzdir: Azərbaycanda, guya, insan hüquq və azadlıqlarına həqarətlə yanaşılır, demokratik prinsiplərə riayət edilmir, azad seçki mühiti yoxdur və sair. Digər tərəfdən, alman parlamentari bunları bildirib: “Azərbaycan öz nümayəndə heyətini assambleyaya qaytarmaq üçün heç bir şərt olmadan AŞPA qaydalarına əməl etməlidir. Azərbaycan Prezidentinə kim məsləhət verir? Avropa Şurası Parlament Assambleyasını şantaj etmək olmaz. Şərtlər çox aydındır. Azərbaycan Parlament Assambleyasının bütün qaydalarına qeyd-şərtsiz əməl etməli, siyasi məhbuslar azadlığa buraxılmalı, Azərbaycan İşgəncələrə Qarşı Komitə ilə tam əməkdaşlıq etməlidir. Təbii ki, ölkəyə giriş qadağası olmamalıdır”.

*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev “Vista Equity Partners” şirkətinin təsisçisi və icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də texnologiya sektorunda alternativ investisiyaların idarə edilməsi üzrə fəaliyyət göstərən ən nüfuzlu investisiya şirkətlərindən biri olan “Vista Equity Partners” şirkətinin təsisçisi və icraçı direktoru Robert Smiti qəbul edib.**

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun dünyanın qabaqcıl maliyyə qurumlarından biri olan “Vista Equity Partners” şirkəti ilə uğurlu əməkdaşlığını müsbət qiymətləndirərək, tərəfdaşlığı inkişaf etdirilməsi üçün yaxşı potensialın mövcud olduğunu bildirdi. Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini qeyd edən Azərbaycan Prezidenti fondun aktivlərinin qeyri-sabit maliyyə bazarları mühitində də artdığını vurğuladı.

Robert Smit Azərbaycanın investisiya potensialını yüksək qiymətləndirdiyini deyərək, ölkəmizlə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğunu qeyd etdi. Qonaq Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uzunmüddətli və uğurlu əməkdaşlıqdan məmnunluğunu bildirərək, bu əməkdaşlığın rəhbərlik etdiyi şirkət üçün böyük önəm daşıdığını dedi və gələcəkdə mövcud münasibətlərin daha da möhkəmlənəcəyinə inamını ifadə etdi.

Qeyd edək ki, 2000-ci ildə ABŞ-da təsis olunmuş və mərkəzi ofisi Texas ştatının Ostin şəhərində yerləşən “Vista Equity Partners” şirkətinin, həmçinin Nyu-York, San-Fransisko, Çikaqo və Çin Xalq Respublikasının Honkonq şəhərində ofisləri mövcuddur. Şirkətin özəl səhmlər və özəl kredit fondlarında idarə etdiyi aktivlərin toplam dəyəri 100 milyard ABŞ dolları təşkil edir. “Vista Equity Partners” 24 illik tarixi ərzində 275 milyard dollar dəyərində 585-dən çox investisiya layihəsi həyata keçirib.

*AZƏRTAC*

# Baş nazirin müavini rusiyalı nazirlə görüşüb



**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev sentyabrın 13-də Rusiya Federasiyasının kənd təsərrüfatı naziri Oksana Lut ilə görüşüb.**

Görüşdə dövlət başçılarının birgə səyləri nəticəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin siyasi, ticari-iqtisadi, energetika, nəqliyyat-tranzit, humanitar və bir çox digər sahələrdə yüksək inkişaf dinamikası nümayiş etdirdiyi bildirilib.

Vurğulanıb ki, iki ölkə arasında iqtisadiyyatın bütün istiqamətlərində olduğu kimi, kənd təsərrüfatı sahəsində də əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Azərbaycanın Rusiyaya kənd təsərrüfatı məhsullarının əsas tədarükçülərindən biri olduğu qeyd edilib. Kənd təsərrüfatı məhsullarının təchizatının artırılması ilə bağlı qarşılıqlı maraq ifadə olunub.

Görüşdə iki ölkə arasında aqrar-sənaye kompleksinin müxtəlif istiqamətlərində əməkdaşlığın genişləndirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

*XQ*

# Birinci Azərbaycan–Rusiya maliyyə dialoqu



**Sentyabrın 13-də Moskvada Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və Rusiya Federasiyasının maliyyə naziri Anton Siluanovun sədrliyi ilə Azərbaycan–Rusiya Maliyyə Dialoqunun birinci iclası keçirilib.**

Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin bütün sahələrdə ənənəvi olaraq qarşılıqlı etimada əsaslandığını və konstruktiv xarakter daşıdığını vurğulayan Anton Siluanov bildirib ki, ikitərəfli əməkdaşlığın inkişaf potensialı və ortaq maraqlar maliyyə sahəsində qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə imkan verir.

S.Şərifov isə bildirib ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin inkişafı məmnunluq doğurur və qarşılıqlı fəaliyyətin əhatə dairəsi ildən-ilə genişlənir. Nazir bütün istiqamətlər üzrə, o cümlədən qarşılıqlı maliyyə-iqtisadi fəaliyyətin, təcrübə mübadilələrinin, büdcə və vergi siyasəti, dövlət maliyyəsi idarəçiliyi sahəsində əməkdaşlığın genişlənməsini və gələcək inkişafını müəyyən edəcək Azərbaycan-Rusiya Maliyyə Dialoqunun institusionallaşmasının və sistemli şəkildə keçirilməsinin vacibliyini bildirib.

Dialoq çərçivəsində aparılan müzakirələrin nəticəsi olaraq, maliyyə nazirləri iki ölkənin maliyyə sahəsində maraqlarına cavab verən təşəbbüslərin həyata keçirilməsi üçün əməli addımlar atmaq və ekspertlər səviyyəsində texniki məsləhətləşmələr aparmaq barədə razılığa gəliblər.

*XQ*

# “Sinxua” agentliyi Azərbaycan – Çin əlaqələrinə önəm verib

**Çinin rəsmi xəbər agentliyi “Sinxua” Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Azərbaycan–Çin münasibətləri ilə bağlı açıqlaması əsasında xəbər hazırlayıb.**



“Azərbaycan rəsmisi: Azərbaycan Çinlə əlaqələrin inkişafına böyük əhəmiyyət verir” sərlövhəli materialda iki ölkənin münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə qaldırıldığı, əməkdaşlığın davamlı şəkildə inkişaf etdirildiyi bildirilib.

Prezidentin köməkçisi Hikmət Hacıyev Çinin əsl dost olduğunu, onun inkişafının, xüsusilə də texnoloji inkişafının təkcə özünə deyil, dünyaya, o cümlədən Qlobal Cənuba böyük töhfələr verdiyini vurğulayıb. Əlavə edib ki, böyük tarixi olan Çin mədəniyyətini öyrənməyə dəyər.

Hikmət Hacıyev bu ilin iyulunda Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında Azərbaycanın Çin vətəndaşları üçün birtərəfli qaydada vizasız səfər siyasətinin tətbiqinə başladığını rəsmən bəyan etdiyini bildirib, daha çox Çin vətəndaşının ölkəmizə səyahət etməsinin arzu olunduğunu deyib.

*XQ*

# Türkiyənin xüsusi nümayəndəsi XİN-də



**Sentyabrın 13-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Türkiyə–Ermənistan normallaşma prosesi üzrə xüsusi nümayəndə səfir Serdar Kılıçla görüşüb.**

Görüş zamanı Azərbaycan-Ermənistan sülh prosesi, bölgədə postmünaqişə dövründə vəziyyət, Türkiyə-Ermənistan normallaşma prosesi üzrə xüsusi nümayəndələr arasında aparılan danışıqlar, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Sülh prosesinin qarşısında duran çağırışların, o cümlədən ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən və Ermənistan Konstitusiyasında iddiaların, üçüncü dövlətlər tərəfindən Ermənistanın hərbiləşməsinə töhfə verərək regional sabitliyə hədə törədən addımların hələ də qalmaqda olduğu diqqətə çatdırılıb.

*XQ*

# Praqada COP29 müzakirəsi



**Azərbaycan Respublikasının ATƏT yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə Praqada ATƏT-in 31-ci İqtisadi və Ətraf Mühit Forumu çərçivəsində “COP29: ambisiyanın genişləndirilməsi və fəaliyyətin təşviq edilməsi vasitəsilə iqlim dəyişikliyi çağırışları ilə mübarizədə həmrəylik və birliyin təşviq edilməsi” mövzusunda müzakirə keçirilib.**

ATƏT-in İqtisadi və Ətraf Mühit Komitəsinin sədri, Avstriyanın ATƏT yanında daimi nümayəndəsi Florian Rauniqin moderatorluğu ilə keçirilmiş tədbirdə Azərbaycanın xarici işlər nazirinin müavini, COP29 üzrə baş danışıqçı Yalçın Rəfiyev də çıxış edib.

Nazir müavini cari ilin noyabrında ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransına ev sahibliyi edəcəyini bildirib, Azərbaycan tərəfindən irəli sürülmüş 14 təşəbbüs və onların təşviqi istiqamətində aparılan işlər barədə məlumat verib.

ATƏT nümayəndəsi B.Djusupov iqlim dəyişikliyi mövzusunun ATƏT-in diqqət mərkəzində olduğunu bildirib və ATƏT-in COP29-da iştirak planlarından danışıb.

Tədbir çərçivəsində ATƏT-in iştirakçı dövlətlərinin nümayəndələrinin fikirləri dinlənilib, sualları cavablandırılıb.

*XQ*

# Döyüş atışlı taktiki təlim

**Əlahiddə Ümumqoşun Ordunun 2024-cü il üçün hazırlıq planına uyğun olaraq, artilleriya bölmələri ilə nümunəvi döyüş atışlı taktiki təlim keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, təlim planına əsasən, bölmələr atəş mövqelərinin tutulması, artilleriya silah sistemlərinin döyüş tətbiqinə hazırlanması və digər tapşırıqlar üzrə fəaliyyətləri yerinə yetiriblər.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə artilleriya bölmələri şərti düşmənin planlı və plandankənar hədəflərini aşkar edərək sərrast atəşlərlə məhv edib.

Təlimin keçirilməsində əsas diqqət atəş dəstək qrup komandirlərinin və nizamlayıcıların hədəflərin koordinatlarını dəqiq müəyyən etməsi, məsafələrin və bucaqların düzgün ölçülməsi, eləcə də atəşin idarə edilməsi zamanı funksional vəzifələrinin praktiki icrasına və döyüş vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

*XQ*

# Belarus liderinin dedikləri İrəvanda qəzəb doğurub

**Belarus Prezidenti Aleksandr Lukaşenko sentyabrın 12-də ölkədə yaşayan müxtəlif xalqların nümayəndələri ilə görüşüb. Görüş zamanı onun səsləndirdiyi fikirlər, gözlənildiyi kimi, Ermənistanda etirazla qarşılanıb. Buna da A.Lukaşenkonun keçmiş Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı gerçək fikirlər söyləməsi səbəb olub.**



Əslində, biz ermənilərin onların maraqlarına cavab verməyən şəxslərin fikirlərini yaxına buraxmadıqlarının əvvəllər də dəfələrlə şahidi olmuşuq. Onlar işğalın davam etdiyi müddətdə bu işğala bəraət qazandıran şəxsləri, necə deyərlər, öpüb gözlərinin üstünə qoyurdular. Bura Avropa Parlamentinin deputatları, ABŞ Konqresinin erməni lobbisi tərəfindən ələ alınmış üzvləri, müxtəlif siyasətçilər, jurnalistlər və ictimai xadimlər daxildir. Məsələn, argentinalı dələduz, Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okampo, amerikalı siyasətçi, uzun illər Senatın üzvü olmuş, indi isə məhkəmənin barəsində çıxaracağı hökmü gözləyən Robert Menendes, yaxud Parisin meri Ann İdalqo, Böyük Britaniyanın Lordlar Palatasının sabiq vitse-spikeri, baronessa Kerolayn Koks... kimiləri ermənilərin sevimliləridir. Düz söz danışanlar, erməniləri Azərbaycanla mehriban qonşuluq münasibətləri qurmağa, üzərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə, o cümlədən regionda nəqliyyat kommunikasiyalarını açmağa çağıranlar, bir sözlə düşdükləri vəziyyətdən çıxış yolu göstərənlər hayların düşmənləridir. Bu mənada A.Lukaşenkonun da, belə deyək, "ermənifoblar"ın siyahısına daxil edilməsi gözlənilməz olmadı.

Bəs Prezident Lukaşenko nə deyib? Bildirib ki, o, uzun illər ərzində İrəvanla Bakı arasında problemin sülh yolu ilə həllinə çağırıb. Rusiyanın dövlət informasiya agentliyi – TASS-ın yaydığı məlumata görə, Lukaşenko daha sonra bununla bağlı Vladimir Putinə müraciət etdiyini deyib: "Bundan sonra artıq ikimiz Paşinyana "Bu problemi həll et!" deməyə başladıq". Onun sözlərinə görə, Ermənistan baş naziri Nikol Paşinyan cavab olaraq iki liderə "Yox, biz döyüşəcəyik!" cavabını verib: "Döyüşdülər. Niyə indi Rusiyadan, hətta bizdən də inciyirsən? Sən özün (Paşinyan nəzərdə tutulur–S.H.) Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etmisən... Kimdən inciməlisən ki?! Sənin dilini kim əlindən almışdı? Ermənistan cənubdakı "dostumuz"a (Ukraynanı nəzərdə tutur–S.H.) bənzəyir. Təmkinli ol. Sən ki, qədim sivilizasiyaya, qədim ölkəyə (?) rəhbərlik edirsən. Amma görürsünüz, Qərbə – Avropa İttifaqına getmək istədi".

Lukaşenko obrazlı şəkildə bildirib ki, Paşinyan Belarusa atəş açır, amma Rusiyaya müdaxilə etmək istəyir. Onun sözlərinə görə, Ermənistan rəhbərliyinin "ilk hücumları" Belarusa olub. "Aydındır ki, o, bizi hədəfə alıb, amma Rusiyaya daxil olmağa çalışırdı. Biz Putinlə bunu çox yaxşı gördük, başa düşdük və mən Putinə dedim ki, münasibətləri gərginləşdirməyə ehtiyac yoxdur. Erməni xalqı düşünməsin ki, biz ermənilərə qarşıyıq. Gördüyünüz kimi, heç bir reaksiya vermədik" – deyə Belarus lideri bildirib.

Lukaşenko hesab edir ki, avropalılar Ermənistanın baş naziri Qərb dünyasına daxil olmazdan əvvəl Paşinyanın özündən və Hayastanın digər rəhbər şəxslərindən nəsə tələb edəcəklər: "Avropalıların arxasında amerikalılar dayanır. Bu gün Qərbdə Amerikasız heç bir iş görülmür. Buna görə də onlar Ermənistanı dövriyyəyə cəlb etdilər. Sizcə, Ermənistanı haradasa gözləyirlər? Nə bizi, nə Ermənistanı, nə də bizim gözlərimiz önündə olan Ukraynanı heç yerdə gözləmirlər. Hər kəs öz problemləri ilə məşğuldur. Və onlar öz problemlərini başqalarının hesabına həll etmək istəyirlər".

O vurğulayıb ki, baş verənlərə baxmayaraq, şəxsən özü ikitərəfli əlaqələrin qorunub saxlanılmasında maraqlıdır: "Bütün çatışmazlıqlara və nüanslara baxmayaraq, bizimlə Ermənistan arasında əvvəlki kimi mehriban münasibətlərin qurulması yaxşı olardı. İnanın ki, bu vəziyyətin yaranmasında bizim heç bir təqsirimiz yoxdur. Biz Ermənistana əlimizdən gələn köməyi etməyə çalışır, yaxından əməkdaşlıq edirdik. Lakin görürsünüz ki, rəsmi İrəvan Qərbə və Avropa İttifaqına yönəlməyə başladı. Məncə, ermənilər ağıllı insanlardır, onlar yaxın gələcəkdə xoşbəxtliklərinin, rifahın harada olduğunu anlayacaqlar".

Belarus lideri uzun illərin təcrübəsindən çıxış edərək, Qərbin siyasətinin mahiyyətini də izah edib: "Biz Ermənistanın Qərblə, amerikalılarla əməkdaşlığına qarşı deyilik, amma siz onların siyasətini görürsünüz. Sabah Amerikada hakimiyyətə yeni rəhbərlik gələcək, hətta həm köhnələri, həm də yeniləri təmsil edən şəxsin (Kamala Harris nəzərdə tutulur–S.H.) siyasəti tamamilə fərqli olacaq. Onların vərdişi belədir. Deyəcəklər: "Siz kimsiz? Biz sizi tanımırıq". Ermənilər isə bildirəcəklər: "Necə yəni tanımırsız? Biz sizinlə dost idik, siz bizə silah verirdiniz. "Yox, biz deyildik!" – amerikalıların cavabı belə olacaq. Amerika isteblişmentinin ünsiyyət məntiqi bu cürdür. Bu, onların siyasətidir. Mən bunu sizin rəhbərliyə də deyirəm. Əgər başa düşmürlərsə, mən artıq siyasətdə naşıyam. Mən çox şey görmüşəm. Onlara etibar etmək olmaz!"

A.Lukaşenko Ermənistanı ənənəvi tərəfdaşlarla əməkdaşlıq nəticəsində əldə etdiklərini heç bir halda itirməməyə çağırıb. "Hər şey ola bilər. Amma əlinizdə olanı, bu dostluğu, qardaşlığı itirməyin. Bu, iqtisadiyyatda vahid bazardır, qarşılıqlı yardımdır, onu itirməyin. Çünki onu itirsəniz, orada heç nə qazana bilməyəcəksiniz" – deyə Lukaşenko ermənilərə tövsiyə edib.

Qeyd edək ki, Belarus və Ermənistanın münasibətləri 2024-cü il iyunun ortalarından etibarən pisləşib. Nəticədə hər iki ölkə səfirlərini məsləhətləşmələr üçün geri çağırıb. Bundan sonra Ermənistanın baş naziri N.Paşinyan Lukaşenkonun hakimiyyəti dövründə Belarusa səfər etməyəcəyi barədə bəyanat verib. Ancaq rəsmi Minsk, A.Lukaşenkonun da qeyd etdiyi kimi, münasibətlərin daha da gərginləşməsinə yol açacaq addımlar atmayıb.

A.Lukaşenkonun ağlabatan fikirləri, girişdə qeyd etdiyimiz kimi, Ermənistanda narazılıqla qarşılanıb. Onlar baş verənlərdən nəticə çıxarmaqdansa, Belarus liderini tənqid etmək yolunu tutublar. Bu isə ermənilərin böyük əksəriyyətində özünə möhkəm yer etmiş reallıqları dərk edə bilməmək xəstəliyinin təzahürü kimi qiymətləndirilə bilər.

Hayastanın "Armenian Report" saytı A.Lukaşenko çıxışını bitirər-bitirməz, bəlkə də onun dediklərini qavramamış "Biz fərqli Belarus görəcəyik" sərlövhəli analitik məqalə dərc edib. Məqalədə A.Lukaşenko "qeyri-legitim prezident" adlandırılır. Qeyd edilir ki, onun fikirlərini dinləmək qorxulu filmlərə baxmaq kimidir. A.Lukaşenko Ermənistanın daxili məsələlərinə müdaxilə etməkdə ittiham olunur: "Ermənistanın baş naziri Nikol Paşinyan Belarusdakı seçkilərin gedişinə heç vaxt müdaxilə etməyib və ya hər hansı şəkildə ona şərh verməyib. O, Belarusun hansı xarici siyasət yürütməsi ilə bağlı da heç vaxt öz fikirlərini açıqlamayıb və bu, düzgün addımdır. Bəs bunun qarşılığında biz nə görürük? Belarus rəhbərinin Ermənistanın işlərinə müdaxiləsinin nümunələrini... Beləliklə, bu dəfə o, son illərdə "Artsax"da baş verən hadisələrdə Ermənistan rəhbərliyinin günahkar olduğunu açıqladı".

Yazıda Ermənistan və Belarusun Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi İttifaqı, həmçinin Gömrük İttifaqı üzrə müttəfiq olduqları xatırladılır və Minskin İrəvana dəstək verməli olduğu deyilir. Guya, Belarus Ermənistanın əvəzinə Azərbaycanla döyüşməli imiş. Əslində, İrəvan uzun illər ərzində elə həmin KTMT-yə və Rusiya ilə strateji müttəfiqliyə güvənərək Azərbaycan torpaqlarını işğal altında saxlayır və sülh danışıqlarında konstruktivlik nümayiş etdirmirdi. Amma Azərbaycan rəhbərliyinin müdrik siyasəti, Rusiya tərəfi ilə ardıcıl iş aparması nəticəsində rəsmi Moskva öz mövqeyində beynəlxalq hüquq normalarını əsas götürdü. Nəticədə biz 44 günlük Vətən müharibəsi zamanı V.Putinin "döyüşlər Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində gedir" fikrini səsləndirməsinin şahidi olduq. Ermənilər isə bunun günahını özlərində görməkdənsə, Rusiya və Belarusu ittiham etmək yolunu tutdular.

Elə "Armenian Report" da, necə deyərlər, eyni bayatını zümzümə edir. Sayt yazır ki, Rusiya və Belarus birbaşa müttəfiqlik öhdəliklərini yerinə yetirməmək təqsirini öz üzərlərindən atmağa çalışırlar: "Bəli, onlar hələ 2016-cı ilin aprelində Azərbaycan ilk təxribatı törədəndə (?) buna reaksiyanı yoxlamaq üçün öhdəliklərini nümayiş etdirməyə borclu idilər. O zaman Ermənistanın başında Paşinyan yox, tamamilə rusiyapərəst Serj Sarkisyan dayanırdı. Yaxşı, Rusiya və Belarus, bütün KTMT özlərini necə apardılar? Hər kəs bunu yaxşı xatırlayır. Bunu görən Bakı başa düşdü ki, böyük müharibəyə başlamaq olar. Yeganə məsələ vaxtla bağlı idi. Lukaşenko bütün bunları bilirdi. Bəs o nə etdi? Öz sözləri ilə desək, o, Paşinyana "Artsax"ı döyüşsüz, könüllü təslim etməyi təklif edib. O, müttəfiqinə kömək təklif etməyib, təslimolma aktını imzalamağı məsləhət görüb".

Ermənilərin xüsusi narazılığına səbəb olan məsələlərdən biri də Belarus liderinin bu ilin mayında Şuşa şəhərinə səfər etməsi olub. Yada salaq ki, məhz həmin səfərdən sonra Paşinyan ölkəsinin Minskdəki səfirini geri çağırıb. Yazıda Nikolun bu addımı "çox düzgün hərəkət" adlandırılıb.

Məqalə əvvəldən axıradək bu cür yanlış yozumlardan ibarətdir. Onu oxuduqca, Ermənistan cəmiyyətinin düşünən kəsiminin yanaşmasının bu cür olması məyusluq doğurur. Biz Ermənistandan sülh istiqamətində ciddi addımların atılmasını gözləyərkən onlar hələ də xam xəyallar arxasında qaçırlar. Hələ də Svetlana Tixanovskayanın Belarusun yeni prezidenti olacağını düşünürlər. Onu "Ermənistanın böyük dostu" adlandırır və hakimiyyətə gəldikdən sonra rəsmi Minskin Azərbaycanla bağlı mövqeyində köklü fərqlərin olacağını bildirirlər. Belə bir ölkə ilə eyni bölgədə yaşamaq, qonşu olmaq, doğrudan da, çətindir...

***Səxavət HƏMİD***
***XQ***

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Sentyabrın 13-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

İclasda əvvəlcə Komissiyanın sentyabrın 11-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər maraqlı subyektlərin və ərizəçilərin də iştirakı ilə geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

Komissiya daxil olan müraciətlərin və müxtəlif mənbələrdən əldə edilən məlumatların tam şəffaf, obyektiv və hərtərəfli araşdırılması nəticəsində Milli Məclisə seçkilər keçirilən 11 seçki məntəqəsində – 21 saylı Nəsimi–Binəqədi seçki dairəsinin 30, 70 saylı Neftçala seçki dairəsinin 24, 27, 34, 35, 48 və 49, 86 saylı Ağcabədi seçki dairəsinin 7 və 97 saylı Tərtər–Ağdərə–Goranboy seçki dairəsinin 3, 4 və 18 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyənləşdirilməsinə imkan verməyən, Seçki Məcəlləsinin tələblərinə zidd olan halları nəzərə alaraq həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrini etibarsız hesab edib.

Media mənsubları tərəfindən operativ şəkildə işıqlandırılan iclasın sonunda, həmçinin cari məsələlərə də baxılıb.

***XQ***

**(əvvəli 1-ci səhifədə)**

Yada salaq ki, baş nazir Nikol Paşinyan rusların "Zvarnots"dan ayrılması xüsusunda yarımçıq əxz etdiyi diplomatikliyə söykənərək demişdi ki, erməni sərhədçiləri artıq təcrübə qazanıblar, indi öz işlərini özləri görə bilərlər. Nikol, hətta ruslara təşəkkürünü də bildirmiş, əslində isə onları məsxərəyə qoymuşdu. Baş nazir yaxşı bilirdi ki, Moskvanın öz sərhədçilərini İrəvanın hava limanında saxlamaq üçün heç bir təsir imkanı yoxdur. Məsxərə də bunun vurğulanmasına yönəlmişdi.

Böyük ölçüdə yanaşsaq, indi də Rusiyanın öz ordu birləşmələrini Ermənistanın Türkiyə və İran sərhədlərində saxlaması üçün hansısa real tutacaq yeri yoxdur. Digər tərəfdən, Qərbin buyruqlarını yerinə yetirən rəsmi İrəvanın Kremli Cənubi Qafqazdan sıxışdırmaq planlarının olduğunu da bilirik. Ermənistanın tərkibində yer aldığı və Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını boykot üçün gətirdiyi arqumentlərə diqqət yetirsək, həmin arqumentlərin haqqında söz açdığımız məsələ ilə bağlı da keçərliliyini söyləyə bilərik.

# "102" üçün həyəcan təbili




Yada salaq ki, Ermənistan rəhbərliyi KTMT-nin ölkənin təhlükəsizliyinin təmin olunmasında dişsizliyini vurğulayırdı. Heç kəs təminat verə bilməz ki, eyni ritorika Türkiyə və İran sərhədlərindəki rus hərbçilərinə nəzərən işə düşməyəcək. Hazırda rəsmi İrəvan mövcud istiqamətdə hər cür təxribata əl atmaq potensialındadır. Vaxt var idi, Paşinyan Gümrüdəki 102-ci rus hərbi bazası qarşısında etiraz piketləri təşkil etdirirdi. Yenə də tərəddüdsüz oxşar addımı atması mümkündür.

Digər tərəfdən yanaşsaq, hazırda Paşinyan və komandası Cənubi Qafqazda sülhdən yayınmaq yönümlü manipulyasiyalarını Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı müstəvisində həyata keçirməkdədir. Faktiki olaraq, bir ölkənin ərazisində digər ölkənin hərbi bazalarının olması isə Hayastanın müstəqilliyini məhdudlaşdıran amildir. Deməli, Nikol mövcud məsələdəki arqumenti də asanlıqla dövriyyəyə buraxa bilər.

Bu yerdə spiker Simonyanın Ermənistan hökumətinin Rusiya sərhədçilərinin İran və Türkiyə ilə sərhəddə qalmasının məqsədəuyğunluğu barədə düşünməli olduğuna dair fikirlərini yada salaq. Yeri gəlmişkən, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova erməni parlament sədrinin fikrinə reaksiya verib. O deyib ki, Rusiya sərhədçilərinin Ermənistanın Türkiyə və İranla sərhədlərindən çıxarılması Ermənistanın təhlükəsizliyi baxımından məqsədəuyğun deyil.

M.Zaxarova onu da deyib ki, regionda situasiya tamamilə aydınlaşanadək, Rusiya sərhədçiləri oradan çıxarıla bilməz: "Görünür, Alen Robertoviç Nikol Paşinyanın mətbuat konfransını diqqətlə izləməyib. Rusiya sərhədçilərinin Ermənistan sərhədlərində yerləşdirilməsinə dair razılaşma 1992-ci ildə qeyri-müəyyən müddətə imzalanıb. Rusiya sərhədçiləri orada olmalarının zəruriliyini dəfələrlə isbat ediblər".

Görəsən, "regionda situasiya tamamilə aydınlaşanadək" məntiqi özündə nəyi ehtiva edir. Hər halda, Ermənistana Türkiyə və İrandan təhlükə nəzəri cəhətdən də yoxdur. Gürcüstandan da hansısa təhdid istisnadır. Azərbaycana gəldikdə, burada məsələnin qoyuluşu fərqlidir. Çünki hazırda rəsmi İrəvanın rus hərbçilərinin sərhədlərdən uzaqlaşdırılması məntiqi daha çox onun Bakı ilə münasibətlərinə aiddir.

Məlum olduğu kimi, ərazi bütövlüyünü və suverenliyi əlində bayrağa çevirmiş Ermənistan üçtərəfli bəyanatın 9-cu bəndinin icrasından boyun qaçırır. Daha doğrusu, ölkə Rusiya sərhədçilərinin Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolda təhlükəsizliyi təmin etmələrinə qarşı çıxır. Paşinyan və komandasındakılar bu arqumenti gücləndirmək üçün də rusların digər sərhədlərdən uzaqlaşmasını tələb edə bilər. Hərçənd, mövzu xüsusunda Zaxarovanın öz arqumentləri var. O bildirir ki, Ermənistanın qonşuları ilə münasibətləri sabit deyil və təhlükəsizlik barədə düşünməkdə fayda var. "Bu məsələdə ekspert olmayanlar yumşaq divanda oturub öz fikirlərini ifadə edə bilərlər, amma belə məsələlərdə Ermənistanın sərhədlərini mühafizə etmək üçün həyatını təhlükədə qoyanları dinləmək daha düzgün olardı", – deyən Rusiya XİN-in sözçüsü onu da bildirib ki, A.Simonyan belə məsələlərin müzakirəsi üçün kifayət qədər səriştəli deyil.

Əlbəttə, hələlik, kimin daha çox səriştəli olduğunu zaman göstərəcək. Başlıca məqam isə odur ki, İrəvan anti-Rusiya xətti həyata keçirməkdədir və mövcud kurs istər-istəməz Rusiyanın Ermənistanın Türkiyə və İranla sərhədindəki hərbçilərin uzaqlaşdırılmasını daha da ciddiləşdirəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ersin Tatar: Şimali Kipr Azərbaycanda uğurla təmsil olunub



**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Azərbaycanda keçirilən futbol üzrə "Ulduz Cup" turnirində iştirak edən ŞKTC-nin 12 yaşadək futbolçulardan ibarət yeniyetmələr komandasının futbolçularını və məşqçi heyətini qəbul edib.**

E.Tatar gənc futbolçulara müraciət edərək U12 komandasının turnirdə iştirakını "tarixi hadisə" adlandırıb. O, Azərbaycan ilə ŞKTC arasında əlaqələrin inkişafında Prezident İlham Əliyevin şəxsi töhfəsini xüsusi qeyd edib.

"Müstəqil Türk Kipri xaricdə, qardaş Azərbaycanda uğurla təmsil olunub. Buna görə səmimi minnətdarlığımı bildirirəm", - deyən ŞKTC Prezidenti Qubada keçirilən turnirin U-12 komandası üçün idman təcrübəsi əldə etmək üçün əla fürsət olduğunu diqqətə çatdırıb.

***XQ***

# Ölkə əhalisinin yeni sayı

**Ölkə əhalisinin sayı bu ilin əvvəlindən 23 min 477 nəfər və ya 0,2 faiz artaraq 2024-cü il avqust ayının 1-i vəziyyətinə 10 milyon 204 min 247 nəfərə çatıb.**

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, əhalinin ümumi sayının 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

***XQ***

# AŞPA suverenliyimizin tam bərpa edilməsi ilə barışa bilmir

## *Azərbaycanın şərtləri yerinə yetirilməsə Avropa Şurasından çıxmaq prosesinə start veriləcək*

**2024-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası (AŞPA) Azərbaycanın qurumdakı nümayəndə heyətinin etimadnaməsini təsdiq etmədi. Yəni, nümayəndə heyətimizin bu qurumdakı fəaliyyətinə, bir növ, birillik “embarqo” tətbiq olundu. Buna cavab olaraq, Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəldi və bəyanat verdi.**



AŞPA-nın qətnaməsində “Dağlıq Qarabağla bağlı, xüsusilə də Laçın dəhlizindən sərbəst və təhlükəsiz keçidin təmin olunması, Dağlıq Qarabağdakı humanitar vəziyyətə dair qətnamələrin yerinə yetirilməməsindən və yüz mindən çox erməni əhalinin bölgəni tərk etməsi ilə nəticələnən ötən ilin sentyabrında baş vermiş hərbi əməliyyatlardan narahatlıq keçirdiyi” diqqətə çatdırılır. Qurumun Monitorinq komitəsinin həmməruzəçiləri Azərbaycanın AŞPA ilə əməkdaşlıqda yol verdiyi “boşluqları” da qətnamədə qeyd ediblər. Xatırladaq ki, bu qurum keçən ilin sentyabr və oktyabr aylarında “Dağlıq Qarabağda humanitar vəziyyətə dair” və “Azərbaycanın Qarabağda apardığı hərbi əməliyyatları qətiyyətlə pisləməsi” barədə qətnamələr qəbul edib. Hətta Bakını sanksiyalarla hədələyib. AŞPA-nın reallığı təhrif edən, ədalətsiz, ermənipərəst mövqeyinin göstəricisi olan həmin qətnamələrə Azərbaycan XİN arqumentli və tutarlı cavab verdi. Mövcud vəziyyətdən hansı hüquqi və siyasi çıxış yolları var? Bəs, Azərbaycanla Avropa institutları, xüsusən də AŞPA arasında növbəti dəfə ehtirasların artması nəyə gətirib çıxara bilər? Bu və digər suallarımızı **Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Fərhad Məmmədov cavablandırır:**

– Əvvəlcə onu nəzərə çatdırım ki, Azərbaycanın xarici siyasətinin Avropa istiqaməti institusional olaraq “üç yarım” institutu əhatə edir. Birincisi Avropa Şurasıdır (AŞPA daxil olmaqla) ki, biz bu qurumun tamhüquqlu üzvüyük. Coğrafi baxımdan qitəni əhatə edən Avropa Şurası anaxronizmdir. Burada regionlaşma baş verdiyindən artıq Avropa İttifaqı ilə münasibətlər ön plana keçib. İkincisi ATƏT kimi yarım ölü strukturun tamhüquqlu üzvü sayılırıq. “Qoca qitə”nin üzvü olduğumuz üçüncü institutu Avropa İttifaqıdır. Aİ ilə Azərbaycan arasında 1997-ci ilin sənədi və iki il əvvəl enerji sahəsində strateji tərəfdaşlıq əlaqələrini tənzimləyən ayrıca saziş və bəyannamə var. Bu münasibətlər davam edir. Nəhayət, dördüncü struktur Avropa Siyasi Birliyidir. Sonuncu yaranmış bu qurum hələ tam institutlaşmayıb, hazırda ATƏT-i əvəz etmək üçün yeni fəaliyyət prinsiplərini formalaşdırmağa çalışır.

**– Sizin fikrinizcə, Azərbaycan parlamenti ilə AŞPA arasında münasibətlərin böhran həddinə gəlib çatmasının əsas səbəbi nədir?**

– 44 günlük Vətən müharibəsindən sonra yalnız Aİ iki ölkə arasında danışıqlar prosesində vasitəçilik rolunu oynamaq imkanı əldə etdi, amma Aİ Şurasının prezidenti Şarl Mişelin Qranada bəyanatını imzalaması səbəbindən qurumun vasitəçilik missiyası uğursuz oldu. Bununla yanaşı, Aİ-nin əsas qurumu – Avropa Parlamenti də açıq-aşkar anti-Azərbaycan mövqeyi tutdu. AP-ın nümunəsini AŞPA da təkrarladı. Nəticələr hamıya məlumdur. Azərbaycanın tamhüquqlu üzvü olduğu AŞPA-da nümayəndə heyətimizin təmsilçiliyi don-



duruldu. Bu, siyasi qərardır. Açıq demək lazımdır ki, almaniyalı deputat Frank Şvabenin Azərbaycana qarşı məqsədyönlü şəkildə təşkil etdiyi böhtan kampaniyası Milli Məclislə AŞPA arasındakı münasibətlərdə böhranın yaranmasına səbəb oldu. Azərbaycan nümayəndə heyəti iştirakını bir il müddətinə dondurdu, AŞPA-nın məlum qətnaməsindən sonra Azərbaycan nümayəndə heyəti öz qərarı ilə səlahiyyətlərini dayandırdı. Əsas səbəblərdən biri də budur.

**– AŞPA məlum qətnaməsində Azərbaycanın, guya, azad və ədalətli seçkilərin keçirilməsi, məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması kimi öhdəliklərə etinasız yanaşdığı öz əksini tapıb…**

– AŞPA-nın bu cür münasibətinə səbəb Ermənistan silahlı qüvvələrinin qalıqlarını torpaqlarımızdan çıxarmaq üçün Azərbaycanın 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirdiyi antiterror əməliyyatı və bunun nəticəsində bütün ərazilərində özünün suverenliyini bərpa etməsidir. AŞPA Azərbaycanın bunu bacarması faktı ilə hələ də barışa bilmir. Ona görə ki, Avropanın bu “titullu” qurumu Azərbaycanın maraqlarını heçə saymaqla özünün regionda daim arbitr rolunu oynayacağını nəzərdə tuturdu. Bir neçə ay ərzində AŞPA üzvü olan bir sıra ölkələrin milli nümayəndə heyətləri münasibətlərin normallaşdırılması və Azərbaycan nümayəndə heyətinin qurumdakı fəaliyyətinə qayıtması məqsədilə AŞPA-ya müraciət etdilər. Amma bu müraciətlərə məhəl qoyulmadı. Buna cavab olaraq rəsmi Bakı öz növbəsində, AŞPA-nı növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün çağırmadı. Çünki Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılmasına səs verən avoparlamentarilərin ölkəyə girişinə qadağa qoyuldu. Bu da məntiqi addımdır. Ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyinə görə Azərbaycana qarşı sanksiyalar tətbiq edən, bəyanatlar verən bir təşkilatın nümayəndələrini ölkəyə dəvət etmək və onlara seçkiləri izləmək imkanı vermək nəyə lazım idi?!

**– Aydın məsələdir ki, qarşılıqlı münasibətlərin arzuolunmaz həddə çatmasında AŞPA-nın konkret üzvlərinin rolu var…**

– Bəli. Yuxarıda belə təxribatçılardan birinin – almaniyalı deputat Frank Şvabenin adını qeyd etdik. Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 6-da İtaliyada keçirilən 48-ci Beynəlxalq Çernobbio Forumundakı çıxışında dedi ki, Azərbaycan nümayəndə heyətinin bu qurumda səlahiyyətləri bərpa edildikdən sonra AŞPA üzvlərinin ölkəmizə səfərinə qoyulan qadağa aradan qaldırılacaq. Azərbaycanın bu konstruktiv mövqeyi AŞPA-da, xüsusən də ermənipərəst deputat Şvabe və onun əlaltıları tərəfindən hiddətlə qarşılanıb. Böhranın daha bir eskalasiya həddi bu yaxınlarda Azərbaycanın İşgəncələrə Qarşı Komitə ilə, yəni təqsirləndirilən və həbs olunan erməni separatçıları mövzusunda əməkdaşlığa hazır olduğunu bəyan edəndə baş verdi.

**– AŞPA-nın məlum qətnaməsinin ilkin mətnində “prosedur qaydalar yerinə yetirildikdən sonra” Azərbaycan nümayəndə heyətinin öz fəaliyyətini davam etdirə biləcəyi yazılıb…**

– Elədir. Doğrudur, AŞ-dan çıxmaq onun tərkibindəki digər təsisatlarda da fəaliyyəti dondurmaq deməkdir. Amma AŞPA-nın bu davranışı cavabsız qala bilməz. Azərbaycan ərazi bütövlüyü və ədalətin bərpası mövzusuna kənardan heç bir müdaxiləyə imkan verməyəcək. Rəsmi Bakı cinayət əməllərinə görə həbs edilmiş 23 Ermənistan vətəndaşı mövzusuna da məhz belə yanaşır. Əgər ərazi bütövlüyünə, suverenliyinə, ədalətin bərpasına görə Azərbaycan Avropa Şurasından çıxmalı olsa, bu, baş verəcək. Və heç kimin buna şübhəsi olmasın. Diplomatik mənbələrdən məlum olur ki, Azərbaycan hadisələrin bu cür neqativ inkişafına hazırlaşıb və növbəti anti-Azərbaycan addımları gözləmədən AŞ-dan çıxmaq qərarını verə bilər.

Prezident İlham Əliyev AŞPA–Azərbaycan münasibətlərinin normallaşmasının hansı şərtlər daxilində baş verə biləcəyini qeyd edib. Bu şərtlər yerinə yetirilməsə, çıxış prosesinə start veriləcək…

Beləliklə, AŞPA-nın ədalətsiz qətnaməsinin ömrünün bitməsinə üç ay yarım qalmış mövzuya qayıtmağı zəruri saydıq. Azərbaycanın Avropa üçün əhəmiyyətli ölkə olması faktını AŞPA-da təmsil olunan deputatların böyük əksəriyyəti qəbul edir. Aİ üzvü olan yeddi ölkə ilə enerji daşıyıcıları sahəsində etibarlı tərəfdaşlıq münasibətlərinə malik Azərbaycan bu əməkdaşlığı davam etdirməkdə maraqlıdır.

*Təqdim etdi:*
***İmran BƏDİRXANLI***
***XQ***

# “Korrupsion Seele” və ya Avropanın Şvabe “çiban”ı



**(əvvəli 1-ci səhifədə)**

Göründüyü kimi, alman deputat Azərbaycan nümayəndə heyətini AŞPA-dakı səs hüququndan məhrum etmək üçün hansı cəfəng və absurd məqamları qabartmışdısa, yenə eyni tərzdə davranır. Hər halda, anti-Azərbaycan mahiyyətli siyasi dünyagörüşündə şər və böhtandan başqa nə isə yenilik ola bilməz. Amma “yenilik” var və bu haqda söz açmazdan əvvəl bildirək ki, Şvabenin açıqlaması həm də onu göstərir ki, bu şəxs ümumən ölkəmizin AŞPA-da təmsil olunmasına qarşıdır. Daha doğrusu, qurumda ölkəmizə maraqlı olan qütblərin təşəbbüslərini beşiyindəcə boğmağa çalışır. Ona görə də təfəkkürünün mücərrəd guşəsində bəslədiyi sərsəmlikləri yenidən Avropanın ictimai rəyinə sırımağa can atır. Əlindən gələni ardına qoymasın. Çünki Şvabe kimi birdəfəlik istifadə alətlərini çox görmüşük. Necə deyərlər, it hürər, karvan keçər.

İndi isə Şvabenin anonsunu verdiyimiz “yeniliyindən” danışaq. Əslində, söhbət hansısa yenilikdən getmir. Sadəcə, alman deputatın anti-Azərbaycan xisləti o qədər güclüdür ki, onu, bir növ, “bədiiləşdirib”. Əlbəttə ki, yaxşı bacardığı korrupsiya əməli müstəvisində. Məlum olduğu kimi, bir müddət əvvəl Almaniyanın ictimai televiziya kanalı olan “ARD”də ölkəmizə həsr olunmuş “Uçurum” filmində nümayiş olunmuşdu. Alman vergi ödəyicilərinə 500 min avroya başa gəldiyi bildirilən ekran işində Avropanın, o cümlədən Almaniyanın siyasi cameəsi Azərbaycanla rüşvət sövdələşmələrində günahlandırılıb.

Bəli, Şvabenin təşəbbüsü ilə çəkilmiş “Uçurum”un süjet xətti şər və böhtan üzərində qurulması ilə heyrət doğurur. Deməli belə: Gerd adlı vicdanlı olduğu bildirilən alman deputat Azərbaycandakı seçkilərə müşahidəçi kimi qatılmaq qərarına gəlir. O, Bakıdan olan erməni qadını Alina Kasparyan ilə sevgi münasibətlərindədir. Alinanın həyat yoldaşı isə neft sənayesindən olan “pis əmilərin” evlərini dağıtdığına görə dünyasını dəyişib. Alina isə Almaniyaya köçüb və Gerdlə münasibətə başlayıb. Lakin Alinanın qızı Leyla Kasparyan Azərbaycana qayıdıb, “Azərbaycanın səsi və Bakının vicdanı” adlı dissident bloqu sayəsində məşhurlaşıb.

Şvabenin qəhrəmanı olan Leyla həm də LGBT nümayəndəsidir. Yəni, görünür, “ssenaridə” bunsuz olmazdı. Mövcud status Azərbaycanda dəhşətli tabu sayılır. Lakin Leyla cəsarətli davranır və onun xarakteri qız sevgilisini də riskə atır. Sevgilisi Valentina Əhmədova isə Avropa Şurasının nümayəndə heyətini qəbul edən azərbaycanlı deputatın müşaviridir.

Bir sözlə, erməni lezbiyan Leyla ilə deputat Gerd Azərbaycan hakimiyyətinə qarşı mübarizə aparırlar. Onlar müəyyənləşdirirlər ki, “Qarabağın işğalından” (ölkəmizin Qarabağa sahiblənməsi və 44 günlük müharibə belə təqdim olunub – red.) sonra Azərbaycan Avropa üçün elektrik avtomobilləri və smartfonlar istehsalı üçün mühüm xammal təchizatçısına çevrildi və buna görə avropalılar “Azərbaycan rejiminə” göz yumurlar.

Əlqərəz, Şvabenin təşəbbüsü ilə belə bir cəfəng və bəsit motivli ekran işi bu ilin martında Bundestaqda nümayiş olunub. Qapalı keçirilmiş təqdimata alman deputatların, “Transparency International” təşkilatının nümayəndələrinin, “ARD” telekanalının təmsilçilərinin və Almaniyanın LGBT icması nümayəndələrinin gəldikləri məlumdur.

Şvabenin ermənipərəst mövqeyinin davamı kimi, alman parlamentarinin 44 günlük müharibə günlərində də gündəmə gəlməsini xatırlayaq. Məsələn, o, 29 oktyabr 2020-ci il tarixdə Bundestaqda çıxışı zamanı demişdi ki, Qarabağ münaqişəsi güc yolu ilə həllini tapmayacaq. Deputatın sözlərinə görə, Azərbaycan ərazi qazancı əldə edə bilər, lakin bu, sülhə gətirib çıxarmayacaq, danışıqlar ATƏT platformasında aparılmalı olacaq. Axı ATƏT platforması Qarabağın və digər Azərbaycan torpaqlarının işğalını leqallaşdırmağa yönəlmişdi. Şvabe bilirdi nə deyirdi...

Alman deputat daha bir açıqlamasında isə Türkiyəni Ermənistan və Azərbaycan arasındakı münaqişəyə müdaxilədə günahlandırmış, bütün hərbi birləşmələrin geri çəkilməli, döyüşlərin dayandırılmalı və hər iki tərəfin münaqişənin sülh yolu ilə həlli üçün danışıqlar aparmaq üçün bir araya gəlməli olduğunu vurğulamışdı. Şvabenin “sülh qaranquşluğunun” erməni avantürizminin saxlanılmasına xidmət etdiyi də məlumdur.

Bundan başqa alman deputat 2023-cü il oktyabrın 3-də, yəni ölkəmizin Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən, bölgədəki separatçı rejimin canını tapşırmasından sonra Alman Federal Hökumətinin dini etiqad azadlığı üzrə komissarı statusunda çıxış edərək, yaranmış vəziyyətdən narahatlığını ifadə etmişdi. O demişdi ki, “Azərbaycan erməni-xristian dininin bütün sübutlarını məhv etməyə çalışır”. Son dərəcə həyasız notlara köklənmiş Şvabe onu da bildirmişdi ki, Azərbaycan Qarabağın dini abidələrinə münasibətdə 2020-ci ildə işğal etdiyi ərazilərdəki, həmçinin vaxtilə erməni xristian həyatı izlərini sildiyi Naxçıvan eksklavındakı kimi eyni təcrübədən bəhrələnmək istəyir.

Qeyd edək ki, Azərbaycan heç bir xristian dini abidəsini dağıtmayıb. Ancaq Şvabedə az da olsa, vicdan hissi qalsaydı, otuz il ərzində Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında törətdiyi vandalizm aktlarına diqqət yetirərdi. Əlbəttə, alman deputatdan vicdan gözləntimiz yoxdur. Buna inanacaq qədər sadəlövh ola bilmərik. Həm də ona görə ki, Şvabenin ildən-ilə özünün qatı ermənipərəstlik mövqeyindəki rəng çalarlarını daha da tündləşdirdiyini görmüşük. Məsələn, onu görmüşük ki, bu adam Azərbaycana qarşı Qarabağı tərk etmiş ermənilər məsələsində yarıtmaz tələblər səsləndirib, ölkəmizi etnik təmizləmədə qınayıb, Laçın dəhlizinə görə vay-şivən qoparıb.

Bir qədər əvvəlki zaman kəsiyinə diqqət yetirsək, görərik ki, Şvabe təzə ermənipərəst deyil, stajlı ermənipərəstlərdəndir. O, 2018-ci ildə AŞPA-da Avropa Şurasına üzv ölkələrin ərazisinə insan hüquqlarının monitorinqi missiyalarının göndərilməsinə, ən əsası qurumun “boz zonalar”a məhdudiyyətsiz çıxışının təminatına dair qətnaməni səsverməyə çıxarıb və qəbul edilməsinə nail olub. Azərbaycan nümayəndə heyətinin əleyhinə, Ermənistan nümayəndə heyətinin lehinə səs verdiyi bu qətnamə prinsip etibarilə Qarabağdakı separatçı rejimi dövlət kimi leqallaşdırmaq mahiyyətinə köklənmişdi.

Sonda vurğulayaq ki, Şvabe kimi mənəviyyatı puç olan avantüristlərin mövcudluğu Avropa demokratiyası, ümumən “köhnə qitə”nin ictimai fikri üçün son dərəcə böyük təhlükədir. Belə utanc halları qaldıqca, orada nəinki beynəlxalq hüquq normalarının, bütövlükdə insani dəyərlər sisteminin deqredasiyası qaçılmazdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Replika**

# “İfa edirlər” ermənipərəst senator və konqresmenlər

**Görünən odur ki, indi oturduğu kürsüdə sələfi, Senatdan məhkəmənin hökmü ilə biabırcasına qovulmuş Menendezdən o qədər də fərqlənməyən Benjamin (Bin) Kardin başqa olmaqla bir qrup ermənipərəst senator Azərbaycana qarşı növbəti kampaniyaya start verib. ABŞ-dakı erməni lobbisindən “yemləndikləri” şübhə doğurmayan bu qüvvələr Azərbaycanofobiya və separatizmi dəstəkləyən çıxışlarının sayını artırıblar.**

Erməni lobbisi ilə yaxın münasibətləri olan ABŞ Senatının Beynəlxalq münasibətlər üzrə komitəsinin sədri artıq neçənci dəfədir ki, Azərbaycanı hədəfə alır. Amma bu dəfə daha irəli getməyi hədəfləyən Kardin kollektiv Qərbi Azərbaycanın Ermənistan torpaqlarını “işğal” etməsinə səssiz qalmaqda ittiham edib. Xəritədə Cənubi Qafqazın yerini bilməyən senator bəyan edib ki, həmin ərazilər “Ermənistan üçün strateji əhəmiyyətə malikdir”. O, bununla da kifayətlənmir və “Azərbaycanın Ermənistanın işğal etdiyi ərazilərini tərk etmə əlaməti göstərmədiyindən, sülh müqaviləsinin imzalanmasını təxirə salmaq üçün yeni tələblər irəli sürdüyündən” şikayətlənib.

“Azərbaycanın Ermənistan Konstitusiyasının dəyişdirilməsi tələbində israrlı olması Bakının sülh sazişini təxirə salmaq və ya ləğv etmək istəyindən xəbər verir”,– deyən Kardin daha sonra bildirir ki, haqsız yerə həbs edilmiş ermənilərin və ictimai fəalların saxlanıldığı bir ölkədə (Azərbaycanda – red.) BMT-nin COP29 iqlim sammitinin keçirilməsi planı narahatlıq doğurur.

“Demokratiyanın beşiyi” sayılan məmləkətin qanunverici institutlarının mənsəb sahiblərinə “beynəlxalq ictimaiyyət” adından danışmaq səlahiyyətini kim verib? Beynəlxalq ictimaiyyətin dəstəklədiyi, BMT-nin ən genişmiqyaslı tədbirinin – COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar verən dünya ölkələridir. Bəlkə onlar qərar qəbul edərkən ABŞ Senatından, yaxud Konqresindən, konkret olaraq Kardindən bu barədə məsləhət almalı idilər?

Kardinin ardınca ikinci ermənipərəst “solo ifa” Azərbaycanofobluğu ilə çoxdan “məşhur” personaya çevrilmiş konqres-



men Frenk Pallone tərəfindən səslənib. İndi də onun ərz etdikləri ilə tanış olaq. Özünün “X” mikrobloqunda mübarək qeydlərini düzən konqresmen ABŞ-nin USAID vasitəsilə Ermənistana maliyyə dəstəyi göstərməsini ürəkdən alqışladığını bəyan edib. Bununla da kifayətlənməyən konqresmen Ağ ev Administrasiyasının Ermənistanla münasibətləri möhkəmləndirmək üçün səylərini “durmadan davam etdirməsindən” məmnunluq hissi keçirdiyini də bildirib.

“Mən Bayden-Harris Administrasiyasının Beynəlxalq İnkişaf Agentliyi vasitəsilə yardım paketini ikiqat artırmaqla Ermənistanla əlaqələri gücləndirmək səylərini davam etdirdiyini görməkdən məmnunam”, – yazan konqresmen ayrılan maliyyənin Ermənistanda demokratiyanın gücləndirilməsinə kömək edəcəyinə əminliyini bildirib.

Səlibçi düşüncəli Frenk Pallonenin aktivləşməsi təsadüfi deyil. Ermənistanın özündə, Avropanın bəzi ölkələrində və ABŞ-da anti-Azərbaycan xarakterli sinxron hərəkətlənmə son ildə qısa fasilələrlə müşahidə olunmaqdadır. Səbəb separatçı-revanşist-daşnak “çete”sinin yemlədiyi ermənipərəst “orkestrin” dirijor çubuğunun işarəsi ilə eyni vaxtda ifaya başlamasıdır.

“Orkestrə” anti-Azərbaycan qüvvələrin güclü dəstək verdiyi qondarma ictimai



qurumlar da daxil edilib. Belələrinə, eləcə də Kardin, Pallone və onlara həmfikir olanlara tövsiyə edərdik ki, ölkəmizin əleyhinə sifarişli və qərəzli fikirlər səsləndirmək əvəzinə, öz evlərində qayda-qanun yaratsınlar, səliqə-sahmana diqqət yetirsinlər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycanın sosial dövlət modeli müasir nəzəri yanaşmalar kontekstində

**Müstəqil dövlətlərdə sosial məsələlərin uğurlu həlli olduqca aktualdır. XXI əsr özü ilə cəmiyyətlər üçün elə yeni problemlər gətirmişdir ki, bütövlükdə, toplumu əhatə edən və hər bir insan üçün səmərəli olan birgəyaşam forması axtarışı yenilәşmə tələb edir. Təbii ki, bu prosesdə dövlət quruluşu və idarəetmə sistemi əsas yer tutur. Bunun fonunda indi alimlər adekvat sosial dövlət nümunəsi axtarırlar. Bu istiqamətdə yekdil fikir formalaşmamışdır. Lakin müəyyən təkliflər vardır. Həmin təkliflər müasir cəmiyyət üçün elm və texnologiyanın oynadığı müstəsna rol ilə bağlıdır. Məsələ bizim üçün Azərbaycanın da sosial dövlət modelinə üstünlük vermәsi müstəvisində çox aktualdır. Xüsusilə ölkənin 2030-cu ilə qədər inkişaf strategiyasında "sosial dövlət" anlayışı mərkəzi yer tutur. Lakin öncə, qısa da olsa, ümumnəzəri məqamları aydınlaşdırmaq gərəkdir.**

## Yeni əsrdə sosial dövlət modeli

XXI əsrin gəlişi ilə dünya miqyasında cəmiyyətlərin sosial-iqtisadi dinamikası ilə mənəvi-mədəni və əxlaqi dəyişmə sürəti arasında yeni nisbət formalaşmağa başladı. Bu proses alimlər, iqtisadçılar, sosioloqlar və kulturoloqlar üçün cəmiyyətdə insan kapitalı məsələsini daha da aktuallaşdırmış oldu. Filosoflar ümumi səviyyədə "insan yeni cəmiyyətin sürətli yeniləşməsi şəraitində necə xoşbəxt ola bilər?" sualını qaldırdılar. Bununla da sosial, iqtisadi və mədəni dəyişikliklərin qovşağında başqa məsələlərlə yanaşı, "sosial dövlət" anlayışının daha da aktuallaşması müşahidə edildi.

"Sosial dövlət" maddi nemətlərin, gəlirlərin və zənginliklərin sosial ədalətlilik prinsipi üzrə paylanmasını nəzərdə tutan siyasətə əsaslanan dövlətdir. Məqsəd cəmiyyətdə sosial ədaləti təmin etmək, hər vətəndaş üçün layiqli həyat keyfiyyətinə malik olmaqdır.

Bu anlayışı ilk dəfə 1850-ci ildə alman dövlət xadimi və iqtisadçısı Lorens fon Şteynin işlətdiyi bildirilir. L.f.Şteynə görə, dövlət vətəndaşların mütləq bərabərliyini sosial, iqtisadi sferada təmin etməlidir. Gəlirlər ədalətli paylanmalıdır.

Alimlər sosial dövlətin əlamətləri kimi 10-dan çox faktor göstərirlər. Məsələn, ölkənin yüksək iqtisadi inkişaf səviyyəsi, bazar iqtisadiyyatı, çoxukladlı iqtisadiyyat, vətəndaş cəmiyyətinin formalaşması, sosial məsuliyyət, əhalinin bütün qrupları üçün sosial xidmətin inkişafı, vətəndaşların rifah halının yaxşılaşdırılmasını dövlətin öz üzərinə götürməsi, vətəndaş cəmiyyəti institutlarının mövcudluğu və s.

Sosial dövlətin aşağıdakı funksiyaları bir-birindən fərqləndirilir. Bunlar əhalinin sosial müdafiəsi zəif olan kəsiminə dəstək, korrupsiya, işsizlik və yoxsulluqla mübarizə, gənc sahibkarlara yardım, məşğulluğun təmini və gəlirlərin daim artmasına dəstək, sosial sığorta təminatı, təhsil, səhiyyə və mənəvi-mədəni inkişafın bütün əhali üçün əlçatanlığı, cəmiyyətdə sosial və iqtisadi qeyri-bərabərliyin aradan qaldırılması, sosial xidmətlərin göstərilməsidir. Bu paradiqma çərçivəsində məsələnin nəzəri tərəfinin dərinliklərinə baş vurmadan bir sıra məqamları qısa vurğulayaq.

## Cəmiyyətin bütövlüyü

XX əsrin ikinci yarısından başlayaraq aydın oldu ki, cəlbedici görünən "sosial dövlət" anlayışında daxili ziddiyyət vardır. Belə ki, bu dövlət modelinin əsas məkanı olan Avropa və ABŞ-da iqtisadi, sosial və maliyyə böhranı vüsət almağa başladı. Bu proses XX əsrin 60-cı illərində Qərbdə daha da kəskinləşdi. Artıq 1970-1980-ci illərdə Qərb dövlətləri cəmiyyətlərində parçalanmaların, təbəqələşmənin, sosial kəsimlərin bir-birinə qarşı durmalarının əlamətləri daha qabarıq görünməyə başladı. Bu, Qərb alimləri tərəfindən "sosial dövlət" anlayışının təftiş edilməsi ehtiyacından xəbər verirdi.

Əsas məsələ gəlirlərin qeyri-bərabər paylanmasının güclənməsi, yoxsul təbəqələrin sosial baxımdan müdafiəsiz qalması, hüququn bütün əhali üçün eyni cür tətbiq edilməməsi və bütövlükdə sosial ədalətsizliyin özünü göstərməsi idi.

Bunun fonunda Marqaret Tetçer və Ronald Reyqan yeni monetar kurs işləyib hazırladılar. Pul kütləsinin bazarda dövriyyəsi hesabına tənəzzül aradan qalxdı, cəmiyyətdə həyat səviyyəsi yüksəldi. Lakin meydana başqa bir problem çıxdı.

Fransız filosofu və sosioloqu Alen Turen "reyqanizm" və "tetçerizm"in ümumi müsbət nəticə verməsi fonunda Qərb cəmiyyətlərində sosial ədalətsizliyin daha da gücləndiyini yazır. Nəticədə, Qərbdə həyat səviyyəsinin yüksəlməsi ilə müəyyən sosial kəsimlərə qarşı ədalətsizliyin artması paralel şəkildə getdi. Bu isə kökündən sosial dövlətin klassik anlamına zidd idi.

Sosial dövlətin XX əsrin 80-ci illərindən sonra optimal nümunəsi axtarışları daha da gücləndi. Burada başlıca məqam, bütövlükdə, cəmiyyətdə ədalətin təmini məsələsi ilə bağlı idi. Onun nəzəri ifadəsi "ümumi rifah" ola bilərdi. Yəni, elə bir cəmiyyət modeli yaradılmalı idi ki, bütün sosial kəsimləri əhatə edən rifah təmin edilmiş olsun. Bu, tədricən "ümumi rifah cəmiyyəti" və "yüksək rifah cəmiyyəti" modellərinin nəzəri araşdırılmasına təkan verdi. Məsələnin bu cür qoyuluşunun öz sosial, iqtisadi, mədəni və texnoloji səbəbləri vardı.



## Süni intellekt amili

Alimlər vurğulayırlar ki, cəmiyyətlərdə elmi, texnoloji və texniki kəşflərin sürətli tətbiqi nəticəsində keyfiyyətcə dəyişmə başlandı. Bu, toplumun bütün sferalarına təsir etdi. Yeni nəsil insanlar yetişdi, sosial-mədəni mühit dəyişdi. Mədəniyyətə münasibət yeniləşdi və s. Məsələn, XX əsrin 80-90-cı illərində daha çox vəzifədə və ya müxtəlif fəaliyyət sahələrində irəliləməyə, uğur qazanmağa üstünlük verən və klassik mədəniyyətə əks mövqedə olan gənc təbəqə meydana gəldi. "Kontrkültür"-çülər (əks-mədəniyyətçilər) adlandırılan bu təbəqə, faktiki olaraq, marginal xarakterli idi. Bu isə bütövlükdə, cəmiyyətdə yeni sosial-psixoloji və iqtisadi ab-hava yaratdı.

Bu prosesin detallarına varmadan onu qeyd edək ki, bu kimi proseslər süni intellektin və yüksək informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi ilə müşayiət olunurdu. Avtomatik şəkildə "sosial dövlət" anlayışı da transformasiya olmalı idi.

Birincisi, bütövlükdə sosial dövlətin klassik modeli yetərli deyildi. İkincisi, ümumrifah və ya yüksək rifah cəmiyyətlərinin konkret nümunələri işlənib hazırlanmalı idi. Lakin bu prosesdə də bir sıra çətinliklər və ziddiyyətlər meydana çıxırdı. Onların əsas hissəsini professor Klaus Şvab araşdırmışdır.

## 3 kapitalizm növü

Professor Klaus Şvab hesab edir ki, hazırda dünyada iki iqtisadi sistem rəqabətdədir. Onlardan biri aksioner kapitalizmi, digəri isə dövlət kapitalizmidir. Aksioner kapitalizmi ABŞ və Qərb ölkələrinə xasdır, dövlət kapitalizmi modeli kimi isə Çin göstərilir. Aksioner kapitalizminə kapitalizmin anqlo-saks növü də deyilir. Onun əsas əlaməti qiymətli kağızlara sərmayə qoyuluşuna üstünlük verilməsi ilə bağlıdır. Dövlət kapitalizmi isə dövlətin iri şəxsi biznesi nəzarət altına götürməsi ilə bağlıdır.

K.Şvab hesab edir ki, hər iki növün qüsurları vardır və müasir yüksək texnologiyalar bütövlükdə sənaye inkişafının xüsusiyyətinə uyğun deyildir. Çünki onlar insanı tam olaraq sosial müdafiə "çətir"i altına ala bilmirlər. Vətəndaşın həyatı üçün müxtəlif növ təhdidlər və risklər yaranır. Buna görə də K.Şvab "bütün maraqlı tərəflərin kapitalizmi" (ing. Stakeholder capitalism) kimi yeni kapitalizm növünü təklif edir.

Alim "bütün maraqlı tərəflər" dedikdə, cəmiyyətin həm qiymətli kağız mülkiyyətçiləri kəsimini, həm də dövlət nəzarətində olanları nəzərdə tutur. Bu, ümumi anlayışın "patronajlığı" altında müasir cəmiyyətdə yüksək texnologiyaların tətbiqi ilə müəyyən sintez yaranmasına üstünlük verir. Onun konkret forması isə şirkətlər daxilində gəlir-paylanma prinsipinin dəyişməsi vasitəsilə həyata keçir. Belə ki, "maraqlı tərəflərin" kapitalizmini müdafiə edənlər biznesdə yalnız sərmayəçilərin maraqlarının üstünlük təşkil etməməli olduğunu deyirlər. Burada bütün maraqlı tərəflər – sərmayəçilər, müstəqil tərəfdaşlar, iştirakçılar, xarici iştirakçılar və hətta ətraf mühit nəzərə alınmalıdır. Bu məsələ 2019-cu ildə "Business Roundtable"də və 2020-ci ildə K.Şvabın başçılıq etdiyi Davos Forumunda geniş müzakirə edilmişdir.

Mütəxəssislər sosial dövlətin "bütün maraqlı tərəflərin kapitalizmi" adlanan növünü daha perspektivli sayır, bu çərçivədə yüksək rifah cəmiyyətinin formalaşmasını strateji hədəf kimi göstərirlər. Azərbaycan bu müqayisələrin fonunda məhz yüksək rifah cəmiyyətini formalaşdırmağı qarşısına məqsəd qoymuşdur. Bu tezisin işığında Azərbaycanın sosial dövlət olaraq yürütdüyü siyasətin əsas özəllikləri üzərində geniş dayanmağa ehtiyac vardır.

## Azərbaycan sosial dövlətdir

Müstəqil Azərbaycan dövlətinin ümumi mahiyyətini Prezident İlham Əliyev yığcam tezisdə dəqiq ifadə etmişdir: "Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır".

Burada Azərbaycanın sosial dövlət kimi əsas özəllikləri konkret ifadə olunmuşdur: insan, vətəndaş qayğıları, vətəndaşın problemlərinin ədalətli həlli, vətəndaşın təhlükəsizliyi, insanın xoşbəxtliyi. Vurğulanan faktorların önə çəkilməsi tarixi seçimdir.



Ümumiyyətlə, vurğuladığımız tezisin mahiyyətini sosial siyasətin əsas xüsusiyyətləri fonunda tam dərk edə bilərik. Nəzəri olaraq sosial siyasətin aşağıdakı üç özəlliyi göstərilir:

***– Vətəndaşların rifahının dəstəklənməsi;***

***– həm iqtisadi, həm də qeyri-iqtisadi məqsədlərin əhatə edilməsi;***

***– insanlararası resursların bərabər bölüşdürülməsi və idarə edilməsinin vacibliyi.***

Əgər bu müddəalara sosial dövlət modelləri və müasir kapitalizmin növləri prizmasından baxsaq, bir vacib özəlliyi mütləq nəzərə almalıyıq. Azərbaycanda sosial dövlət nümunəsinin əsası Heydər Əliyev tərəfindən qoyulmuş kurs üzrə aparılmaqdadır. Ulu öndər sosial siyasəti öz rəhbərlik missiyasının prioriteti kimi görürdü. Bu isə ümumilikdə Azərbaycanın dövlətçilik və idarəetmə ənənəsini ciddi nəzərə almaqla müasir yanaşmalar fonunda özəl nümunəsinin yaradılması anlamına gəlir. Burada aşağıdakı bir neçə başlıca faktoru vurğulamaq olar:

***– Ölkənin bütün potensialı xalqa məxsusdur;***

***– milli sərvətlər xalqın bütün təbəqələrinə məxsusdur;***

***– sosial ədalət prinsipi tam qorunmalıdır;***

***– əhalinin aztəminatlı hissəsinə dövlət qayğısı daim artırılmalıdır.***

Bu prinsiplər fonunda müasir kapitalizmin aksioner, dövlət və "bütün maraqlı tərəflərin kapitalizmi" modelləri ilə müqayisəsindən aydın görünür ki, Azərbaycan özünəməxsus "bütün maraqlı tərəflərin kapitalizmi" modelinə üstünlük verir. Çünki burada hər hansı ayrı-seçkilik yoxdur: ölkənin potensialı xalqındır, milli sərvətlər sərmayəçilər qrupunun deyil, xalqındır, gəlirlərin bölüşdürülməsi üçün sosial ədalətin Konstitusiya səviyyəsində qorunması prioritet şərtdir və əhalinin aztəminatlı hissəsinə (bütün kəsimləri əhatə edən) dövlət qayğısı vacib şərtdir.

Bütün bu özəlliklər ölkənin strateji inkişaf sənədlərində aydın ifadə edilmişdir. Bunlarla yanaşı, Azərbaycanda sosial dövlət quruculuğunun çox vacib iki xüsusiyyəti də Prezident İlham Əliyev tərəfindən müəyyən edilmişdir. Onlar "yaşıl ölkə" və "humanitar dövlət" anlayışlarıdır.

## Sosial dövlət sosial-iqtisadi inkişafın Milli Prioritetləri müstəvisində

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı strateji inkişaf sənədində son məqsəd kimi göstərilir ki, "ölkəmizdə qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" yaradılmalıdır. Bu tezisin bir tərəfi güclü dövlət yaratmaqdan ibarətdirsə, digər tərəfi yüksək rifaha qovuşmuş vətəndaş cəmiyyətinin formalaşması ilə bağlıdır. Deməli, sosial dövlət kimi strateji hədəf konkretdir: ümumi yüksək rifah cəmiyyəti yaratmaq!

Bu məqsədə çatmağın üstün istiqamətləri də müəyyənləşdirilmişdir. Onlar sənəddə aşağıdakı kimi formulə edilmişdir:

Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı 5 milli prioritet reallaşdırılmalıdır:

***– Durmadan artan rəqabətqabiliyyətli iqtisadiyyat;***

***– dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;***

***– rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;***

***– işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;***

***– təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.***

Diqqət etsək görərik ki, milli prioritetlər sosial-iqtisadi xarakterli 5 vacib faktoru harmonik şəkildə özündə birləşdirir. Onlar rəqabətqabiliyyətlilik, inklüziv və sosial ədalət cəmiyyəti, insan kapitalı və müasir texnologiyalar, demoqrafik tarazlığın tam təmini, "yaşıl artım" ölkəsi olmaqdır. İnklüzivlik, sosial ədalət, demoqrafik tarazlıq, insan kapitalı və "yaşıl ölkə" müasir anlamda humanitarlığın başlıca xüsusiyyətləridir. Onu da mütləq vurğulamaq lazımdır ki, müəyyən edilən milli prioritetlərin məzmunu BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik"də müəyyən edilmiş əsas istiqamətlərlə tam səsləşir. Orada isə sosial-iqtisadi və humanitar-inklüzivlik arasında vəhdət vurğulanır. Bundan başqa, Avropa İttifaqının (Aİ) son inkişaf strategiyası da BMT-nin dayanıqlı inkişaf konsepsiyasına uyğunlaşdırılmışdır.

Deməli, dünyanın inkişaf etmiş hissəsində sosial dövlət modeli humanitarlıq və dayanıqlı inkişaf xətti ilə sıx bağlılıqda götürülür. Azərbaycan bu aspektdə də nümunə ola bilər.

Nəhayət, onu qeyd edə bilərik ki, vurğulanan özəlliklər Azərbaycanda real olaraq həyata keçirilən sosial-iqtisadi proqramlarda tam əks olunmuşdur.

## Sosial dövlət quruculuğu

Son 20 ildə milli iqtisadiyyat dünyada rekord səviyyədə – 3 dəfədən çox artmışdır. Davamlı iqtisadi islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində sahibkarlıq inkişaf etdirilmiş və qeyri-neft sektoru əhəmiyyətli dərəcədə genişlənmişdir. Milli iqtisadiyyata investisiya axını təmin edilmişdir.

Uğurlu sosial-iqtisadi siyasət, icra olunan ardıcıl və məqsədyönlü dövlət proqramları yoxsulluğu kəskin şəkildə azaltmışdır. Əməkhaqları, pensiya və digər sosial ödənişlər mütəmadi olaraq artırılmışdır. Yeni iş yerləri açılmış və məşğulluq imkanları artmışdır. Əhalinin gəlirlərində ilbəil artım müşahidə edilmişdir. Sosial müdafiə və reabilitasiya əhəmiyyətli yeni müəssisələr şəbəkəsi qurulmuşdur. Sosial təminat sistemi əhəmiyyətli dərəcədə genişləndirilmişdir.

Ümumilikdə götürdükdə: "Ötən 20 ildə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərclərində 20 dəfədən çox artım baş verib. Minimum əməkhaqqı 38 dəfə artırılaraq 345 manata, orta aylıq əməkhaqqı 12 dəfə artaraq 925,3 manata çatıb. Sosial müdafiə sisteminin mühüm komponenti olan pensiya təminatı yoxsulluğun azaldılmasında əhəmiyyətli rola malikdir. 2006-cı ilin əvvəlindən Azərbaycanda qabaqcıl dünya təcrübəsinə uyğun müasir sığorta-pensiya modelinə keçidin təmin edilməsi pensiya təminatında müsbət trendləri şərtləndirib ... ".

Bunlardan başqa, Prezident İlham Əliyev hər il müvafiq sərəncamlar imzalamaqla minimum pensiyaları mütəmadi artırır. "Ümumilikdə ötən 20 ildə minimum pensiya 14 dəfə artaraq 280 manata, orta aylıq pensiya 18 dəfə artaraq 435 manata, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 466 manata, əlilliyə görə orta aylıq pensiya 14 dəfə artaraq 366 manata, ailə başçısını itirməyə görə orta aylıq pensiya isə 19 dəfə artaraq 408 manata çatıb ... Pensiya üzrə ödənilən illik vəsaitlərin məbləği isə 30 dəfədən çox artaraq, 5 milyard 907 milyon manata çatıb".

Mütəxəssislər Azərbaycan dövlətinin sosial təminat məsələsinə humanist yanaşmasını da konkret faktlarla göstərirlər. Məsələn, son illər müvafiq qanunvericilikdə humanist yanaşmalar tətbiq edilib: 2019-cu ilin əvvəlindən əmək pensiyası yaşına çatan və fərdi hesabında hətta ən kiçik məbləğdə pensiya kapitalı olanlara avtomatik pensiya hüququ verilib, yaşa görə müavinət yaşı pensiya yaşı ilə eyniləşdirilib, 2022-ci ildə qanuna 50-dək əlavə və dəyişiklik edilməklə, erkən pensiya hüququ olan kateqoriyaların sırası genişləndirilib, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən əmək sahələri sırasına yeni 59 vəzifə, peşə əlavə edilib.

Gətirilən faktlar aydın surətdə Azərbaycanın sosial dövlət kimi özəlliklərini nümayiş etdirir. Burada dövlət başçısının daim cəmiyyətin inkişafı üçün göstərdiyi diqqət və qayğı qabarıq surətdə özünü göstərir. Azərbaycan sosial dövlət quruculuğunda nümunədir və şübhəsiz ki, onun təcrübəsindən digər müstəqil dövlətlər də yararlanmalıdırlar!

***Kamal ADIGÖZƏLOV***

III MƏQALƏ

**Heç bir ölkəni özünə düşmən hesab etməməlisən.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

# Liderin sözü və əməli

*Tarixi Çernobbio bəyanatı kontekstində*



## Regional və regionlararası kontekst

Azərbaycanın xarici siyasətinin regional və regionlararası konteksti II Qarabağ savaşından sonra daha böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Çünki Azərbaycan bir dövlət olaraq artıq yeni səviyyədə siyasət yeritməli oldu. Onun üçün fərqli fəaliyyət mexanizmləri yaradıldı. O cümlədən Azərbaycan üçün regional və beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətə ciddi əhəmiyyət verildi.

Bu baxımdan Azərbaycan üçün Qoşulmama Hərəkatı (QH) və Türk Dövlətləri Təşkilatı (TDT) xüsusi əhəmiyyət kəsb edir. Ancaq rəsmi Bakının uğuru onunla bağlıdır ki, regional və regionlararası əlaqələrdə ikitərəfli əməkdaşlıq da mühüm yer tutur. Bu, maraqlı bir situasiyadır. Çünki ikitərəfli əməkdaşlıqda formatından regional təşkilatlarda əməkdaşlığa və sonra regionlararası səmərəli əlaqələrə keçidin praktiki mexanizmini müəyyən etmək asan məsələ deyildir. Nümunə üçün deyək ki, Azərbaycan – Gürcüstan, Azərbaycan – İran və Azərbaycan – Rusiya ikitərəfli əməkdaşlıq formatından bütövlükdə regionu əhatə edən əməkdaşlıq formatına keçid yaradıcı siyasi-diplomatik yanaşma tələb edir.

Azərbaycan bu istiqamətdə nəticəverici fəaliyyət göstərməkdədir. Əsas olaraq burada layihələrə regionun bütün dövlətlərini qoşmaq üsulu seçilmişdir. Ermənistandan başqa, region dövlətləri Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələrdə iştirak edirlər. Bu prosesin əhatə dairəsi enerji, ticarət, nəqliyyat-logistika və kommunikasiyaların bütün növləridir.

Rəsmi Bakının regional miqyasda həmin istiqamətlərdə fəaliyyəti Cənubi Qafqazda ciddi dəyişikliklər etmişdir.

Birincisi, enerji sferasında çoxşaxəli layihələr faktiki olaraq regional infrastruktur yaratmışdır.

İkincisi, nəqliyyat-loqistika aspektində Cənubi Qafqaz Azərbaycanın səyləri nəticəsində müxtəlif istiqamətlərdən gələn yolların kəsişmə sahəsinə çevrilmişdir. Bura Şərq – Qərb, Şimal – Cənub, Cənub – Qərb kimi istiqamətlər daxildir. Bütövlükdə isə Azərbaycan həmin marşrutları Orta dəhliz layihəsi ətrafında birləşdirə bilmişdir.

Üçüncüsü, Azərbaycan ikitərəfli təhlükəsizlik sazişlərini vahid regional miqyasda birləşdirmişdir.

Bununla rəsmi Bakı ikitərəfli əməkdaşlıq formatlarını vahid platformada regional əməkdaşlıq platformasına çevirmişdir.

Eyni xətt regionlararası əlaqələrdə də tətbiq edilməkdədir. Özü də burada Qərb istiqaməti ilə Şimal və Şərq istiqamətlərinin tarazlığı gözlənilir. Azərbaycan eyni məntiqlə Mərkəzi Asiya, Uzaq Şərq və Avropa ölkələri ilə əməkdaşlığı inkişaf etdirir. Onları bir-biri ilə sıx əlaqəli şəkildə qurur. Prezident İlham Əliyevin son İtaliya səfərində ifadə etdiyi aşağıdakı fikirlər məhz bu kostekstdə dərk edilməlidir: “Uzun illər ərzində Azərbaycan və İtaliya strateji tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Müvafiq bəyannamə təqribən 10 il əvvəl qəbul edilib. Bizim əməkdaşlığımız bir çox sahəni əhatə edir. Bizim müntəzəm siyasi təmaslarımız var. Bu, 2020-ci ildən bəri mənim İtaliyaya 3-cü səfərimdir. Prezident Mattarella 2018-ci ildə Azərbaycana səfər etmişdir. Yüksək səviyyəli siyasi təmaslarımız bizim yaxın siyasi tərəfdaş olduğumuzu nümayiş etdirir”. Burada Prezident İlham Əliyev İtaliya ilə münasibətlərin bir neçə vacib məqamını vurğulamışdır.

Birincisi, Azərbaycanla İtaliya münasibətlərini strateji tərəfdaşlıq formatında qurmuşlar. Bununla bağlı müvafiq sənədin 2014-cü ildə imzalanmasına baxmayaraq 2005-2014-cü illərdə mütəmadi təmaslar olmuşdur. Deməli, ən azı 10 il iki dövlət arasında əlaqələr qurulmuş, onlara konkret məzmun verilmişdir. Həmin illərdə Azərbaycanın Avropa istiqamətində həyata keçirdiyi layihələrə nəzər salsaq, münasibətlərin möhkəm təməlinin yaranmasında Bakının incə bir şəkildə regional miqyasda əlaqələri Avropa istiqamətində İtaliya nümunəsinə uğurlu proyeksiya etdiyinin xüsusi rol oynadığını görərik.

Konkret olaraq, 2005-2014-cü illər ərzində Azərbaycan Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum, Bakı – Supsa kimi layihələri həyata keçirmiş və faktiki olaraq Avropa istiqamətində əməkdaşlıq şəbəkəsini yaratmışdır. Bu baxımdan İtaliya ilə ikitərəfli əməkdaşlığın konkret proqramları üzrə inkişafı 2014-cü ildə strateji tərəfdaşlıq haqqında sənədin imzalanması ilə nəticələnmişdir.

İkincisi, ikitərəfli əməkdaşlıq müxtəlif sahələri əhatə edir. Bu da onu ifadə edir ki, Azərbaycan öncədən İtaliya ilə əməkdaşlığa, bütövlükdə, Cənubi Qafqaz – Avropa əlaqələri kontekstində baxmışdır. Söhbət faktiki olaraq regionlararası əlaqələrin təşkili və inkişafından gedir.

Üçüncüsü, müntəzəm siyasi təmaslar yaxın siyasi tərəfdaşlığın təminedici mexanizmidir. Bu da geniş sahədə və məkanda qarşılıqlı əlaqələrin regionlararası miqyasa transformasiyası deməkdir.

Bütün bu fəaliyyətin təməlində əldə olunan nəticələr durur. Prezident İlham Əliyev bu barədə Çernobbioda demişdir: “Bizim ticarət əməkdaşlığımız olduqca fəaldır. İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına yaxın olub. Biz artım üçün potensialı yalnız enerji sektorunda deyil, digər sahələrdə də görürük. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Bu da bizim əməkdaşlığımızın vacib hissəsidir”.

Əgər bunları ümumiləşdirsək, belə bir nəticə alarıq ki, Avropa Birliyinin 10 üzvünün Azərbaycanın strateji tərəfdaşı olması sistemli, davamlı və şoxşaxəli siyasətin nəticəsidir. Bu, faktiki olaraq, Bakının regional miqyasda siyasi xəttini uğurla regionlararası miqyasa transformasiya etməsi nümunəsidir. Maraqlı fakt ondan ibarətdir ki, bu prosesdə Azərbaycanın Qoşulmama Hərəkatında fəaliyyəti, xüsusilə 4 il ona sədrlik etdiyi dövrdə həyata keçirdiyi proqramlar əminlik yaratmışdır ki, bizim ölkə yaxşı nəticələr əldə edə biləndir.

## Qlobal arena

“2-ci Çernobbio bəyanatı”nda yer almış başqa əhəmiyyətli məqam ondan ibarətdir ki, Prezident İlham Əliyev Azərbaycanın “qlobal arenada müxtəlif aktorlar arasında körpülərin qurulması üzərində fəal çalışdığını” və bu əsasda “qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulmasının mümkünlüyünü” vurğulamışdır. Bu, o deməkdir ki, Azərbaycan artıq qlobal miqyasda proseslərə təsir edə bilir. Bu, bağlılıqda iki faktı göstərə bilərik.

Birincisi, Azərbaycanın enerji layihələri geniş bir məkanda enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyi üzvi surətdə birləşdirə bilmişdir. Onu da deyək ki, Avropa istiqamətində məhz İtaliya ilə olan əlaqələr bu prosesə xüsusi dinamika vermişdir.

İkincisi, Azərbaycan, bütövlükdə, Avropa üçün kritik olan vəziyyətdə belə, enerji təhlükəsizliyi milli təhlükəsizliyin təmininə yönəldə bilir. Bunu Prezident İlham Əliyevin Çernobbioda ifadə etdiyi aşağıdakı fikirlərindən aydın görə bilərik: “Burada deyə bilərəm ki, Ukrayna ərazisində qazın tranzitinin davam etdirilməsi ilə bağlı Rusiya, Ukrayna və Avropa təsisatları tərəfindən bizə müraciət edildi. Bir neçə aydır ki, biz ümumi məxrəcə gəlmək üçün böyük səylər göstəririk. Məlumdur ki, bu tranzit dayanarsa, – bu isə dekabr ayına təsadüf edəcək, – bir neçə Avropa İttifaqı ölkəsi təbii qazın fiziki əlçatanlığı ilə bağlı ciddi çətinliklərlə üzləşəcək. Biz, sadəcə, həmin ölkələri və Ukraynanı dəstəkləmək istəyirik. Çünki qazın tranziti dayandığı halda Ukraynanın qazpaylayıcı sistemi tamamilə iflic olacaqdır”.

Bunu “2-ci Çernobbio bəyanatı”nın ən vacib məqamlarından biri hesab edirik. Çünki söhbət faktiki olaraq rəsmi Bakının bir neçə region üçün əhəmiyyəti olan bir funksiyanı yerinə yetirə bilməsindən gedir. Rusiya, Cənubi Qafqaz, Şərqi Avropa və Mərkəzi Avropanı əhatə edən məkanda Bakı əlaqələndirici rolunu oynayır.

## Daha güclü Azərbaycan uğrunda

İtaliya ilə əməkdaşlığın inkişaf dinamikası göstərir ki, Azərbaycan ikitərəfli əməkdaşlıqdan çoxtərəfli əməkdaşlıq platformalarına keçidi, bütövlükdə, regionlararası miqyasda yeni geosiyasi düzən yaratmaq kontekstində reallaşdırır. Bu prosesin Azərbaycan üçün üç mühüm nəticəsi ola bilər.

Birincisi, Azərbaycan bir neçə regionda geosiyasi prosesləri müsbət konstruktiv məcraya yönəldən əsas gücə çevrilə bilər. Bunun üçün Bakının Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi səmərəli təsir vasitəsi vardır. Əsas məsələ bu iki təşkilatdakı fəaliyyəti vahid məqsəd fonunda əlaqələndirməyi bacarmaqdan ibarətdir.

İkincisi, Azərbaycan Avropa ilə Asiya arasında enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyi sintez edə bilən dövlət statusuna yüksələ bilər. İlk baxışdan bir qədər ümumi görünən bu məqam reallıqda kifayət qədər dinamik fəallıq tələb edir. Görünür, burada daim yeni layihələr irəli sürmək və onların həyata keçməsini təmin etmək istiqaməti üstünlük təşkil etməlidir. Onu da nəzərə almaq lazımdır ki, geniş bir məkanda ziddiyyətlər həmişə olacaqdır. O baxımdan Azərbaycan təşəbbüskar olmaqda davam etməlidir.

Üçüncüsü, Azərbaycan daha güclü müstəqil dövlət olmaq istiqamətində davamlı addımlar atır. Rəsmi Bakı ölkənin sosial, iqtisadi, energetik, hərbi, müdafiə və təhlükəsizlik aspektlərində gücləməsini uğurla regional və regionlararası miqyasa transformasiya edə bilir. Bu da yaxın gələcəkdə Azərbaycanın qlobal miqyasda aktor olmasını təmin edəcəkdir.

“2-ci Çernobbio bəyanatı”nın məzmunundan alınan bir neçə qənaət göstərir ki, ölkə faktiki olaraq növbəti mühüm transformasiya mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə başlıca özəllik Azərbaycanın regionlararası miqyasda təsiredici gücə çevrilmək imkanlarının yaranmasından ibarətdir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

Müsahibə

# Azərbaycan turizmi COP 29-a necə hazırlaşır?

*Beynəlxalq iqlim məclisi ölkəmizə səyahət imkanlarını yüksək səviyyədə tanıdacaq*

**Bu ilin noyabr ayında Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ərəfəsində müvafiq qurumlar ölkədə və xaricdə çoxsaylı tədbirlər həyata keçirir. Bu mötəbər tədbirə turizm sektoru da ciddi hazırlaşır. İqlim konfransı çərçivəsində paytaxtımıza onminlərlə qonağın gələcəyi gözlənilir.**

Turizm sektorunda COP29-a hazırlıqla bağlı yeniliklər barədə Dövlət Turizm Agentliyinin Aparatının rəhbəri Kənan Qasımovdan XQ üçün müsahibə aldıq.

**– Kənan müəllim, əsasən, iqlim dəyişikliyinə və onun nəticələrinin minimuma endirilməsinə istiqamətlənən COP29 kimi beynəlxalq aksiyanın turizm sektoru ilə bağlılığı özünü nədə göstərir?**

– Turizm dünya iqtisadiyyatının aparıcı istiqamətlərindən biri kimi il ərzində yüz milyonlarla insanın yaşayışını təmin edir. Pandemiyadan əvvəl, 2019-cu ildə turizm dünyada ÜDM-nin 4 faizini təşkil edirdi. Bir sıra ölkələrin və cəmiyyətlərin əsas gəlir mənbəyi kimi turizm sahəsi ildən-ilə inkişaf edir. Dünya üzrə səyahətlərin və turizm fəaliyyətlərinin miqyası artdıqca onun iqlim dəyişikliyi ilə mübarizədə rolu da artır.

Turizm sektoru iqlim dəyişikliyindən təsirlənən həssas sahələrdən biri olmaqla yanaşı, ekoloji mübarizəyə nəzərəçarpan “töhfə” verən sahələrdəndir. Belə ki, turizm fəaliyyətləri dolayı və birbaşa yolla emissiyanı artırır. Hazırda turizmin qlobal karbon emissiyasında birbaşa, dolayı və dəyər zənciri üzrə payı 8-dir. Xüsusi qabaqlayıcı tədbirlər görülməzsə, 2030-cu ilədək bu rəqəmin 25 faizə çatması proqnozlaşdırılır. Dünya üzrə səyahətlərin sayının getdikcə artması bu sahədə təxirəsalınmaz tədbirlərin görülməsini zəruri edir.

Təəssüf ki, indiyədək COP tədbirləri çərçivəsində turizmin iqlim dəyişikliyində roluna xüsusi diqqət ayrılmayıb. Bu baxımdan COP26 çərçivəsində qəbul olunan “Turizm sahəsində İqlim Fəaliyyəti üzrə Qlazqo Bəyannaməsi”ni həlelik ən ciddi uğur hesab etmək olar. Hazırda sənədi 850-dən çox dövlət, özəl və qeyri-hökümət təşkilatı imzalayaraq müvafiq tədbirlər həyata keçirir. Bəyannamənin əsas hədəfi 2030-cu ilədək turizm sektoru üzrə emissiyaların 50 faizədək azaldılması, 2050-ci ilədək isə xalis sıfır emissiyasına nail olmaqdır. COP29 çərçivəsində biz Qlazqo bəyannaməsinə dəstək olaraq, daha səmərəli fəaliyyətlərin həyata keçirilməsi üçün “Turizm üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üçün Qlobal Tərəfdaşlıq” təşəbbüsü ilə çıxış edəcəyik.

**– COP29-un gündəliyinə daxil edilən məsələlər sırasında turizm necə təmsil olunacaq?**

– COP29-un ev sahibi kimi Azərbaycanın görəcəyi işlərə dəstək vermək, daha çox tərəfdaş cəlb etmək və bu sahədə ciddi nəticələr əldə etmək üçün üzərimizə düşən vəzifəni yerinə yetirməyə çalışırıq. COP29-un Fəaliyyət Gündəliyinin 14 təşəbbüsü sırasında indiyə qədər keçirilən COP tədbirləri üzrə ilk dəfə “Turizm üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üçün Qlobal Tərəfdaşlıq” bəndinə yer verilib. Konfransın 20 noyabr gündəliyində “Turizm günü” xüsusi qeyd edilib.

COP29 tədbiri zamanı “Turizm günü” çərçivəsində bir sıra vacib tədbirlərin keçirilməsi nəzərdə tutulur. Tədbirlər zamanı sahə üzrə emissiyaların ölçülməsi, karbonsuzlaşma tədbirlərinin həyata keçirilməsi, turizm təcrübələrinin yenidən dizayn edilməsi, maliyyələşmə imkanları kimi strateji istiqamətlər hərtərəfli müzakirə ediləcək.

“Turizm üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üçün Qlobal Tərəfdaşlıq” təşəbbüsü çərçivəsində 2015-ci ildə COP21-in nəticəsi olaraq qəbul edilən Paris Sazişinə tərəf çıxan ölkələrin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrinin yenilənməsi prosesində turizm sahəsinin daha geniş şəkildə əks etdirilməsi məsələsi də gündəmə gətiriləcək. Qeyd edək ki, BM Turizmin apardığı xüsusi təhlil nəticəsində müəyyən edilmişdir ki, dünya üzrə təqdim olunan 191 MSMET-dən 101-də (53 faiz) turizm sektoruna da istinad olunub. Bu 101 MSMET-nin 50 faizi turizmi ölkənin iqtisadiyyatı üçün vacib sektor kimi qəbul edir, 56 faizi turizmi iqlim dəyişikliyinə həssas sahə kimi tanıyır, 64 faizi sektorun iqlim dəyişikliyinə uyğunlaşma, 36 faizi isə mitiqasiya tədbirlərinin tərkib hissəsi olaraq qeyd edir. Bu göstəricilər turizm sahəsinin qlobal iqtisadiyyatda və İstixana Qazları Emissiyalarında payını nəzərə alaraq MSMET-də daha geniş və əhatəli şəkildə əks etdirilməsinin zəruriliyinə diqqət çəkir.

“Turizm sahəsində İqlim Fəaliyyəti üzrə Qlazqo Bəyannaməsi”nin icrası prosesində milli turizm qurumlarının daha fəal və həlledici rol oynaması məqsədilə sahə üzrə məsul nazirlərin və digər yüksək səviyyəli dövlət nümayəndələrinin Bakıda iclasının keçirilməsi də planlaşdırılır. Yekunda COP29 Sədrliyinin Fəaliyyət Gündəliyində yer alan turizm üzrə xüsusi təşəbbüsün uğurlu icrası məqsədilə Bakı Bəyannaməsinin qəbulu gözlənilir. Bu sənədin qəbulu ilə turizm sahəsi üzrə məsul təşkilatların və dövlət qurumlarının istər yeni nəsil MSMET-də turizm sahəsinin daha geniş şəkildə əks etdirilməsi, istərsə də turizm sahəsində İqlim Fəaliyyəti üzrə Qlazqo Bəyannaməsinin icrası istiqamətində milli turizm qurumlarının nümunəsində dövlətlərin fəal rol alması məsələləri üzrə beynəlxalq əməkdaşlığın təşviqi hədəflənir.

İnanırıq ki, ölkəmizdə keçirilən COP29 çərçivəsində turizm üzrə təşəbbüsün müzakirəsi növbəti COP tədbirləri üçün yeni ənənə yaradacaq. Bakı konfransı dünya iqtisadiyyatının vacib istiqamətlərindən olan turizmin iqlim dəyişikliyinə qarşı mübarizədə rolunu artırmağa, eləcə də iqlim dəyişikliyinin bu sektor üzərində mənfi təsirlərinin azaldılmasına öz töhfəsini verəcək. Nəhayət, COP tarixində xüsusi Bakı irsi formalaşacaq.

**– Dövlət Turizm Agentliyi və ölkə turizm sənayesi COP29 tədbirinə necə hazırlaşır?**

– Texniki və təşkilati baxımdan turizm sənayesinin COP29 kimi mühüm tədbirin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə tam hazırlıqlı vəziyyətə gətirilməsi istiqamətində işlər davam edir. Azərbaycana bu tədbirlə əlaqədar səfər edəcək qonaqların rahat yerləşdirilməsi üçün mayın 23-dən vahid onlayn rezervasiya platforması istifadəyə verilib. Rezervasiyaların qəbulu davam edir. “COP29-accommodation.bnetwork.com” ünvanında yerləşən platformada hər bir ulduz dərəcəsinə uyğun hotellər və yaşayış komplekslər təqdim edilir. Yerləşdirmənin ümumi həcmi və növləri, təhlükəsizlik, logistika baxımından əlçatanlığı və qonaqlara xidmətlə bağlı digər sahələr beynəlxalq təcrübəyə və meyarlara əsaslanır.



Agentlik Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu ərazisində fəaliyyət göstərən 300-dən artıq yerləşmə obyektinin auditini həyata keçirib. Onlardan 207-si təsnifatdan keçirilərək ulduz dərəcəsi əldə edib. Təsnifatdan keçməyən 40-a yaxın hotelə nöqsanları aradan qaldırmaq üçün vaxt verilib və onların təkrar auditi davam edir. Dövlət Turizm Agentliyi regionlarda fəaliyyət göstərən yerləşmə obyektlərinin də monitorinqini aparıb. Ulduz dərəcələrinin təyin edilməsi ilə bağlı işlərin icrası nəzərdə tutulur.

Xidmət keyfiyyətinin artırılması məqsədilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda fəaliyyət göstərən hotellərin 2 minə yaxın personalına peşə təlimləri, eləcə də mətbəx idarəedilməsi ilə bağlı təlimlər keçirilir. Hotel və restoranlar üçün veqan və vegetarian menyular hazırlanıb. Agentlik hotellərdə qastronomiya təlimlərinin keçirilməsi üzrə işləri davam etdirir.

Bundan əlavə, 200 turizm bələdçisinin sertifikatla təmin olunmaları, minə yaxın turizm könüllüsünün müvafiq hotellərə təhkim edilməsi üzrə də tədbirlər keçirilir. Milli park və qoruqların ərazisindəki təbiət və mədəniyyət abidələrində abadlıq işlərinin həyata keçirilməsi, infrastrukturun yenilənməsi, qeyd olunan ərazilərə tur proqramların hazırlanması fəaliyyətləri də davam edir.

COP29 Azərbaycanın tarixi, milli-mədəni irsin tanıdılması ilə yanaşı, ölkəmizin ekoturizm, aqroturizm, məsuliyyətli və dayanıqlı turizm kimi yeni bir sahədə də geniş potensialı haqqında məlumatların artırılmasına töhfə verəcək.

Ümumilikdə, turizmdə dayanıqlılıq məsələsi agentliyin xüsusi diqqətindədir. Ötən ilin noyabrında Ümumdünya Səyahət və Turizm Şurasının Ruandanın Kiqali şəhərində keçirilən “Dayanıqlı gələcəyə körpülərin qurulması” mövzusunda Qlobal Sammitində Azərbaycan Dünya Səyahət və Turizm Şurasının rəsmi destinasiya tərəfdaşı seçilməsi heç də təsadüfi deyil. Azərbaycan bu tərəfdaşlığı ilə hotellər üçün nəzərdə tutulan 12 əsas fəaliyyət istiqamətini ehtiva edən “Hotellər üçün Dayanıqlı Əsaslar” üzrə proqrama da üzv olub.

Bu ilin aprel ayında Stokholmda keçirilən “Dayanıqlı Turizm” konfransında Dövlət Turizm Agentliyi Qlobal Dayanıqlı Turizm Şurasına üzv qəbul olunub, Azərbaycan Turizm Bürosu və Şura arasında Anlaşma Memorandumu imzalanıb. Razılaşmaya əsasən, dayanıqlı turizmin inkişafına dəstək göstərmək, qlobal dayanıqlı turizm standartlarını milli səviyyəyə uyğunlaşdırmaq və ölkəmizdə bu sahədə mövcud beynəlxalq meyarları tətbiq etmək nəzərdə tutulur.

Bütövlükdə, COP29-un ölkəmizdə keçirilməsini turizm imkanlarının təbliğ edilməsi və sahənin müsbət imicinin formalaşdırılması, biznes və işgüzar potensialının tanıdılması üçün əlverişli fürsət kimi qiymətləndiririk. COP29 kimi tədbirlər beynəlxalq standartlara uyğun xidmətin təşkili üzrə təcrübənin formalaşmasına, turizm sənayesi ilə əlaqəli olan kiçik və orta sahibkarlığın inkişafına da mühüm töhfələr verir.

Belə beynəlxalq toplantılar xidmət keyfiyyətinin artırılması ilə birgə, göstərilən xidmətlərin çoxalmasına və çeşidliliyə səbəb olaraq turizm sənayesinin inkişafına təkan verir. Ölkəmizin bir sıra irimiqyaslı beynəlxalq tədbirlərə, müsabiqələrə evsahibliyi etmək təcrübəsi yüksəkdir. Müvafiq infrastruktur, təşkilati və texniki baza COP29-un da ən yüksək səviyyədə təşkil olunmasına imkan yaradır.

***Müsahibəni hazırladı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

Əsrin müqaviləsi-30

# Yeni əsrin neft sazişi ötən "Əsrin müqaviləsi"nə ikinci həyat verdi

*Bu layihədə ölkəmizə 440 milyard dollar investisiya qoyulması nəzərdə tutulur*

**Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanmasından 7 il ötür. "Yeni əsrin müqaviləsi" adlandırılan həmin sazişlə AÇG yataqlar blokunun işlənməsi 2050-ci ilədək uzadılıb.**



Xatırladaq ki, "Yeni əsrin müqaviləsi"ni 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan hökumətinin, SOCAR-ın, BP, "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətlərinin rəsmiləri Bakıda imzalayıblar. Həmin il oktyabrın 31-də saziş Azərbaycan Respublikasının Milli Məclisi ratifikasiya edib. Bununla da, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsində yeni dövr başlanıb.

Saziş qüvvəyə mindikdən dərhal sonra SOCAR və tərəfdaşları arasında AÇG müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin irəli aparılması haqqında razılaşma əldə edilib. ACE layihəsi üzrə yekun investisiya qərarı isə 2019-cu ilin aprel ayında qəbul olunub. "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsinin növbəti, həlledici mərhələsi olan "Azəri Mərkəzi Şərqi" adlandırılan layihənin ümumi dəyəri 6 milyard dollar təşkil edir.

Layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Tikinti işlərinə 2019-cu ilin sonlarında başlanıb. Əsas tikinti-quraşdırma işləri Bakı Dərin Özüllər Zavodunda və Bayıl tikinti-quraşdırma sahəsində həyata keçirilib. ACE platformasının dayaq blokunu "BOS Shelf" şirkəti inşa edib. Blokun çəkisi 16 min ton, hündürlüyü isə 153 metrdir. Bu qurğuya suvurma, neft və qaz ixracı üçün nəzərdə tutulmuş 3 dik boru daxildir.

Sözügedən qurğunun dənizə yola salınması prosesinə 2022-ci il dekabrın 13-də Prezident İlham Əliyevin iştirakı ilə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun tikinti sahəsində start verilib. Bütün istismar sınaqlarından sonra dayaq bloku 2023-cü il martın 16-da dənizə yola salınaraq suyun 137 metr dərinliyində quraşdırılıb. ACE layihəsi çərçivəsində dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yeni 48 şaxtalı hasilat, qazma və yaşayış platforması quraşdırılıb. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərlərinin, eləcə də laya vurulan suların nəqli məqsədilə suvurma boru xəttinin tikintisi daxildir.

ACE platformasının üst modullarına isə neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. "Azfen" şirkətinin Bayıl tikinti-quraşdırma sahəsində inşa etdiyi üst modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur. Qurğu 2023-cü ilin avqustunda dənizə göndərilib. Bundan əlavə, layihə çərçivəsində üç yeni yataqdaxili sualtı qaz, neft və suvurma boru xətti birləşmələri və əlaqədar sualtı infrastruktur yaradılıb. Dənizin dibi ilə çəkilmiş 6 və 12 kilometrlik kəmərlər mövcud AÇG sualtı ixrac boru kəmərləri ilə birləşdirilib. 2023-cü il ərzində dənizdəki tikinti işləri və istismar sınaqları da uğurla tamamlanıb.

Artıq yeni əsrin yeni neft sazişi real fəaliyyət sahəsinə çevrilib. Məlum olduğu kimi, bu il aprelin 16-da isə "Azəri Mərkəzi Şərqi" platformasında ilkin neftin hasilatına başlanıb. İlk neftin ötən ilin sonunda adı çəkilən platformadan qazılmağa başlanmış birinci quyudan əldə edilib. Bu, Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanmasından 6 il 7 ay ötəndən sonra mümkün olub. Bununla da, "Azəri-Çıraq-Günəşli" yataqlar bloku yeni istismar mərhələsinə qədəm qoyub.

Yeri gəlmişkən, ACE platforması "Əsrin müqaviləsi" çərçivəsində BP və tərəfdaşlarının birgə sərmayəsi ilə Xəzər dənizində quraşdırılmış 7-ci neft hasilatı obyektidir. Platformadakı texniki emal qurğularından keçən xam neft 30 düymlük mövcud sualtı ixrac boru kəmərinə qoşulmuş yeni yataqdaxili boru kəməri vasitəsilə təxminən 130 kilometr məsafə qət edərək Səngəçal terminalına nəql edilir. Ümumilikdə, ACE platforması və qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib.

Hazırda "Mərkəzi Şərqi Azəri"dən 2 istismar quyusu vasitəsilə neft hasil olunur. 2024-cü ilin ilk yarısının yekunlarına görə, burada orta gündəlik neft hasilatı 3 min barel təşkil edib. Hasilata başlanıldığı vaxtdan indiyədək isə buradan 814,7 min barel neft çıxarılıb. Yeni quyuların istismara verilməsi ilə ACE-dən hasilatın tədricən artacağı ilin sonunadək gündə təxminən 24 min barelə çatacağı gözlənilir.

ACE platforması texnoloji və rəqəmsal baxımdan BP-nin dünyada idarə etdiyi ən qabaqcıl platformadır. Platformanın innovativ layihələndirilməsi insan əməyi tələb edən prosesləri avtomatlaşdırmağa imkan verməklə əməliyyatların daha təhlükəsiz və səmərəli aparılmasını təmin edir. Platforma tam avtomatlaşdırılmış ən müasir qazma qurğusu ilə təchiz olunub. Müasir texnologiya və yeni proseslərin tətbiqi əməliyyatlar nəticəsində formalaşan emissiyaları azaltmağa da kömək edir.

Yeri gəlmişkən, "Yeni əsrin müqaviləsi"nin ölkəmiz üçün iqtisadi əhəmiyyəti olduqca yüksəkdir. Belə ki, saziş çərçivəsində Azərbaycan iqtisadiyyatına 40 milyard dollar investisiya qoyulması nəzərdə tutulur. Bu, neft sektorunun inkişafı baxımından vacib olmaqla yanaşı, yardımçı sahələrin inkişafını stimullaşdırmaq baxımından da mühüm əhəmiyyət daşıyır. Təkcə onu qeyd etmək kifayətdir ki, ACE layihəsinin pik dövründə ölkə daxilində həyata keçirilmiş tikinti işlərinə 8 min 500 nəfərdən çox işçi cəlb olunub.

Bununla yanaşı, Azərbaycanın yeni neft strategiyasının şanlı səhifəsi sayılan "Əsrin müqaviləsi"nin davamı olan bu saziş ölkəmizin maraqlarını tam təmin edir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb. Ən əsası isə, Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bundan əlavə, beynəlxalq tərəfdaş şirkətlər tərəfindən Azərbaycan Respublikasının Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəniləcək. Beləliklə, ölkəmizin ümumi mənfəət göstəricisi 89,1 faizə yüksələcək.

# Sosial sığorta daxilolmaları çoxalıb

**Cari ilin 8 ayında muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 3 milyard 725 milyon manat təşkil edib.**



Dövlət Vergi Xidmətindən XQ-yə bildirilib ki, bu məbləğdən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz və ya 350 milyon manatdan çox artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz artaraq 2,5 milyard manat olub. İşsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz artaraq 133,5 milyon manat, qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə 14,6 faiz artaraq 100,8 milyon manat təşkil edib.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar isə ötən ilin eyni dövrü ilə müqayisədə 8,2 faiz artaraq 659,4 milyon manat, qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə 9,4 faiz artaraq 468,4 milyon manat olub.

# Əhalinin gəlirləri 6 faiz artıb



**Dövlət Statistika Komitəsininin məlumatına görə, bu ilin yanvar–avqust aylarında Azərbaycan əhalisinin nominal gəlirləri 53 milyard 947,2 milyon manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 6,1 faiz çoxdur.**

Son 1 ildə ölkədə adambaşına düşən nominal gəlir isə 5,6 faiz artaraq 5 min 292 manata çatıb.

# "ƏDV geri al" – 116 milyon manat

**Bu ilin yanvar–avqust aylarında pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin göstərdikləri tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 116 milyon manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.**



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bu barədə yaydığı məlumatda bildirilib ki, "ƏDV geri al" layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində fiziki şəxs olan istehlakçıların Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada aldıqları yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılması prosesi davam edir.

Xatırladaq ki, 2024-cü ilin yanvar–avqust aylarında nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan həcmi 14 milyon 411 min manat təşkil edib.

# 8 aylıq inflyasiya 1,3 faiz olub

**Cari ilin 8 ayında ölkədə istehlak qiymətləri indeksi ötən ilin eyni dövrü ilə müqayisədə 101,3 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 100,1 faiz, qeyri-qida məhsulları üzrə 101,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 103 faiz təşkil edib.**

Dövlət Statistika Komitəsinin bu barədə məlumatına görə, cari ilin avqsut ayında illik istehlak qiymətləri indeksi ötən ilin eyni ayına nisbətən 103,5 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 103 faiz, qeyri-qida məhsulları üzrə 101,8 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 105,6 faiz olub.

Ötən ay istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,4 faiz təşkil edib. Qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100 faiz olub.

Ötən ay qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz olub. Qeyri-qida mallarından daha çox artım kəsilmiş taxtanın, kərpicin, sementin, zərgərlik məmulatlarının qiymətlərində müşahidə edilib. Digər qeyri-qida mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Avqust ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi isə əvvəlki aya nisbətən 101,3 faiz təşkil edib. Əhaliyə göstərilmiş ödənişli xidmətlərdən artım əsasən xalçaların yuyulması xidmətinin, internet xidmətinin, MDB ölkələri istisna olmaqla hava nəqliyyatı ilə digər ölkələrə beynəlxalq sərnişindaşıma xidmətlərinin, azalma isə hava nəqliyyatı ilə MDB ölkələrinə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunub.

Xatırladaq ki, inflyasiyanın azalması cari ilin əvvəlindən davamlı prosesə çevrilib. Belə ki, cari ilin yanvar ayında ölkədə illik inflyasiya 1,7 faiz təşkil edib. Bu göstərici 2023-cü və ondan əvvəlki illərin yanvar aylarında müvafiq olaraq 12,5 faiz və 13,6 faiz olub. Həmin vaxt ölkədə illik inflyasiyanın kəskin enmə səbəbi ilə bağlı İqtisadiyyat Nazirliyinin məlumatında bildirilirdi ki, 2023-cü il ərzində respublikamızda inflyasiyada əvvəlki illə müqayisədə azalma davam edib. Belə ki, ötən ilin dekabr ayında cəmi məhsul və xidmətlər üzrə illik inflyasiya əvvəlki ilin müvafiq göstəricisinə nəzərən 12,3 faiz bəndi azalaraq 2,1 faiz təşkil edib. 2023-cü ilin dekabr ayında ərzaq məhsulları üzrə illik inflyasiya 0,8 faiz, qeyri-ərzaq məhsulları üzrə 2,7 faiz, ödənişli xidmətlər üzrə isə 3,7 faiz olub. İnflyasiyada səngimə 2024-cü ildə də davam edib və cari ilin yanvar ayında bu göstərici 1,7 faizə enib.

Ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri inflyasiyaya azaldıcı təsir göstərib.



Həmin vaxt Maliyyə Nazirliyinin məlumatında isə qeyd olundu ki, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyaya azaldıcı təsir göstərir. Qiymətlərin zəruri gündəlik tələbat məhsulları üzrə daxili istehsalın təşviqi, eyni zamanda, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında", eləcə də "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da inflyasiyanın azalmasını şərtləndirir.

# "İstisu" dövlət standartı alıb

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutunun (AZSTANDART) əməkdaşları "İstisu" mineral su zavodunun idarəetmə sistemi və laboratoriyalarının, o cümlədən istehsal edilən məhsullarının yerli və beynəlxalq standartların tələblərinə uyğunluğunu izləmək məqsədilə müəssisədə olublar.**



Bu barədə AZSTANDART-dan XQ-yə verilən məlumatda bildirilib ki, Azərbaycan Standartlaşdırma İnstitutunun ekspertləri laboratoriya şəraitində su qurğularının test edilməsi, ağır metalların sudan təmizlənməsi, təmizlənmiş suyun laboratoriya şəraitində yenidən yoxlanması, qablaşdırılması, hazır məhsulun standartın tələblərinə uyğun şəraitdə saxlanılması və istehlakçıya çatdırılması prosesi ilə tanış olublar.

Sonda AZSTANDART "İstisu" mineral su zavodunun idarəetmə sistemlərini ISO 9001:2015 və ISO 22000:2018 yerli və beynəlxalq standartların tələblərinə uyğun olaraq sertifikatlaşdırıb. Bununla "İstisu" mineral su zavodunun istehlakçıya təqdim etdiyi təbii mineral suyun AZS 216–2006 "İçməli təbii mineral sular. Ümumi texniki şərtlər" standartına uyğun şəkildə sertifikatlaşdırılması təmin olunub.

# Vergi daxilolmaları 11 milyard manatı keçib

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə bu ilin 8 ayında dövlət büdcəsinə 11 milyard 227,5 milyon manat vergi daxil olub.**

Qurumun mətbuat xidmətinin məlumatına görə, hesabat dövründə vergi daxilolmalarının 7 milyard 744 milyon manatı və yaxud 69 faizi (2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 879 milyon manat və ya 12,8 faiz çox) qeyri-neft-qaz sektorunun, 31 faizi isə neft-qaz sektorunun payına düşüb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# İqlim dəyişməsi torpağı da ciddi təhdid edir

**COP29-un Azərbaycanda keçirilməsi qərarı dünya ölkələrinin yekdil mövqeyi əsasında qəbul olunub. Konfrans çərçivəsində müzakirə olunan problemlərdən biri də iqlim dəyişikliyinin kənd təsərrüfatına təsiri olacaq.**



Temperaturun artması, yağıntı normasının dəyişməsi və ekstremal hava hadisələrinin tez-tez baş verməsi ərzaq təhlükəsizliyi üçün ciddi təhdidlər yaradır. Bu şəraitdə kənd təsərrüfatının dayanıqlı inkişafının gerçəkləşdirilməsi təkcə milli səviyyədə deyil, həm də beynəlxalq əməkdaşlıq çərçivəsində həll edilməlidir. Bu zaman torpaqların şoranlaşmasının qarşısının alınması da ən mühüm məsələlərdən biridir. **Azərbaycan Pedaqoji Universitetinin dosenti, çoğrafiya üzrə fəlsəfə doktoru Mətanət Əsgərova bununla bağlı söhbətində dedi:**

– Ölkəmizdə torpaqlar normadan artıq və ənənvi qaydada – selləmə yolu ilə suvarılır. Fermerlər elə düşünürlər ki, əkin sahələrinə çox su verməklə bol məhsul əldə etmək olar. Lakin bu, heç də belə deyil. Çünki əvvəla hər bitkinin vegetasiya dövrünə uyğun su norması var. Artıq su bitkinin düzgün qidalanmasını, maddələr mübadiləsini çətinləşdirir, torpağın normal tənəffüs prosesini pozur. Çox su verməklə torpağın bitki üçün əhəmiyyətli qida maddələri yuyulur. Digər tərəfdən, selləmə yolu ilə suvarma zamanı su torpağın nisbətən çökək hissəsinə yığılaraq qurunt suyunun qalxmasına səbəb olur. Belə ərazilərdə, adətən, yerin 1–1,5 metr dərinliyində toplanan şor sular sonradan düzgün suvarılmanın aparılmaması, drenaj–kollektorların işləməməsi nəticəsində torpağın səthinə çıxır. Nəticədə qrunt suları ilə birlikdə torpağın səthinə zərərli duzlar yığılır. Havanın isti keçməsi nəticəsində su buxarlanır, duzlar isə torpağın üst hissəsində qalır.

Natrium, maqnezium, kalsium kationları duz əmələ gətirərək torpağı şoranlaşdırır. Duzların miqdarı 2–3 faizdən çox olduqda bitkilərə məhvedici təsir göstərir, onun kökünü qurudur və qida maddələrini mənimsəməyə imkan vermir. Nəticədə bitkinin inkişafı ləngiyir. Torpaqda havalanma getmədiyindən qida maddələri azalır və şoranlaşmaya səbəb olan kimyəvi maddələr isə çoxalır.

Şoranlaşma birbaşa məhsuldarlığın aşağı düşməsinə gətirib çıxarır. Belə torpaqlarda becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı 40 faizdən yuxarı qalxmır. Şoran olmayan ərazidə pambıqdan hektara 45-50 sentner məhsul götürmək mümkünsə, şoranlıq ərazidə bu göstərici 15-20 sentner təşkil edir. Taxıl və digər sahələrdə də vəziyyət belədir.

**– Kür, Araz çayları ətrafında şoran torpaqların həcmi getdikcə artır. Buna səbəb həm də suvarma kanalları göstərilir.**

– Mövcud suvarma şəbəkələrinin, təxminən, 70 faizinin torpaq məcralı olması böyük su itkilərinin yaranmasına səbəb olur. Həmin torpaq kanallarda su filtrasiya olunur, yeraltı sızma ətrafdakı torpaqlarda qrunt sularının səviyyəsini qaldırır. Suyun sızması nəticəsində ətraf ərazilər şoranlaşmaya məruz qalır.

Ölkəmizin ovalıq hissəsində suvarılan ərazilərdə deqradasiyaya drenaj–kollektor



şəbəkəsi də təsir edir. Kür–Araz ovalığında hələ XX əsrin ortalarında yaradılmış kollektor–drenaj şəbəkəsi demək olar ki, sıradan çıxdığından toplanan şor suları suvarılan sahələrdən uzaqlaşdıra bilmir. Nəticədə qrunt sularının səviyyəsi qalxaraq torpaqları şoranlaşdırır və bəzi sahələrdə səthə çıxaraq göl–bataqlıq landşaftı yaradır.

**– Ağacların kəsilməsi, meşə sahələrinin azalması da şübhəsiz ki, torpağın şoranlaşmasına təsir edir.**

– Ölkəmizin ağ ciyərləri sayılan meşələr nəfəs aldığımız havanı təmizləyir, içdiyimiz suyu süzür, eroziyanın qarşısını alır və iqlim dəyişikliyinə qarşı mühüm tampon rolunu oynayır. Suyun dövranını, onun balansını tənzimləyir. Ağacların qırılması isə aran rayonlarında şoranlaşmanın ciddi səbəblərindən birinə çevrilir. Kür çayı boyu Tuqay meşələrinin qırılması bunun bariz nümunəsidir. Bu, əhalinin artması, heyvandarlığa olan tələbatın çoxalması və meşə torpaqlarından kənd təsərrüfatında istifadə edilməsi ilə əlaqədar baş verir. Torpağın küləyin təsirinə daha çox məruz qalmasına səbəb olur. Nəhayət, Tuqay meşələrinin qırılması qrunt sularının səthə çıxması, gölməçələrin, bataqlıqların və ərazinin soranlaşması ilə özünü göstərir. Bu cür ərazilər Yevlax, Kürdəmir, Zərdab, Sabirabad və s. rayonlarda daha qabarıq nəzərə çarpır. Məsələn, Kürdəmirdə şoranlaşma, şorakətləşmə dərəcələrinə görə, ümumi ərazinin 51 faizi təhlükə altındadır. Qazaxda bu rəqəm şorlaşma və eroziya nəticəsində 68 faizdir. Zərdab, Beyləqan və Yevlaxda da ümumi əraziyə nisbətdə şoranlaşan, şorakətləşən torpaqların faizi yüksəkdir.

**– Şoranlaşmaya qarşı mübarizə tədbirləri barədə nə deyə bilərsiniz?**

– Məhsuldarlığı xeyli aşağı salan şorlaşmaya qarşı vaxtında tədbir görülmədikdə onun sahəsi genişlənərək, daha böyük ərazidə torpaq və bitki örtüyünün deqradasiyasına gətirib çıxarır. İlk növbədə, şoran torpaqlar kənd təsərrüfatı üçün yararlı hala salınmalıdır. Suda həll olan duzlar yuyulub torpaqdan kənar edilməli, drenaj çəkilməli, gipsləmə aparılmalı və torpağa üzvi gübrələr verilməlidir. Yuyulma norması torpağın mexaniki tərkibindən, qrunt suyunun dərinlik səviyyəsindən və şorlaşma dərəcəsindən asılı olaraq dəyişir. Əvvəlcə torpaq dərin şumlanmalı və yüksək su norması ilə yuyulmalıdır.

Əkin sahələrinin suvarılmasında müasir sistemlərdən istifadə genişləndirilməlidir. Məsələn, damcı suvarma üsulu suyu kiçik dozalar ilə, birbaşa bitkilərin kök üstündə olan sahəyə verməyə imkan yaradır. Çiləyici suvarma üsulu isə bilavasitə bitkilər üzərində havanın rütubətini artırır, temperaturu aşağı salır və torpağı nəmləndirir. Hər iki üsul su itkisinin qarşısını alır, torpağın soranlaşmasına imkan vermir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Xəzər sahilində “yaşıl” qiymətləndirmə

## *LiDAR cihazları dənizin külək enerjisi potensialını öyrənəcək*

**Xəzər dənizinin Azərbaycan sektoru külək enerjisi potensialı ilə zəngindir. Mütəxəssislərin hesablamalarına görə, dənizin ölkəmizə aid hissəsi üzrə külək enerjisinin ümumi texniki potensialı 157 qiqavat həcmində qiymətləndirilir. Bunun da 35 qiqavatı dənizin dayaz, 122 qiqavatı isə dərin sulu hissələrinin payına düşür. Bu fakt artıq beynəlxalq enerji qurumları tərəfindən də öz təsdiqini tapıb. Təsadüfi deyil ki, Ümumdünya Külək Enerjisi Şurasının “Global Wind Report 2022” adlı hesabatında dənizdə külək enerjisi sahəsində yeni bazarların kəşf edilməsi çərçivəsində dörd ölkənin – Şri Lanka, Azərbaycan, Avstraliya və Türkiyənin adı önə çəkilib. Göründüyü kimi, sözügedən hesabatda Azərbaycan külək enerjisi potensialına görə bu ölkələr arasında ikinci yerdə qərarlaşıb.**

Son illər Azərbaycanın “yaşıl” enerji potensialının hətəkətə gətirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu baxımdan Xəzərin külək potensialından səmərəli istifadə məsələsi də öz aktuallığını getdikcə artırır. Artıq bu istiqamətdə konkret layihələr də işlənib hazırlanıb. Yeri gəlmişkən, energetika naziri Pərviz Şahbazovun dediyinə görə, ölkəmiz Xəzər dənizinin zəngin külək enerjisi potensialının 7,2 qiqavatının 2036-cı ilədək reallaşdırmaq niyyətindədir. Bununla da, 2040-cı ilədək dəniz külək energetikasının qoyuluş gücü ölkənin enerji təchizatının 37 faizini təmin edə bilər.





“Azərbaycanda dəniz külək enerjisindən istifadənin inkişafı üzrə Yol Xəritəsi”ndə dənizdə müvafiq layihələrlə bağlı tenderlərin təşkili, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər nəzərdə tutulur. Dənizdə mövcud olan bu potensialdan səmərəli istifadə isə öz növbəsində yeni iş yerləri, həmçinin ölkə iqtisadiyyatına əlavə dəyər qazandıran imkanlar yaradacaq.

Alternativ və Bərpa Olunan Enerji Agentliyindən XQ-yə verilən məlumata görə, “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” çərçivəsində nəzərdə tutulan “5.2.3. bərp olunan enerji mənbələrinin istifadəsinin artırılması” fəaliyyət istiqamətinə uyğun olaraq Energetika Nazirliyi tərəfindən “Dənizdə külək enerjisi potensialının araşdırılması və bu potensialdan istifadə məqsədilə ölçmə və digər hazırlıq tədbirlərinin həyata keçirilməsi” ilə bağlı təkliflər sorğusu keçirilib. Sorğu nəticəsində qalib podratçı şirkət müəyyən edilib, konkret dəniz əraziləri seçilərək burada külək enerjisinin potensialının ölçülməsi məqsədilə intensiv araşdırma aparılmağa başlanıb.

Ölçmə və müşahidə işlərinin həyata keçirilməsi üçün Finlandiyanın dünya miqyasında tanınmış “Vaisala” şirkətindən ölkəmizə iki qabaqcıl LiDAR (Light Detection and Ranging) cihazı gətirilib. Dənizdə yerləşdirilmiş həmin cihazlar külək enerjisinin dəqiq təhlilini təmin etmək üçün xüsusi olaraq seçilmiş ərazilərdə quraşdırılıb.

Agentliyin məlumatına əsasən, LiDAR texnologiyası lazer şüalarının obyektlərə və havada olan hissəciklərə vurulması prinsipinə əsaslanır. Belə ki, cihaz lazer şüasını göndərir və bu şüanın geri dönən əks-sədasını ölçür. Şüanın əks-sədası vasitəsilə cihaz mühitdəki obyektlərin məsafəsini və hündürlüyünü dəqiq müəyyən edə bilir. Dənizdə bu texnologiya küləyin sürətini və istiqamətini ölçmək üçün istifadə olunur. LiDAR cihazları 10 kilometr məsafədəki nöqtələrdə küləyin sürətini və istiqamətini ölçərək 75 metr, 150 metr və 225 metr hündürlüklərdə virtual ölçü-müşahidə dirəkləri yaradır.

Hər iki cihaz bir neçə sabit skan növü yerinə yetirərək bir kompozit skan daxilində fəaliyyət göstərir. Sabit skanların isə hər biri müəyyən ölçmə istiqamətinə (virtual ölçü-müşahidə dirəyi üçün müəyyən bir hündürlük) yönəldilib. Bu sistem müxtəlif hündürlüklərdə və istiqamətlərdə ölçmələr apararaq küləyin davranışını geniş bir spektrdə təhlil etməyə imkan yaradır. Beləliklə, dənizdə küləyin müxtəlif mərhələlərdəki xüsusiyyətləri haqqında ətraflı və dəqiq məlumat əldə edilir.

Məlumatların keyfiyyətini qorumaq üçün 1.3 saniyəlik toplanma müddəti istifadə olunur. Bu müddət hər bir ölçmə nöqtəsində məlumatların toplandığı vaxtı əks etdirir. Uzun toplanma müddəti daha dəqiq nəticələr əldə etməyə kömək edir, lakin ölçmə tezliyini azaldır. Bu səbəbdən hər bir nöqtədə ən azı iki ölçmə əldə etmək və məlumatların keyfiyyətini qorumaq məqsədilə 1.3 saniyəlik toplanma müddəti tövsiyə olunur. Bu yanaşma atmosfer şəraitinin təsirini də nəzərə alaraq daha dəqiq nəticələr əldə etməyə imkan verir.

Qeyd edək ki, bu layihə Azərbaycanın dənizdəki külək enerjisi potensialını dərinləşmiş şəkildə öyrənmək və bu enerjidən daha səmərəli istifadə etmək məqsədilə həyata keçirilən mühüm bir addımdır. Eyni zamanda, bu işlərin nəticələri ölkəmizin gələcəkdə enerji təhlükəsizliyininin gücləndirilməsini təmin etmək və ətraf mühitə daha az təsir göstərmək məqsədilə həyata keçirilən bərpaolunan enerji layihələrinə vacib və praktik məlumatlar təqdim edəcək. Sözügedən layihə, həmçinin Azərbaycanın enerji sektorunda müasir texnologiyaların tətbiqi və bərpaolunan enerji mənbələrinin inkişafı sahəsindəki irəliləyişlərini əks etdirir və ölkənin enerji gələcəyini daha dayanıqlı və ekoloji cəhətdən təmiz hala gətirməyə kömək edəcək.

# Energetika Nazirliyində AYİB təmsilçisi ilə görüş



**Energetika nazirinin müavini Orxan Zeynalov Avropa Yenidənqurma və İnkişaf Bankının Türkiyə və Qafqaz üzrə icraçı direktoru Elizabetta Falcetti ilə görüşüb. Bu barədə XQ-yə nazirlikdən məlumat veilib.**

Bildirilib ki, görüş zamanı energetika sektorunda bankla mövcud əməkdaşlıqdan məmnunluq ifadə edilib, bərpaolunan enerji, enerji səmərəliliyi və aşağı karbonlu enerjiyə keçid kimi sahələrdə cari layihələr nəzərdən keçirilib, gələcək əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb. Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən “Qobustan” Günəş Elektrik Stansiyası üzrə hərrac prosesinin gedişatı qiymətləndirilib.

Qarşı tərəfə “Xəzər – Qara dəniz – Avropa” və “Azərbaycan – Mərkəzi Asiya – Avropa” “yaşıl” enerji dəhlizlərinin yaradılması istiqamətində atılan addımlar, COP29-la bağlı təşəbbüslər və enerji sahəsində planlaşdırılan tədbirlər haqqında məlumat verilib.

# PreCOP da Azərbaycanda keçiriləcək

## Bu toplantıda ekologiya nazirləri COP29-un gündəliyini müzakirə edəcəklər

**Ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rüstəm Həsənov “Hüquq və iqlim” adlı beynəlxalq konfransdakı çıxışında ölkəmizin bu il oktyabrın 10-11-də PreCOP tədbirinə evsahibliyi edəcəyini bildirib.**

Nazirlik rəsmisi COP29 tədbirinə hazırlıq prosesi və tədbir çərçivəsində həyata keçiriləcək işlər barədə məlumat verərək qeyd edib ki, COP konfranslarına ev sahibi ölkələrinin seçilməsi, əsasən, dövlətlərin BMT-də üzv olduqları coğrafi qruplara əsaslanır. Həmin ardıcıllıqla ev sahibi ölkələri müəyyənləşdirilir. Adətən, COP tədbirinə evsahibliyi edəcəyi ölkəyə bu barədə 24 aya yaxın müddət ərzində məlumat verilir. Belə halda şübhəsiz ki, sammitə hazırlıq üçün kifayət qədər vaxt olur.

Azərbaycan seçim şərtlərinin sərtləşməsi və mürəkkəb regionda yer alması səbəbindən 11 aydan daha az müddət ərzində hazırlıq işlərinə başladı. Qısa müddətdə bu prosesi yekunlaşdırmaq üçün tərəflərlə birgə genişmiqyaslı layihələr gerçəkləşdirildi. Tədbirin təşkilati məsələlərinin həlli ilə bağlı COP29 Sədrliyinin ofisi formalaşdırıldı, COP29 Azərbaycan Əməliyyat Şirkəti təsis edildi. Bakı Olimpiya Stadionu əsas tədbir məkanı olaraq seçildi. COP29-un Bakı Olimpiya Stadionu ilə yanaşı, digər məkanlarda da keçirilməsi qərara alındı.

Azərbaycan iqlim konfransından əvvəl oktyabrın 10-11-də PreCOP adlanan tədbirə evsahibliyi edəcək. COP29-un tərəf qismində iştirak edəcəyi bu toplantıya ölkələrin ekologiya nazirləri qatılacaq və tədbirin gündəliyi, o cümlədən qarşıda duran məsələlər müzakirə olunacaq.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***X Q***

Oxucu sorğusuna cavab

# İpoteka müqaviləsi nədir və onun hüquqi mahiyyəti

**Azərbaycan Respublikasının Konstitusiyasının 15-ci və 59-cu maddələrinə əsasən, ölkəmizdə iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növləri üzrə xalqın rifahının yüksəldilməsinə xidmət edir. Dövlət bazar münasibətləri zəminində sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır. Hər kəs öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.**



Qloballaşma dövründə sosial yönümlü iqtisadiyyatın hərtərəfli inkişafı məqsədilə mülki dövriyyənin sabitliyinin hüquqi təminatı dövlətin əsas qayğılarından biridir. Qeyd edilməlidir ki, mülkiyyət hüququ subyektin öz əmlakına istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və sərəncam vermək səlahiyyətindən ibarət olmaqla onun digər şəxslərə münasibətdə hüquqlarını qoruyur.

Bununla yanaşı, həmin əmlaka mülkiyyətçi olmayan şəxslərin də hüquqları yarana bilər. Bu hüquqlar qanunvericilikdə girov hüququ, əmlakdan istifadə hüququ və servitut kimi nəzərdə tutulmuşdur. Öhdəliklərin icrası girov ilə yanaşı, dəbbə pulu, borclunun əmlakının saxlanılması, zaminlik, qarantiya, beh və digər üsullarla təmin edilir.

Mülki hüquq üzrə ötən əsrin görkəmli alimlərindən olan E.Vaskovski öz əsərlərində girovu əşya hüququna aid edərək göstərmişdir ki, borclu əsas öhdəliyi yerinə yetirmədiyi və ya ona lazımi qaydada əməl etmədiyi halda girov hüququ kreditorun tələblərinin girov qoyulmuş əşyanın dəyərindən ödənilməsi imkanını verir. Tanınmış alim Q.Şerşeneviçin fikirincə, girov özgəyə məxsus əşyaya olan hüquqdur və onun xüsusiyyəti ondan ibarətdir ki, girov hüququ müstəqil deyil və əsas öhdəlikdən asılı vəziyyətdədir.

Beləliklə, girov həm kreditorda tələblərinin icra ediləcəyinə əminlik yaradır, eləcə də tələbin əşyaya yönəldilə biləcəyi riski isə borclunun öz öhdəliklərini vaxtında və lazımi qaydada icra etməsini stimullaşdırır.

İpoteka termini eramızdan əvvəl VI əsrdə Yunanıstanda yaranmışdır. Bu hüquqi konstruksiya ilə borclunun öhdəliyi zəruri olduğu halda ona məxsus torpaq sahələrinin dəyərindən təmin edilirdi. İpoteka sözü yunan mənşəli olmaqla sütun (dayaq) mənasını verir. Belə ki, borcalana məxsus ipoteka qoyulmuş torpaq sahəsindəki sütun üzərində kredit və ipoteka müqavilələrinin şərtlərinə dair yazı vurulurdu.

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı daşınmaz əşyadan istifadə edilməsi, eləcə də bu əşyanın müqavilə öhdəliklərinin icrasının təmini üçün ipoteka (girov) qoyulması bazar iqtisadiyyatında geniş yayılmış effektiv mexanizmdir. Bu baxımdan ipoteka münasibətlərinin hüquq müstəvisində şəffaflığının təmin edilməsi qanunverici orqanın diqqətindən kənarda qala bilməzdi.

Bazar münasibətlərinin tənzimlənməsi üzrə əsas hüquqi mexanizmlərdən biri də müqavilədir. Bu sənəd tərəflərin azad şəkildə ifadə etdikləri iradələrinə əsasən hüquq və vəzifələri, öhdəliklərin icrası qaydalarını müəyyənləşdirir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 269-cu maddəsinə görə, girov və ipoteka hüququ girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur. Eyni zamanda, bu hüquq borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur. Girov və ipoteka hüququ əşya hüquqlarının məhdudlaşdırılmasından ibarətdir. Girov daşınar əşyalara (ipoteka obyekti olan daşınar əşyalardan başqa) əşya hüquqlarının məhdudlaşdırılmasıdır.

Bu məcəllə ilə nəzərdə tutulmuş hallarda hüquqların da girov qoyulması mümkündür. İpoteka daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əmlaka əşya hüquqlarının məhdudlaşdırılmasıdır. Bütün bu müddəalar Azərbaycan Respublikasının Mülki Məcəlləsində təsbit olunaraq ipoteka haqqında ümumi xarakterli normaları əhatə edir.

Bununla yanaşı, ipoteka münasibətlərini tənzimləyən 9 iyun 2005-ci ildə qüvvəyə minmiş "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanunu ipoteka üzrə anlayışları, ipotekanın tətbiq sahəsini, ipotekanın xüsusiyyətlərini, ipotekanın yaranması və dövlət qeydiyyatı, ipoteka qoyanla ipoteka saxlayanın qarşılıqlı münasibətlərinə dair xüsusi müddəaları əks etdirir. Qanunvericiliyə görə, ipoteka öhdəliyinin icrasının təmin edilməsi üsulu olaraq daşınmaz əşyaların və rəsmi reyestrdə üzərində mülkiyyət hüquqları qeydə alınan daşınar əşyaların girovudur.

Notariat təcrübəsi göstərir ki, sahibkarları maraqlandıran əsas məsələlərdən biri də ipotekanın tətbiq sahəsidir. Əsas sual ondan ibarətdir ki, hansı müqavilələr üzrə öhdəliklərin təmini üçün əşya ipoteka qoyula bilər? Bu barədə qeyd edə bilərik ki, istənilən mülki-hüquqi müqavilələrdən irəli gələn həqiqi tələblər ipoteka ilə təmin edilə bilər və bununla bağlı hər hansı bir məhdudiyyət yoxdur.

Mülki dövriyyədə geniş yayılmış ipoteka müqavilələri kredit və alqı-satqı şərtlərindən irəli gələn öhdəliklərin təmin edilməsi ilə bağlıdır. Verilmiş kreditlərin vaxtında qaytarılması üçün daşınmaz əşyaların ipoteka qoyulması bank fəaliyyətini və kreditorların hüquqlarını təmin edir. Təcrübə göstərir ki, təminatsız verilən kreditlərin geri qaytarılması bir çox hallarda mümküm olmur. Bu da mülkiyyət hüququnun pozulması və banklara ziyan dəyməsi ilə nəticələnir.

Bununla yanaşı, vətəndaşların yaşayış sahəsini almaq üçün kredit əldə etməyin yollarından biri də ipotekadır. Bir tərəfdən borc götürən aşağı faizlə kredit əldə edərək mənzil alır. O, yaşayış sahəsinə olan tələbatını ödəyir, digər tərəfdən, bank təminatlı kredit verməklə gəlir əldə edir.

Yaşayış sahəsinin tərkib hissəsindən istifadə ilə bağlı məhdudiyyət mövcuddur. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.3-cü maddəsinə əsasən, yaşayış binasının tərkib hissəsindən istifadə hüququ alqı-satqının, girovun və icarənin müstəqil predmeti ola bilməz. Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ olan şəxs, mülkiyyətçi də daxil olmaqla, istənilən şəxsdən həmin yaşayış binasına olan hüququnun pozulmasını aradan qaldırmağı tələb edə bilər.

İpoteka müqaviləsi müstəqil müqavilə deyil və digər müqavilə üzrə öhdəliklərin icrasının təmin edilməsi üçün bağlanılır. Əsas müqavilə isə, qeyd olunduğu kimi, istənilən mülki-hüquqi müqavilədir. Əsas müqavilə üzrə öhdəliklər yerinə yetirildiyi halda və yaxud o ləğv edildiyi, o cümlədən etibarsız sayıldığı halda ipoteka müqaviləsi qüvvədən düşür.

Yaşayış sahələrinin ipoteka qoyulmasının müəyyən hüquqi xüsusiyyətləri var. Belə ki, mülkiyyətçi yaşayış sahəsini ipoteka qoyması üçün həmin sahədə yaşayış yeri üzrə qeydiyyatda olan ailə üzvlərinin razılığını almalıdır. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 2-ci maddəsinə görə, ailə üzvləri ər-arvad, valideynlər və uşaqlar hesab olunurlar.

Birgə nikah dövründə əldə edilmiş ümumi birgə mülkiyyətdə olan əşyanın ipoteka qoyulmasına ər və ya arvadın razılığı tələb olunur. Nəzərə alınmalıdır ki, Ailə Məcəlləsinin 34.1-ci maddəsinə əsasən, nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir (ər-arvadın hər birinin əmlakıdır). Bu əmlakın ipoteka qoyulmasına ər və ya arvadın razılığı tələb olunmur.

İpoteka saxlayan həmin sahədə qeydiyyatda olan digər şəxslərin də razılığını tələb edə bilər. Bütün bu mexanizmlər gələcəkdə tutmanın ipotekaya yönəldilməsi zamanı yarana biləcək mülki mübahisənin qarşısını almaq üçün nəzərdə tutulmuşdur. Yaşayış sahəsində qeydiyyatda olan şəxslər, o cümlədən ər və ya arvad ipotekaya razılıq verən zaman əsas müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi imkanını dürüst dəyərləndirməli və ipoteka qoyulan əmlakın gələcəkdə əsas müqavilə üzrə öhdəliyin icrası üçün özgəninkiləşdiriləcəyini bilməlidir.

İpoteka predmetinə sərəncam verilməsi qaydası ipoteka müqaviləsində müəyyənləşdirilə bilər. Əgər bu qayda müqavilə üzrə müəyyən edilməmişdirsə, qanunvericilikdə nəzərdə tutulmuş qayda tətbiq olunur. Həmin qaydaya görə, ipoteka predmeti ipoteka qoyan tərəfindən yalnız ipoteka saxlayanın yazılı razılığı ilə digər şəxsə özgəninkiləşdirilə bilər və ya ona dair etibarnamələr (nəqliyyat vasitələrini idarə etmək hüququna dair etibarnamələr istisna olmaqla) və digər sərəncamlar verilə bilər (istifadə, icarə və sair).

Göstərilənlərlə bağlı ipoteka qoyan əvvəlcədən ipoteka predmetinə sərəncam verilməsi qaydaları ilə bağlı niyyətini dəqiqləşdirməli və müqaviləni təsdiqləyən notariusa bildirməlidir. Bununla yanaşı, "İpoteka haqqında" Qanunun 30.6-cı maddəsinə əsasən, ipoteka predmetinin özgəninkiləşdirilməsinin əsas öhdəlik üzrə tələblərin ödənilməsinə kifayət etdiyi hallarda, ipoteka predmetini özgəninkiləşdirə və ipoteka saxlayana əsas öhdəlik üzrə borclarını ödəyə bilər.

İpoteka qoyan əsas öhdəliyin həcmi barədə arayışı notariusa təqdim edir. Bu halda notarius ipoteka predmetinin özgəninkiləşdirilməsinə dair müqaviləni təsdiqləyir, ipoteka saxlayanın tələblərinin tam ödənilməsinə dair müəyyən edilmiş məbləğin ipoteka saxlayanın hesabına köçürülməsini təmin edir. İpoteka saxlayanın tələbləri tam ödənildikdə, ipoteka saxlayan (birgə ipoteka saxlayanlar) ipotekanın dövlət qeydiyyatının ləğvi məqsədilə ipotekanın dövlət qeydiyyatı orqanına müraciət etməlidir.

İpoteka qoyanın mülkiyyət hüququ qanunvericiliyin yuxarıda göstərilən müddəaları ilə qorunur. İpoteka müqaviləsinin forması "İpoteka haqqında" Qanunun 10.2-ci maddəsində nəzərdə tutulmuşdur. Həmin normaya görə, ipoteka müqaviləsi ipoteka qoyan və ipoteka saxlayan tərəfindən, habelə ipoteka qoyan borclu deyildirsə, borclu tərəfindən imzalanmış bir sənədin tərtibi yolu ilə yazılı formada bağlanılır. İpoteka müqaviləsi notariat qaydasında təsdiqlənməlidir.

İpoteka müqaviləsinin təsdiqlənməsi zamanı ipoteka qoyulan əşyaya mülkiyyət hüququnu təsdiqləyən sənəd əsas götürülür. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmayan əşya ipoteka qoyula bilməz. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 146-cı maddəsinin tələblərinə görə, daşınmaz əmlak üzərində sərəncam vermək hüququ həmin əmlakın daşınmaz əmlakın dövlət reyestrində ərazilər üzrə qeydiyyatı tarixindən əmələ gəlir. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamış daşınmaz əmlak barəsində müqavilələrin notariat qaydasında təsdiqlənməsinə yol verilmir və bu cür əmlak barəsində bağlanmış müqavilələr etibarsız sayılır.

İpoteka müqaviləsinin notariat qaydasında təsdiqlənməsinə dair tələb onun qanunvericiliyə uyğun bağlanması, tərəflərin həqiqi niyyətinin müəyyən edilməsi və ipotekaya əsas verən sənədlərin ciddi yoxlanılması məqsədini daşıyır. İpoteka predmetinə tutma ipoteka saxlayanın tələbi üzrə yönəldilir. İpoteka müqaviləsinə və ya ipoteka kağızına əsaslanan bu tələb üzrə tutma notariusun icra qeydi ilə həyata keçirilir.

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə əsasən, tələbkar icra qeydinin aparılması üçün notariat ofisinə müraciət etdiyi gündən, ən azı, 20 gün əvvəl sifarişli poçt vasitəsilə borcluya tələbin icra edilmədiyi halda icra qeydinin aparılacağı barədə bildiriş göndərməlidir.

Bu bildirişi alan borclu kreditorun tələbini məhkəmə qaydasında mübahisələndirmək imkanı əldə edir. İcra qeydinin aparılmasına əsas götürülmüş tələbin mübahisələndirilməsi barədə məhkəmədən məlumat daxil olduğu halda notarius icra qeydinin aparılmasını təxirə salır.

İpotekanın dövlət qeydiyyatının ləğvinin xüsusiyyəti ondan ibarətdir ki, bu qeydiyyat ipoteka saxlayanın ərizəsi və ya məhkəmənin qərarı əsasında qeydiyyat orqanı tərəfindən ləğv edilə bilər. İpoteka qoyan ilə ipoteka saxlayanın arasında ipotekanın ləğvi haqqında mübahisə yarandığı halda maraqlı tərəf bununla bağlı məhkəməyə iddia vermək hüququna malikdir.

***Daxil KƏRİMOV,***
***hüquq üzrə fəlsəfə doktoru,***
***xüsusi notarius***

Əli Xəlilov – 90

# Ömrünü elmə həsr edən ziyalı

**Görkəmli geoloq-alim Əli Xəlilovun şəxsiyyəti təkcə elmi nailiyyətlər timsalı deyil, eyni zamanda, ən çətin sədləri keçən gücün örnəyi sayıla bilər. Onun mənalı və zəngin ömür yolu Azərbaycan elminin inkişafı və milli-mənəvi dəyərlərin qorunması ilə sıx bağlıdır.**

Həyatının 9-cu onilliyini başa vuran Əli müəllim 1934-cü il sentyabrın 15-də Azərbaycanın füsunkar guşələrindən biri olan Gədəbəy rayonunda, Şınıx mahalının İsalı kəndində kolxozçu ailəsində anadan olub. O, 6 yaşında 1-ci sinfə gedib və 16 yaşında Cayrəsullu orta məktəbini əla qiymətlərlə bitirib. Tanınmış həmyerlisi – akademik Firudin Köçərlinin məsləhəti ilə 1951-ci ildə Azərbaycan Dövlət Universitetinin geoloji coğrafiya fakültəsində yeni açılmış "Neft və qaz" şöbəsinə qəbul olunub və orada da yalnız əla qiymətlərlə oxuyub.



Universiteti bitirdikdən sonra Əli Xəlilov təyinatla Başqırdıstanın "İşimbayneft" mədənlər idarəsində əvvəlcə qazmaçı köməkçisi, sonra isə geoloq vəzifəsində çalışıb. O zaman Bakıda məzuniyyətdə olarkən təsadüfü bir görüş onun həyatında həlledici rol oynayıb. Elmlər Akademiyasının İdarə heyətinin binası yaxınlığında ünlü həmkarı – görkəmli alim Xudu Məmmədovla tanış olub və onun yolu ilə getmək istədiyini bildirib. Xudu müəllimin tövsiyəsi ilə daha 1 il Başqırdıstanda işlədikdən sonra Bakıya qayıdıb.

"Azneft"in baş geoloqu Baba Babazadənin qəbuluna düşən gənc Əlinin onunla söhbəti tutur və adlı-sanlı idarə rəhbərindən Başqırdıstandan köçürmə yolu ilə işə düzəltmək üçün məktub alır. Tezliklə o, "Azneft"in "Şirvanneft" mədənlər birliyində işə düzəlir. Daha sonra Əli Xəlilovu "Fiziki-kimyəvi və "Qeyri-üzvi kimya" (indiki Kataliz və qeyri-üzvi kimya İnstitutu) İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Heydər Əfəndiyevin dəstəyi ilə bu tədqiqat ocağının analitik laboratoriyasına elmi işçi vəzifəsinə götürürlər. Bir il işlədikdən sonra Əli müəllim aspiranturaya daxil olur və Moskva şəhərinə – SSRİ EA-nın "Analitik kimya və Geokimya" institutuna ezam edilir.

Beləliklə, aspiranturada Əli müəllimin həyatının və elmi fəaliyyətinin ən məzmunlu və ən çətin anları başlayır. Ona elmi mövzu kimi "Murmanita-Lomonosovita qrupu minerallarının rentgen quruluşlu tədqiqi" təklif olunur. Bu mövzunun seçilməsini həmin mineralları ilk dəfə Rusiyanın Xibin massivində tapan laboratoriya müdiri, geologiya-mineralogiya elmləri doktoru V.İ.Gerasimovski məsləhət görür. Çünki bu qrup mineralların Xibin massivinin geokimyası və mineralogiyasının öyrənilməsində xüsusi əhəmiyyəti vardı.

Əli Xəlilovun mövzu haqqında heç bir təsəvvürü yox idi. Sən demə, ondan əvvəl akademik N.V.Belovun və geologiya-mineralogiya elmləri doktoru V.İ.Semyonovun dediyinə görə, 6 laboratoriya bu mövzu üzərində işləyib və heç bir nəticə əldə etməyib. Bu qrup mineralların kristallik quruluşlarının tədqiqi ilə məşğul olan tədqiqatçıların uğursuzluqları Xudu müəllimə də məlum imiş. Lakin mineralların mükəmməl monokristallarının olmaması problemin həllini çətinləşdirib. Əli müəllimin səmərəli fəaliyyəti nəticəsində bu mineralların kristalik quruluşları açılıb.

Müdafiə zamanı gənc alimin əsas opponenti olan akademik N.V.Belov etiraf edib ki, "Əli Xəlilov çox mürəkkəb və maraqlı quruluşu olan mineralların "sirr"ini açmaqla bizim hamımızdan daha inadkar olduğunu sübut etdi". Elmi işin müdafiəsindən sonra, Moskva şəhərində daimi qeydiyyatı olmayan şəxslərə işlə təmin edilməyin qadağan olunmasına baxmayaraq, Elmi Şuranı aparan İnstitutun direktoru akademik, Lenin mükafatı laureatı A.P.Vinoqradov Əli müəllimi yanına çağırıb deyir: "Mən istəyirəm ki, sən bizim institutda qalıb işləyəsən. O ki qaldı qeydiyyat probleminə, mən özüm prezident M.V.Keldışla danışaram". Beləcə, onu Moskvada saxlayırlar və institutun yeni təşkil olunmuş "Kosmik tədqiqatlar" şöbəsinə işə qəbul edirlər.

Lakin, onun bacarıqlı elm xadimi kimi daim elmi fəaliyyətini Moskvada davam etdirməsinə nə ustadı Xudu Məmmədov, nə də Heydər Əfəndiyev razı olmur və qabiliyyətli gəncə elmi fəaliyyətini Azərbaycanda davam etdirməsini məsləhət görürlər. Vətənə qayıtdıqdan sonra Əli müəllim BDU-nun prorektoru Q.Sultanovun təklifi ilə universitetin "İzotop" Elmi-tədqiqat şöbəsinin rəhbəri təyin olunur.

Müəyyən vaxt keçdikdən sonra onu MEA-nın xüsusi sərəncamı ilə Neft-Kimya Prosesləri İnstitutuna köçürürlər. Orada o, Rentgen struktur analiz laboratoriyası yaradır. Lakin inadkar gəncin arzusu Moskvada dünya şöhrətli "Analitik kimya və Geokimya" İnstitutunda gördüyü və işlədiyi laboratoriyanın bənzərini yaratmaq idi. Xudu müəllimlə məsləhətləşərək qərara gəlirlər ki, bu laboratoriyanı MEA-nın Geologiya İnstitutunda yaratsınlar. Bu məsələ tezliklə akademiyanın Rəyasət heyətinin qərarı ilə həllini tapır.

Daha sonra, 1980-cı ildə Əlcəzair Xalq Demokratik Respublikasına ezam olunan Əli müəllim orada "Elmi-tədqiqat" institutunda işləməyə başlayır. Bir ildən sonra onu sovet mütəxəssislərinin rəhbəri təyin edirlər. Əlcəzairdə çalışdığı müddətdə qazandığı elmi və təşkilatçılıq nailiyyətlərinə görə, SSRİ Neft Sənayesi Nazirliyinin fəxri fərmanı ilə təltif olunur. 5 illik iş müqaviləsi bitdikdən sonra ona təklif edilir ki, Əlcəzairdə daimi qalıb işləsin. Amma Əli müəllim razı olmayıb Vətənə qayıdır və Geologiya İnstitutunda elmi fəaliyyətini davam etdirir. Eyni zamanda, Memarlıq və Tikinti Materialları Universitetində, Müdafiə Nazirliyində, Məhkəmə Ekspertizası və kriminalistika İnstitutunda, "Keramika" MMC-də çalışır.

Əli Xəlilov 2001-ci ildə onun təşəbbüsü ilə yaradılmış "Diatomit" Elmi İstehsalat Birliyinin (EİB) (hazırkı "Azbentonit" MMC) təsisçilərindən biri olub və EİB-nin prezidenti işləyib. Orada ən müasir cihazlarla təchiz olunmuş "Analitik mərkəz və texnoloji sınaq" laboratoriyası yaradıb. Bu cihazların köməyi ilə qeyri-filiz mineral xammalların yüksək səviyyədə analizi ilə yanaşı, ilk dəfə Azərbaycan ərazisində radioaktiv element olan uranın və bir sıra nadir elementlərin (osmium, sürmə, selen, vanadium, molibden), dəmir filizi üçün qırmızı boya xammalı olan siderit, Qobustan rayonu ərazisində seolit (klinoptilolit), Xızı rayonu ərazisində Opal-kristobalit yataqlarının aşkar edib.

Əli müəllim fəxrlə xatırlayır ki,"Azbentonit" MMC-nin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmiş və bu istehsalat birliyinin fəaliyyəti ilə yaxından tanış olmuşdur.

Son vaxtlar Əli müəllim qısa zamanda opoka, uran, Mn-li siderit, vulkan külü, seolit yataqları, Şəmkir nantronitin və s. təzahürünü aşkar edib. Hazırda o, bu mineral xammallarının tətbiq sahəsinin tədqiqi və eyni zamanda Bəylər bentonit yatağının mineralogiya, kristallokimyası və ondan nanomaterialların alınma texnologiyasının tədqiqi ilə məşğul olur.

O, dünyada ilk dəfə Böyük Qafqazın Cənubi Şərqində (Xızının) qeyri adi teksturaya malik Bentonit gil yatağını kəşf edib. Adətən Bentonit gilləri tekstur mineralına görə laylı olurlar, lakin kəşf olunmuş yataq gil şar formaları teksturalıdır. Bunun səbəbi isə şar formalı gilin mərkəzində şarstrukturalı $SiO_2$-in olmasıdır. Əli müəllim həm də ilk dəfə həmin zonada bir sıra nadir və radioaktiv elementlərin (o cümlədən U(uran) və Os (osmium) yatağını da kəşf etmişdir.

Əli müəllim, təxminən, 85-ə qədər elmi məqalənin müəllifir. Bir sıra Beynəlxalq konfranslarda elmi məruzə ilə çıxış etmişdir. Elmi fəaliyyətinin ən çox diqqəti cəlb edən cəhəti onun nəzəri elmlə tətbiqi elmi birləşdirmək bacarığıdır. Bu baxımdan hesab edir ki, onun ən böyük elmi nailiyyətləri mükəmməl monokristalları olmayan bir sıra Ti-silikat minerallarının kristallik quruluşlarının eksperimental üsulla açılması və 3 mürəkkəb kristallik quruluşa malik İnnelit, Yosumurait, Erriksonit minarellarının kimyəvi müqayisə üsulu ilə quruluşlarının açılması olub. Sonradan onun verdiyi nəzəri quruluşları yapon və rus alimləri təsdiqləyiblər. Görkəmli alimin 7 elmi işi beynəlxalq standartlara daxil olmşdur.

Onun elmi tədqiqat işlərinin ən təqdirəlayiq olanı Azərbaycanın müxtəlif elmi idarələrinin müasir avadanlıqlarla təchiz olunması və laboratoriyaların yaradılıb tərəqqiyə xidmət etməsidir.

***Ə.ƏLİYEV***
***XQ***

Hidayət Orucov – 80

# Qədirbilənlik zirvəsindən görünənlər

**Azərbaycanın görkəmli şairi, dramaturq, nasir, publisist, ictimai-siyasi və dövlət xadimi Hidayət Orucov bu ayın əvvəlində ömrünün 80-ci ilini başa vurdu. 1944-cü ildə Qərbi Azərbaycanın Meğri rayonunun Maralzəmi kəndində dünyaya göz açan körpəyə ad qoyanda "doğru yolda olmaq, haqq yolu tapmaq və ya göstərmək" mənasını verən Hidayət ismini seçiblər. Soydaşımız ağlı kəsəndən adının ehtiva etdiyi missiyaya sadiq olub.**



Erkən yaşlarından sözün sehrinə düşən, onun təəssübünü çəkən Hidayət Orucov şeirə, sənətə ömürlük bağlanıb. Şair, müəllim, məmur, diplomat kimi çalışdığı bütün sahələrdə hər zaman yalanın, riyanın, üzgörənliyin "oruc"unu tutub. Özünü əsl yaradıcı şəxsiyyət, səmimi duyğulu ziyalı kimi tanıdıb.

Hidayət Orucov 80 illik ömrünün ilk yarısını Qərbi Azərbaycanda yaşayıb. İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Ermənistan Yazıçılar İttifaqının Azərbaycan Ədəbiyyatı Şurasının rəhbəri olub. İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində XIX–XX əsr Azərbaycan ədəbiyyatından dərs deyib. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həmin dövrdə təkcə İrəvanın deyil, indi Ermənistan adlandırılan qədim Oğuz ellərinin milli ədəbi-mədəni mühitində canlanma yaranmış, Qərbi Azərbaycanda onlarla şair və nasirlərin kitabları İrəvanda işıq üzü görüb, "Ədəbi Ermənistan" məcmuəsi nəşr olunub.

Ədibin ömrünün 2-ci 40 ili Azərbaycanla bağlıdır. 1984-cü ildə Bakıya köçən şair əvvəlcə "Gənclik" nəşriyyatının baş redaktor müavini, 1986–1992-ci illərdə baş redaktoru vəzifələrində işləyib. Qeyd edək ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı təcavüzü, soydaşlarımızın məruz qaldığı deportasiya və soyqırımı siyasətinə etiraz olaraq, Hidayət Orucov bundan 10 il əvvəl layiq görülmüş olduğu "Ermənistan SSR Əməkdar mədəniyyət xadimi" fəxri adından imtina edib. Ali idarəçilikdə dövlət müşaviri, Dini İşlər üzrə Dövlət Komitəsi sədri, səfir işlədiyi dövrlərdə bu yurdsevər ziyalının həyata keçirdiyi çoxsaylı tədbirlər yaddaqalan olub. Bununla yanaşı, o, bədii yaradıcılıqdan uzaq düşməyib.

Yazıçı Hidayət 40-dan artıq kitabın müəllifidir. "Nəyim var" adlı ilk mətbu şeirindən, "Məni səsləyəndə" adlı ilk şeir və poemalar kitabından üzübəri yazıb oxuculara ərməğan etdiyi bütün əsərləri azərbaycançılığa, insanpərvərliyə, humanizmə xidmət edir. Onun 8 cildlik "Seçilmiş əsərləri"ndə çoxillik və çoxşaxəli yaradıcılığı – poeziyası, nəsri, dramaturgiyası, publisistikası və s. əhatə olunub.

Diplomat Hidayət Orucov qonşu ölkələrdə, Mərkəzi Asiyada da geniş tanınan qələm sahibi və nüfuzlu ictimai-siyasi xadimdir. Xarici dillərdə nəşr olunmuş "Mən belə yaşayıram", "Nura qovuşacağıq" (rus dilində), "İntizar", "Sənsiz" (gürcü dilində), "Sabaha çox var" (Dağıstan dillərində), "Dağlar nəğməsi" (özbək dilində) və s. kitabları ölkəmizdən kənarda maraqla qarşılanıb. Əsərləri 30-dan çox dilə çevrilib.

Hidayət Orucov 10 il Azərbaycan Respublikasının qardaş Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri olub. O, bu ölkədə səmərəli işi ilə tanınıb, özünə çoxlu dost qazanıb, Çingiz Aytmatov Beynəlxalq İctimai Akademiyasının akademiki adına layiq görülüb. Yaradıcılığı geniş dairədə əks-səda doğurmuş şairin anadan olmasının 80 illiyi münasibətilə ünvanına çoxsaylı təbriklər gəlib. "Burdan bir atlı keçdi" adlı əl-əl gəzən xatirələr kitabı yazmış Hidayətin ömründən-günündən keçən atlıların səmimi ürək sözləri onda yazıb-yaratmaq, insanlara gərəkli olmaq həvəsini daha da artırır.

Gürcüstan Yazıçılar İttifaqının sədri Makvala Qonaşvili hələ 2002-ci ildə ölkəsinin "Ləyaqət" ordeni ilə təltif olunmuş yubilyara yazır: "Hər bir gününüz Vətənlə və sülhün hakim olduğu dünya ilə bağlı düşüncələrlə müşayiət olunur. Biz həmkarlarınız üçün Siz müdriklik, istedad və səxavət rəmzisiniz. Siz Gürcüstanın əsl dostu və gürcü yazıçıların ən əziz həmkarısınız".

Gürcüstanlı qələm dostuna cavabında Hidayət müəllim təbrikə görə minnətdarlığını bildirərək, qeyd edir ki, onun Gürcüstana məhəbbəti dahi Rustavelinin qəhrəmanlarından, "Suliko" mahnısından, gürcü filmlərindən və futbolundan başlayıb, sonralar bu ölkəyə gedib-gəldikcə, həmkarlarını, qonşu xalqı tanıdıqca aydan-aya, ildən-ilə böyüyüb: "Mən Azərbaycan Respublikasının Milli Siyasət Məsələləri Üzrə Dövlət müşaviri kimi o vaxtlar bütün problemlərin həlli proseslərinin içində olmuşam və görülən böyük işləri bu günün özündə də xoş təəssüratla xatırlayıram".

Hidayət Orucov 1998-ci ildə Bakıda, Gürcüstanın qardaş hədiyyəsi – At heykəlinin açılışında Eduard Şevardnadzenin söylədiyi bu fikrindən hədsiz qürur duyduğunu da yada salır: "Xalqlarımızın layiqli və görkəmli oğullarının şəxsi dostluğu da hamıya məlumdur. M.F.Axundov ilə Akaki Seretelinin dostluq münasibətlərini qeyd etmək yerinə düşərdi. Bu ənənə xalqlarımızın ən ağır dövrlərində də davam etdirilmişdir. Səməd Vurğunla Georgi Leonidze, Hidayət Orucovla Quram Pançikidze bu gözəl ənənənin parlaq davamçılarıdır".

Dağıstan Respublikası Yazıçılar İttifaqı İdarə Heyətinin sədri, Dağıstanın xalq şairi Marina Əhmədova isə yubiley təbriknaməsində yazır ki, Hidayət Orucovun tərcümeyi-halı doğma diyara xidmətin parlaq nümunəsidir: "Azərbaycan Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri, Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət müşaviri, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin sədri olduğunuz zaman Azərbaycanla Rusiya Federasiyası və əlbəttə ki, ölkənizin yaxın qonşusu kimi Dağıstan Respublikası ilə dövlətlərarası münasibətlərin və dostluğun möhkəmləndirilməsi işinə böyük töhfələr vermisiniz. Siz fəxri qonaq kimi dəfələrlə Dağıstanda olmusunuz və hər bir gəlişiniz əhəmiyyətli tədbirlərlə bağlı olduğundan respublika üçün böyük hadisəyə çevrilmişdir. Əməyinizə və bizim siyasət və ədəbiyyatımızın ağsaqqalları Məhəmmədəli Məhəmmədov və Rəsul Həmzətovla çoxillik dostluğunuza görə Dağıstan Sizə minnətdardır".

Xatırladaq ki, Dağıstanın xalq şairi Rəsul Həmzətov da vaxtilə onun haqqında yüksək fikirlər söyləyərək deyib: "Hidayətin poeziyasıyla da, onun özüylə də hər görüş mənim qəlbimin milli bayramıdır".

Marina Əhmədovaya cavab məktubunda razılığını bildirən Hidayət Orucov Dağıstanla bağlı ən ülvi duyğularını dilə gətirir: "Mənim əsərlərim çox dillərə çevrilib, nəşr olunub. Ancaq Dağıstanın 13 dövlət dilində (o sırada – Azərbaycan dilində) dünya işığına çıxan "Sabaha çox var" şeirlər toplum tərtibat baxımından nadir özünəməxsusluğu, bənzərsizliyi ilə seçilir".

Ömrünün müdriklik çağını yaşayan müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ictimai xadim, Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli Hidayət Orucovun ünvanına gələn təbriklər və yubilyarın cavabları əsl mədəniyyətlərarası dialoq nümunələri kimi də dəyərləndirmək olar.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Gəncədə Özbək dili və Mədəniyyəti Mərkəzi açılıb



**Gəncə şəhərində "Türk dünyasının Azərbaycan və Özbəkistan modeli" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Gəncə Şəhər İcra Hakimiyyəti, AMEA Ədəbiyyat İnstitutu, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetinin təşkil etdiyi elmi məclisdə Azərbaycan–Özbəkistan qardaşlığı və dostluğundan geniş söz açılıb. Məruzə və çıxışlarda iki qardaş ölkə arasında münasibətlərin, strateji tərəfdaşlığın Türk dünyasının siyasi-mənəvi birliyinə töhfə olduğu diqqətə çatdırılıb, ədəbi-mədəni əlaqələrin tarixinə və müasir durumuna nəzər salınıb.

Müzakirələr zamanı Özbəkistanda dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərinin özbək dilində çap olunması, onun ardıcıllarından olan böyük özbək şairi Əlişir Nəvainin əsərlərinin Azərbaycanda tərcümə edilərək geniş oxucu kütləsinə çatdırılması hər iki ölkənin mədəni həyatında mühüm hadisə adlandırılıb.

Elmi məclis çərçivəsində AMEA-nın Gəncə bölməsində Əlişir Nəvai adına Özbək dili və Mədəniyyəti Mərkəzi açılıb. Burada yaradılmış Azərbaycan və Özbəkistan xalqlarının qardaşlıq əlaqələrini əks etdirən guşələrdə müxtəlif eksponatlar, Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılığına aid nəşrlər sərgilənir.



Konfrans iştirakçıları Gəncə şəhərinin tarixi abidələri ilə də tanış olublar.

*XQ*

# Azərbaycan Antalya Köçəri Festivalında

**Türkiyədə keçirilən III Beynəlxalq Antalya Köçəri Türkmən Festivalında türkdilli xalqların mədəniyyətləri və sənətkarlıq ənənələri təqdim olunur. Beynəlxalq törəndə ölkəmizi Türkiyədəki səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi təmsil edir.**



Mədəniyyət Nazirliyindən XQ-yə verilən məlumatda bildirilir ki, sentyabrın 15-dək davam edəcək festivala 20-dək ölkə qatılıb. Burada türkdilli dövlətlərlə yanaşı, digər ölkələrin təmsilçiləri də iştirak edirlər. Şənliklərdə boyu türk dünyasının müxtəlif guşələrindən yerli musiqi və rəqs proqramları təqdim olunacaq, milli çadırlarda türkdilli xalqlar öz mədəniyyətlərini nümayiş etdirəcəklər.

Əsrlərdir, Anadolunun xalq həyatını formalaşdıran köçəri həyat tərzi türk mədəniyyətinin mühüm bir hissəsini təşkil edib. Antalya bu qədim mədəniyyətin ən parlaq nümunələrinin yaşadıldığı şəhərlərdən biridir. Festivalın əsas məqsədi köçəri mədəniyyətinin özəlliyini gələcək nəsillərə əhatəli şəkildə çatdırmaqdır. Festival Antalyanın bənzərsiz təbii gözəllikləri ilə əhatə olunmuş məkanlardan birində təşkil olunub. Azərbaycan çadırında ölkəmizin milli mədəniyyəti, incəsənəti, əl işləri geniş şəkildə sərgilənir, qonaqlara milli şirniyyatımız təqdim olunur. Konsert proqramında Xalq artisti Azərin, Mədəniyyət Mərkəzinin solisti Vüsalə Əsgərova, tar ifaçısı Pərviz Musayev, mərkəzin "Xəzər" Xalq Rəqsləri Ansamblı milli musiqi nümunələrimizi ifa edəcəklər.

Festivalda ustaların unudulmaqda olan əl işləri də sərgilənəcək, ənənəvi türk mətbəxi nümunələri təqdim olunacaq, idman yarışları da keçiriləcək. Festivalda çox sayda yerli və xarici turist, ümumilikdə 200 mindən çox insanın iştirakı gözlənilir.

*Ceyhun ALIŞLI*
*XQ*

# Özbəkistanın Xivə şəhərində "Şuşa günləri"



**Özbəkistanın qədim Xivə şəhərinin və Şuşanın qardaşlaşması münasibəti ilə Xivədə "Şuşa günləri" keçirilib.**

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşəbbüsü ilə keçirilən tədbirdən əvvəl Şuşa rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov və Xivə şəhərinin hakimi Temur Davletov arasında görüş reallaşıb.

Görüşdə qardaşlaşmış şəhərlər olan Şuşa və Xivə arasında münasibətlərin daha da möhkəmlənməsi, elm, mədəniyyət, yaradıcılıq sahəsində əlaqələrin inkişafı, təcrübə mübadiləsi barədə müzakirələr aparılıb.

Sonra Aydın Kərimov, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov və xüsusi nümayəndəliyin baş məsləhətçisi Elşad İskəndərovun iştirakı ilə Urgənc Dövlət Universitetində rektor Bəhram Abdullayevlə görüş keçirilib.

Görüşdə 1938-1940-cı illərdə bu universitetdə müəllim kimi fəaliyyət göstərən yazıçı, ictimai xadim Yusif Vəzir Çəmənzəminli adına Azərbaycan Mədəniyyəti və Ədəbiyyatı Mərkəzinin yaradılması haqqında məlumat verilib. Aydın Kərimov qədim Şuşa şəhərində aparılan abadlıq, quruculuq, bərpa və yenidənqurma işləri haqqında danışıb.

Sonda Y.V.Çəmənzəminlinin şuşalı rəssam tərəfindən çəkilən portreti Mərkəzə hədiyyə edilib. "Şuşa günləri" "İçən Qala" kompleksində maraqlı tədbirlərlə davam edib.

"Şuşa - dünən və bu gün" adlı fotosərgidə Şuşanın tarixi keçmişini, füsunkar təbiətini, işğaldan əvvəl və sonrakı görkəmini, bərpa-quruculuq, yenidənqurma işlərini özündə əks etdirən müxtəlif fotolar sərgilənib, hər biri haqqında ətraflı məlumat verilib.

Tədbirdə təqdim edilən XVIII-XIX əsrlərə aid "Qarabağ milli geyimləri" sərgisi maraqla qarşılanıb. Kolleksiyada əsasən Qarabağın zadəgan xanımlarının geyimləri və kişi libasları yer tutub.

Özbəkistanda olan müxtəlif ölkələrin səfirləri, Xivə şəhərinin hakimi Temur Davletov, Aydın Kərimov, Tural Novruzov, Elşad İskəndərov, nümayəndəliyin və qoruq əməkdaşlarının iştirak etdikləri tədbirdə Azərbaycanın Xalq və Əməkdar artistlərinin ifasında Qarabağı, Şuşanı tərənnüm edən mahnılardan ibarət möhtəşəm konsert proqramı reallaşıb, müğənnilərin çıxışları alqışlarla qarşılanıb. Azərbaycan Dövlət Rəqs Ansamblının təqdim etdiyi rəqs nümunələri taamaşaçılara xoş ovqat bəxş edib.

Qeyd edək ki, 2023-cü il fevralın 24-dən etibarən Şuşa ilə Xivə şəhəri qardaşlaşmış şəhərlərdir.

*Qulu KƏNGƏRLİ*
*XQ-nin xüsusi müxbiri*

**Xivə**

# Salyan qalib tələbələri alqışlayıb

**Salyan Rayon İcra Hakimiyyətində ali məktəblərə qəbul imtahanlarında 600-dən yuxarı bal toplamış abituriyentlərlə görüş keçirilib.**



Tələbə adını qazanmış gənclərin sevincinə şərik çıxan rayon rəsmiləri, ağsaqqallar və ziyalılar onlara ən xoş atrzularını bildiriblər. İcra hakimiyyətinin başçısı Sevindik Hətəmov çıxışında qeyd edib ki, ölkəmizdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən milli təhsil quruculuğu və islahatları öz töhfəsini verməkdədir. Yeni məktəb binalarının inşası, təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsi, informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi təhsilin keyfiyyətinə də öz müsbət təsirini göstərir. Bu il Salyanda orta məktəbləri bitirənlərdən 736 nəfəri ali məktəblərə qəbul üçün sənəd verib və onlardan 519 nəfəri republikamızın, 15 nəfəri Türkiyə, Macarıstan, Almaniya və Latviyanın ali məktəblərinə qəbul olunub. Rayon rəhbəri bilik "marafon"unun qaliblərini təbrik edib.

Görüşdə qeyd olunub ki, rayon üzrə ən yüksək nəticəni şəhər 1 saylı məktəb-liseyin məzunu Zenfira Nəsirova göstərib – 683.8 bal. Zenfira yeni təsis edilən Qarabağ Universitetinin hüquq fakultəsinə qəbul olub. Yeri gəlmişkən, Salyan rayonundan daha 16 gənc Qarabağ Universitetinin tələbəsi adını qazanıb.

Şirvan–Salyan Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimov bildirib ki, ali məktəblərə qəbul olanlardan 32 nəfəri 600-dən yuxarı bal toplayıb. Bu, ötən illərlə müqayisədə xeyli böyük rəqəmdir. Digər çıxış edənlər tələbə adını qazanan gəncləri təbrik edib, onlara savadlı, bilikli, bacarıqlı gənc kadr kimi müstəqil Azərbaycanın inkişafı, tərəqqisi naminə görülən işlərdə layiqli töhfələr vermələrini arzulayıblar.

Tədbirin sonunda yüksək bal toplamış abituriyentlərə mükafatlar verilib.

*Ə.ƏLİYEV*
*XQ*

# “Formula – 1”: “Kral yarışları” Azərbaycan orbitində




(əvvəli 1-ci səhifədə)

Sadaladığımız bütün mötəbər beynəlxalq idman tədbirləri ölkəmizin nüfuzunun daha da artmasına səbəb olmaqla yanaşı, müsbət iqtisadi təsir göstərməklə də yadda qaldı. Xüsusilə də “Formula – 1” yarışlarının ölkəmizdə keçirilməsi iqtisadiyyatın xidmət sektoruna təsirləri ilə fərqlənir. İlk növbədə “kral yarışları” keçirilən ölkə yaxşı mənada turist hücumuna məruz qalır. Məsələn, 2019-cu ildə Bakıda keçirilmiş “Formula – 1” yarışı çərçivəsində Azərbaycana 4 ölkədən 75 min turist gəlmişdi. Buna görə də, əbəs yerə demirlər ki, idman təkcə fiziki fəaliyyət və rəqabət deyil, həm də turizm sənayesinin inkişafı üçün güclü mühərrikdir.

İdman tədbirləri keçirildiyi şəhərlərdə infrastrukturun və turizm obyektlərinin inkişafına təkan verir. Turistləri cəlb etmək üçün yeni otellər, restoranlar, mağazalar, əyləncə obyektləri yaradılır. Bu, rayonun iqtisadi inkişafına, iş yerlərinin açılmasına öz töhfəsini verir. İdman tədbirləri bir yerin populyarlığını əhəmiyyətli dərəcədə artırır və turistlərin diqqətini cəlb edir. “Formula – 1” kimi tədbirlərə evsahibliyi edən şəhərlər və ölkələr öz mədəniyyətlərini, tarixini və görməli yerlərini dünya ictimaiyyətinə təqdim etmək imkanı qazanırlar. Bu, turist axınının artmasına və iqtisadi göstəricilərin artmasına səbəb olur. Eyni zamanda, “Formula – 1” yarışlarının multiplikativ effekti çox böyükdür. Burada minlərlə əcnəbi qonaq pul xərcləyir və iqtisadi baxımdan səmərəlidir.

Bundan başqa, idman tədbirləri müxtəlif ölkələr və mədəniyyətlər arasında sosial qarşılıqlı əlaqəni və mədəni mübadiləni təşviq edir. İdman tədbirlərinə gələn turistlər dünyanın müxtəlif yerlərindən olan insanlarla tanış olmaq və onlarla ünsiyyət qurmaq, təcrübə mübadiləsi aparmaq və yeni dostluqlar yaratmaq imkanı əldə edirlər. “Formula – 1” yarışlarını izləmək üçün Bakıya minlərlə turust gəlir və ölkəmizdə qaldığı müddətdə təkcə pilotların amansız mübarizəsini izləmir, həm də zəngin mədəniyyətimin inciləri ilə tanış olur, insanlarımızla ünsiyyət qurur, xalqımızın qonaqpərvərliyini hiss edir. İdman həqiqətən turistləri cəlb edən və unudulmaz təcrübələr yaradan güclü amildir.

Statistik rəqəmlər belə deməyə əsas verir. Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin məlumatına görə, 2016-2019-cu illər ərzində Bakıda “Formula – 1” yarışlarının keçirilməsinin ümumi iqtisadi effekti




506,3 milyon dollar (860 milyon manat) təşkil etmişdi. Bu məbləğə həm birbaşa, həm də dolayı gəlirlər daxildir. Onların 24,5 faizi turizm və nəqliyyat sektorlarının payına düşmüşdü ki, bu da yarış həftəsonları xidməti ilə birbaşa bağlıdır. 2023-cü il Qran-prisində bilet satışı yüksək olmuşdu. Satışa çıxarılan biletlərin 90 faizi sahibini tapmışdı. Ən əhəmiyyətlisi bu olmuşdu ki, satılmış biletlərin 70 faizini əcnəbilər almışdılar.

Eyni zamanda, “Formula – 1” ölkənin tanıdılması üçün əla platformadır. Təkcə onu qeyd etmək kifayətdir ki, “kral yarışları”nın dünya üzrə auditoriyası 500 milyon nəfəri ötür. Bu isə bir ölkənin güclü reklam olunması deməkdir. Bunun nəticəsidir ki, “Formula – 1” azarkeşləri arasında keçirilən sorğuda respondentlərin 74 faizi “Formula – 1” Azərbaycan Qran-prisinin davamlı keçirilməsinin tərəfdarı olduğunu açıqlamışdı. Onların 73 faizi Bakı Şəhər Halqasının “Formula – 1” yarışının təşkili üçün möhtəşəm yer olduğunu, 74 faizi onun ötmə manevri üçün ideal imkan yaratdığını bildirmişdi. Ümumilikdə respondentlərin 62 faizi Bakı yarışının “Formula – 1” təqvimində ən sevimli yarışlardan biri olduğunu vurğulamışdı.

Heç kimə sirr deyil ki, indi ən inkişaf etmiş, böyük sənaye potensialına və kənd təsərrüfatına malik ölkələr hər bir turist üçün mübarizə aparır. İnkişaf etmiş ölkələrdə, xüsusən də attraksionların olduğu ölkələrdə turistlərin sayı on milyonlara çatır. Azərbaycan da turizmin inkişafı üçün əməli tədbirlər atır. “Formula – 1” yarışlarının keçirilməsi də bu sektorun inkişafında böyük rol oynayır. Bundan başqa, “Formula – 1” yarışın təşkilində 1500-ə yaxın əməkdaş, 2000 könüllü və 1400-dən çox marşal iştirak edir. Həmçinin Bakı dairəvi avtomobil yolunun yaradılması zamanı ən son texniki yeniliklərdən istifadə olunur, yol infrastrukturunda müsbət dəyişikliklər, təhlükəsizlik və ətraf mühitin mühafizəsi məsələləri müzakirə edilir, diqqətdə saxlanılır.

Bir sözlə, “Formula – 1” kimi möhtəşəm yarışın Bakıda keçirilməsi əldə olunan uğurlar sırasında mühüm hadisədir. Sevindirici haldır ki, ölkəmizdə reallaşan Azərbaycan Qran-prisi bütün dünyada avtoidman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir və bu onu göstərir ki, Azərbaycan dünyanın ən baxımlı sürət yarışına evsahibliyi etməklə artıq öz təşkilatçılıq bacarığını ortaya qoya bilmişdir. Ötən illərdə olduğu kimi, 2024 “Formula – 1” Azərbaycan Qran-prisinin də trekdə və trekdən kənardakı möhtəşəm məqamları ilə hamıya, xüsusilə də sürətsevənlərə unudulmaz həyəcanlı anlar yaşadacağı şübhə doğurmur.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**Redaksiyamızın qonaqları**

# İkiqat Paralimpiya çempionu “Xalq qəzeti”ndə

**Paris Yay Paralimpiya Oyunlarında T13 kateqoriyasında rəqiblərindən güclü olan, qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə yüksələn Orxan Aslanovun “Xalq qəzeti” redaksiyasına gəlişi qalib idmançı ilə kollektivin təmasına imkan yaratdı. əməlli-başlı bayram ovqatı yaratdı. Milyonların izlədiyi mötəbər yarışda çempion adı qazanmış soydaşımızla səmimi söhbət hamı üçün xoş oldu.**



**“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov Orxan Aslanovu Paris Paralimpiadasında qazandığı möhtəşəm qələbə münasibətilə təbrik etdi. O qeyd etdi ki, paralimpiyaçılarımız Parisdə böyük uğurlar qazanmaqla Azərbaycan bayrağını yüksəklərdə dalğalandırıblar. Baş redaktor sonra dedi:**

– Bu böyük nailiyyət xalqımızı sevindirir. İdman ölkəsi olan Azərbaycan bu qələbəyə layiqdir. Bu gün həyatımızın bütün sahələrində, o cümlədən idmanda əldə etdiyimiz uğurlar dövlətin idman və siyasətinin məntiqi nəticəsidir.

**Orxan Aslanov xoş sözlərə və səmimi duyğulara görə, media kollektivinə minnətdarlıq etdi. İkiqat Paralimpiya çempionu yarış vaxtı həm qəzetimizdə haqqında yazılan yazıları oxuduğunu və bunun onu yüksək nailiyyətlərə ruhlandırdığını bildirdi:**

– Biz idmançılara ölkə rəhbərliyi və ictimaiyyət böyük dəstək verir. Bu da bizə əlavə mənəvi güc gətirir. Özüm barədə yazılanları oxuduqca sanki qanadlanıram. Xalqımızın, məşqçi və mütəxəssislərin etimadını doğrultduğum üçün sevinirəm.



Qəzetin rəhbəri Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif edilməsinə görə də Orxan Aslanovu təbrik etdi.

Görüşdə Tokio və Paris paralimpiadalarının qalibi Orxan Aslanovun və digər paralimpiyaçılarımızın əldə etdikləri nailiyyətlərlərdən ətraflı söhbət açıldı. Qeyd edildi ki, komandamızın çıxışı çox uğurlu olub. Yığmamız yarışda 18 idmançı ilə təmsil olunub və 11 medal qazanıb. Ümumi medal sıralamasında Azərbaycan 28-ci sırada qərarlaşıb.

“Şöhrət” ordeni ilə təltif edilməyim isə mənim üçün ikiqat sevindirici oldu. Belə bir yüksək mükafata layiq görüldüyüm üçün qürur hissi keçirirəm. İdmana, idmançılara diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm.

Qalib idmançıdan qəzetimiz üçün aldığımız geniş müsahibə növbəti saylarımızda oxuculara təqdim ediləcək.

***L.AZAD***
***XQ***

## Şahmat Olimpiadası: Kişilər növbəti dəfə qalib gəliblər

**Budapeştdə təşkil edilən 45-ci Ümumdünya Şahmat Olimpiadasında 3-cü tur başa çatıb.**



Ölkəmizin kişilərdən ibarət yığması 3-cü turda Moldova komandasını məğlub edib: 3-1. Aydın Süleymanlı və Şəhriyar Məmmədyarov qələbə qazanıb, Nicat Abasovla Məhəmməd Muradlı heç-heçə oynayıb.

Qadınlardan ibarət Azərbaycan millisi isə Argentina ilə bərabərə qalıb. Günay Məmmədzadə və Xanım Balacayeva turu heç-heçə başa vurub. Gülnar Məmmədova qələbə qazandığı halda, Ülviyyə Fətəliyeva məğlub olub.

***XQ***

**Sağlamlıq**

## Soğan qabığı çayının faydaları

**Soğanın özü kimi qabığı da, ondan hazırlanan çay da insan orqanizmi üçün xeyirlidir. Mütəxəssislər bununla bağlı bildirirlər ki, soğan qabığından hazırlanmış çay immuniteti gücləndirir, həzmi normallaşdırır, artıq yağları əridir.**

Bundan başqa, soğan qabığından hazırlanmış çaydan xərçəng xəstəliyinin də müalicəsində istifadə edilir. Həmin çay, eyni zamanda, astma xəstəliyində qəbul edildikdə boğulmaların sayını və müddətini azaldır, maddələr mübadiləsini sürətləndirir.

Kardioloqlar onun infarkt riskini azaltdığını bildirirlər. Çay, həm də soyuqdəymə zamanı təsirlidir. Soğan çayını hazırlamaq üçün soğanın qabıqları ayrılır və bir kasanın içinə qoyulur. Sonra onun üzərinə 200 millilitr qaynadılmış isti su əlavə edilir. Kasanın üstü örtülür. 15 dəqiqədən sonra



dəmləməni içmək olar. Bu qabıqları qara və yaşıl çay ilə birlikdə də dəmləmək olar.

Mütəxəssislər soğan çayının təsirini artırmaq üçün onu hər səhər yeməkdən yarım saat öncə içməyi tövsiyə edirlər.

***Z.HÜSEYNLİ***
***XQ***


# “Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının

*Balansındakı bəzi əmlakların (aktivlərin) satışa çıxarılması barədə*

# ELAN

**I. Satılacaq əmlaklar barədə məlumat:**

| S/n | Növü | Ünvanı | Sayı (ədəd) | Satışa çıxan əmlakların hər birinin sahəsi (kv.m) | Yüklülük vəziyyəti | Əmlakların satış dəyəri (manatla) |
|---|---|---|---|---|---|---|
| 1 | Qeyri- yaşayış sahələri | Abşeron rayonu, Xırdalan şəhəri, Bakı-Sumqayıt şossesi, 7-ci km, “Abşeron Gənclər şəhərciyi” yaşayış kompleksi. | [illegible] | [illegible] - 37.5 | Yüklü deyil | 19500,0 - 70000,0 |

**Ərizə və təkliflər sifarişli məktub göndərməklə və ya şəxsən (və ya səlahiyyətli nümayəndə vasitəsi ilə) təqdim etməklə rəsmiləşdirilir:** “Aqrarkredit” QSC-nin baş ofisi, AZ1006, Azərbaycan Respublikası, Bakı şəhəri, Qədirli küçəsi 125.

**Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydası və müddəti:**

“Aqrarkredit” QSC-nin baş ofisi- Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda yerləşən inzibati binada, həftənin 3-cü və 5-ci günləri.

**Əlaqələndirici şəxs -** Şahin Seyidov. Telefon – 050-235-99-90.



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının inzibati binasında dam örtüyünün vurulması xidmətlərinin satın alınması (mal- material və işçi qüvvəsi daxil olmaqla) məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il sentyabrın 17-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 200 (30604) 14 sentyabr 2024-cü il, şənbə

# Əcnəbi izləyicilərin ilkin təəssüratı

**Artıq ikinci gündür ki, paytaxtımızda "Formula-1"-ə start verilib. Dünyamiqyaslı belə yarışların keçirilməsi ölkəmizə yeni turist axını yaradır.**

Əvvəlki illərlə müqayisədə çoxsaylı ölkələrdən əcnəbi idman azarkeşləri yarışları daha yaxından izləmək üçün Bakıya üz tutublar. Onların arasında yaxın Türkiyə, Rusiya, Belarus, Qazaxıstan, Gürcüstan kimi dövlətlərin vətəndaşlarına daha çox rast gəlmək olar. Qonaqların Bakı haqqında və burada keçirilən "Formula – 1" yarışları ilə bağlı fikirlərini öyrəndik. Trekin keçdiyi Milli Kitabxananın yanında quraşdırılmış keçiddə türkiyəli 2 gənclə görüşüb söhbətləşdik.



**Buğra Qandəmir:** – İlk dəfədir ki, Bakıdayam. Şəhəri çox bəyəndim. Müasir memarlıq üslubunda tikilmiş binalar, tarixi yerlər, yaraşıqlı küçələr insanın yaddaşında xoş iz qoyur. İstanbuldan dostum Tarıkla birgə "Formula-1" yarışlarını izləməyə gəlmişəm. Əvvəllər televiziya ekranlarından bu yarışa həsrətlə baxırdıq. İndi isə "Formula-1" həyəcanını canlı yaşayacağıq. Sürət maşınlarının səsini eşitmək, onları gözümüzlə görmək ayrı bir hissdir. İkimiz də İtaliyanın "Ferrari" komandasına azarkeşlik edirik. Onların da bu yarışda uğur qazanacağına ümid edirik. Yarış iştirakçılarına gəlincə mən ispan idmançısı Fernando Alonsonu, dostum isə finlandiyalı Volter Bottası dəstəkləyirik.

Sonra Qazaxıstandan şəhərimizə qonaq gələn ailə ilə tanış olduq.



**Ayman Kalıyev:** – Ailəmlə birgə Bakıya "Formula-1" yarışlarını izləməyə gəlmişik. Bakı çox təmiz və gözəl şəhərdir. 2-ci dəfədir ki, burda qonağıq. "Bakı Formula-1" şəhər halqası, xüsusilə bizi cəlb edir. Burada qurulmuş çətin keçidlər sanki labirintə bənzəyir. Bu yarışı belə gözəl şəhərdə izləmək olduqca maraqlıdır. İnsanlar da hər yerdə bizə sevgi-sayğı ilə baxır, yardımçı olmağa çalışırlar. Bakı, həqiqətən də, özəl bir məkandır. Xəzər dənizi isə şəhərə əlavə gözəllik bəxş edir. Gələcəkdə Bakıya yenə gəlmək istəyirik.



**Olqa İvanovna, rusiyalı turist:** – Rəfiqəmlə Bakıya bu möhtəşəm yarışı izləməyə gəlmişik. Sveta Belarusdandır, mən isə Rusiyadan. Bu gözəl cənub şəhərini çox sevirik. Yeməkləri xüsusilə bəyənirik. İnsanlar çox mehriban və ünsiyyətcildir. Hər kəsin heç olmasa bir dəfə bura gəlməyi fərqli bir şans sayıla bilər. "Formula-1" yarışında isə rəfiqəmlə mən "Red Bull" komandasını dəstəkləyirik.Yarışın nəticələrini həyəcanla gözləyirik.




# Bakıda "Formula – 1" Azərbaycan Qran-Prisi başladı

**"Formula – 1" təqvimindəki ən sürətli şəhər treki olan Bakı Şəhər Halqasında yarış başlayıb. Dünyanın ən nüfuzlu idman tədbirinə paytaxt Bakı 8-ci dəfə evsahibliyi edir. 10 komandadan 20 pilotun birincilik uğrunda mübarizə aparacağı yarış trekinin uzunluğu 6 kilometrdir.**




Yarışın ilk günündə "Formula – 1" və Formula 2 üzrə sərbəst yürüş və sıralama turu təşkil olunub. "Formula – 1" Qatar Airways Azərbaycan Qran Prisi 2024-də keçirilən ilk sərbəst yürüşlər həyəcan dolu anlar və qəzalarla yadda qalıb. "Red Bull"un sürücüsü Maks Ferştappen 1:45.546 saniyəlik vaxtla yürüşü lider olaraq tamamlayıb. Bununla yanaşı, Ferrari sürücüsü Şarl Lekler və Villiams sürücüsü Franko Kolapinto trasda qəza edərək sessiyanı erkən başa vurmaq məcburiyyətində qalıblar.








Bakı trasının mürəkkəb şəraiti sürücülər üçün böyük çətinliklər yaradıb. Sessiya 3 dəfə qırmızı bayraqla dayandırılıb. Lekler 15-ci döngədə nəzarəti itirib maşını divara çırpıb. Kolapinto isə 4-cü döngədə eyni taleyi yaşayıb. Buna baxmayaraq, Ferştappen ustalığı sayəsində günü zirvədə tamamlayıb.

"Mercedes"in sürücüsü Lyuis Hemilton 1:45.859 saniyə nəticə ilə 2-ci olub. "Red Bull"dan Serxio Peres isə 3-cü yeri tutub. "McLaren" sürücüsü Lando Norris isə 4-cü pillədə qərarlaşıb.

2-ci sərbəst yürüşdə isə yarış iştirakçıları bir saat ərzində 6 kilometrlik trekdə dövrə vurublar "Ferrari" pilotu Şarl Lekler ən yaxşı nəticəni göstərib.



"Red Bull"dan Serxio Peres 2-ci, "Mercedes"dən Lyuis Hemilton 3-cü olublar.

Azərbaycan Qran-Prisi çərçivəsində Formula 2 yarışı üzrə sərbəst yürüşdə də qalib bəlli olub. 45 dəqiqə davam edən yürüşdə ən yaxşı nəticəni "Van Amersfoort" komandasından braziliyalı Enzo Fittipaldi göstərib. "İnvista"nın hindistanlı pilotu Kuş Maini 2-ci, "Prema"nın italiyalı sürücüsü Kimi Antenolli 3-cü olub. Sıralama turunda isə ən yaxşı nəticəni "Trident" komandasından Rixard Versxor göstərib. "Prema Racing"dən Andrea Kimi Antonelli 2-ci, "Art Grand Prix"dən Viktor Martins 3-cü pillədə yer alıb.

Sentyabrın 14-də "Formula – 1" üzrə sərbəst yürüş və sıralama turu, "Formula – 2" üzrə sprint yarışı keçiriləcək. Nəhayət, sonuncu gün – ayın 15-də əsas yarış təşkil ediləcək.

Xatırladaq ki, Azərbaycan 2016-cı ildən dünyanın ən nüfuzlu avtoidman yarışına evsahibliyi edir. Ölkəmizdə təşkil olunan ilk "Formula – 1" yarışı Avropa Qran-Prisi adlandırılıb. Həmin yarışda almaniyalı Niko Rosberq birinci olub. Növbəti illərdə müvafiq olaraq Daniel Rikkardo (Avstraliya), Luis Hemilton (Böyük Britaniya), Valtteri Bottas (Finlandiya), Serxio Peres (Meksika) və Maks Ferstappen (Niderland) rəqiblərini qabaqlayaraq podiumun ən yüksək pilləsinə qalxıblar. Yalnız 2020-ci ildə Azərbaycan Qran-Prisi koronavirus pandemiyası səbəbindən keçirilməyib.

# Bakı yarışını 300-dək media qurumu işıqlandırır

**"Formula – 1" Qatar Airways Azərbaycan Qran-Prisi 2024-ü 300-ə yaxın media nümayəndəsi işıqlandırır.**

Bunların 200-ə yaxını beynəlxalq jurnalistlərdir. Dünya media nəhəngləri Sky Sports, Motorsport, Canal+, Netflix, The Sun və sair bu sırada yer almaqla 3 gün ərzində həyəcanlı Bakı yarışını bütün dünya ilə paylaşacaq.

Tədbirin promoteri Bakı Şəhər Halqası Əməliyyat Şirkəti tərəfindən qurulmuş, hazırda 450 nəfərlik tutumu olan Media Mərkəzi jurnalistlərin ixtiyarındadır. Media Mərkəzi Beynəlxalq Avtomobil Federasiyasının tələblərinə uyğun qaydada təsis edilir.

Qeyd edək ki, 2023 -cü il "Formula – 1" Azərbaycan Qran Prisini televiziya və sosial media platformalarından 90 milyon insan izləyib. "Formula – 1" tərəfindən təqdim edilən rəsmi statistikaya əsasən 2022 -ci ildə bu rəqəm 59 milyon olub. Ümumi olaraq azarkeş və turist sayında, eyni zamanda bilet satışlarındakı rekordu nəzərə alaraq, bu il Azərbaycan Qran Prisinin qlobal izləyici sayında da daha bir rekorda imza atılacağı istisna deyil.





## Şəhid ailələri və qazilərə hədiyyə

**Ötən il olduğu kimi, bu il də "Formula – 1" Bakı yarışına Vətən müharibəsində xalqımıza tarixi Qələbəni bəxş edən qəhrəman şəhidlərimizin ailə üzvləri və qazilərimiz fəxri qonaqlar qismində dəvət olunublar. Onlar "Formula – 1" Qatar Aiways Azərbaycan Qran-Prisi 2024-ü 3 gün ərzində canlı izləyə biləcəklər.**

Artıq üçüncü ildir ki, bu möhtəşəm idman tədbirinə dəvət olunan fəxri qonaqlarımız builki yarışı Azneft və Qız qalası tribunalarından izləyirlər.

*Səhifəni hazırladılar:*
*Leyla QURBANOVA,*
*Fidan SALMANOVA,*
*Elşən AĞALAROV (foto)*
*XQ*

## Yay bitməmiş dağlara qar düşəcək

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Gecə və səhər bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-23° isti, gündüz 26-30° isti olacaq. Atmosfer təzyiqi 759 civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın əksər rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, səhər yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 17-21° isti, gündüz 26-31° isti, dağlarda gecə 5-10° isti, gündüz 12-15° isti olacaq.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3863
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00